*"Səni də aləmlərə ancaq rəhmət olaraq göndərdik!"*

əl-Ənbiya surəsi, 107

# İSLAM PEYĞƏMBƏRİ
# HZ. MUHƏMMƏD ﷺ

Hz. Muhəmmədi ﷺ və onun şərəfli həyatını eyni zamanda hər iki mənbədə - həm Əhli-sünnə, həm də Əhli-şiə mənbələrində varid olan hədislərlə tanıdan təsvirli cib kitabı


Dr. Hisamuddin Toğlu
Hz. Muhəmmədin ﷺ
həyatını tanıdan risalənin
layihə rəhbəri

Dr. Əli bin Həməd ət-Təmimi
"əl-Məbərra" xeyriyyə
fondunun nəzdində olan
tədqiqatlar və araşdırmalar
mərkəzinin direktor müavini



مبرة الآل والأصحاب

Əhli-beyt və səhabələr adına xeyriyyə fondu
İslam maarifləndirmə mövzuları silsiləsindən (22)

Birinci nəşr

**MUHAMMAD**
**POCKET GUIDE**

Hz. Muhəmmədi ﷺ və onun şərəfli həyatını eyni zamanda hər iki mənbədə - həm Əhli-sünnə, həm də Əhli-şiə mənbələrində varid olan hədislərlə tanıdan təsvirli cib kitabı.


Sual və ya təkliflər üçün aşağıdakı internet saytları ilə əlaqə saxlayın
osoul@rabwah.com
www.islamhouse.com
www.guidetoislam.com
muhammadpocketguide@gmail.com
Beynəlxalq nəşr №.
Birinci nəşr:

# Təşəkkür və Minnətdarlıq

Müsəlmanlara, Muhəmmədin adını çəkdikdə, ona Allahın salavatı və salamı olsun deməklə ehtiram ifadə etmək dini bir tələbdir. Ərəbcə belə yazılır ( ﷺ ).

Bununla belə, bu kitabça Muhəmməd peyğəmbərin adının tez-tez xatırlandığı ümumiləşdirilmiş cib bələdçisi olduğundan, yerdən qənaət etmək və qeyri-müsəlman oxucuların diqqətini yayındırmamaq üçün bəzi yerlərdə "ona Allahın salavatı və salamı olsun" sözünün əvəzinə ərəbcə ( ﷺ ) ifadəsini qoymaq heç bir hörmətsizlik sayılmır.

Müsəlmanlar kainatı və bütün varlıqları yaradan bir Allaha (bir tanrıya) inanırlar. Onun adı “Allah”dır. Bu cib bələdçisində nə vaxt Allah və ya Rəbb kəlməsi qeyd edilsə, bu, Allah-taala deməkdir.

İngilis dilində istifadədə tanınan ərəb sözləri Websterin yazılışını izləyəcək, məsələn, Məkkə və Mədinə şəhərləri. Bununla belə, faydalı olduqda, orijinal ərəb sözünün dəqiq transliterasiyası istifadə edilə bilər.

Bir çox İslam kitablarında Məkkə tez-tez "Məkkə" yazılır. Eynilə Mədinə “Mədinə” və ya “Mədinə əl-Münəvvərə” yazılır ki, bu da “İşıqlı şəhər” deməkdir.

Bu kitabda “Məkkə” və “Mədinə”dən istifadə olunacaq. Bu cib bələdçiliyində verilən məlumatlar müəllifin ən yaxşı biliyinə uyğun olaraq orijinal mənbələrdən əldə edilmişdir. Oxucular öz şərhlərini e-poçt ünvanına göndərə bilərlər:

info@guidetoislam.com
muhammadpocketguide@gmail.com

Peyğəmbər - salləllahu aleyhi və səlləm – belə buyurdu: "Mənim və əvvəlki peyğəmbərlərin məsəli, gözəl və heyrətamiz bir ev tikmiş, lakin kərpicinin birini qoymamış bir kimsənin məsəlinə bənzəyir. Camaat bu evin yan-yörəsindən keçir, ona təəccüb edir və deyirlər: "Nə üçün bura bir kərpic qoyulmayıb?" Sonra Peyğəmbər davam edib dedi: "O kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam."

Səhih əl-Buxari, 3535; ibn Şəhr Aşubun "Mənaqib Ali Talib" əsəri, 1/198.

# Müqəddimə

İnsanı ən gözəl surətdə yaradan, ona göz, qulaq və könül verərək yer üzünün xəlifəsi edən Allaha həmd olsun. Peyğəmbərlərin sonuncusu Hz. Muhəmmədin və onun əhli beytinin üzərinə Allahın salavatı və salamı olsun.

Təsvirli cib kitapçası olaraq hazırlanmış bu kitab, Hz. Muhəmməd ﷺ və onun təlimlərini və bu təlimlərdən qaynaqlanan İslam mədəniyyətinin əxlaqi və mənəvi dəyərlərinin əsaslarını tanıtmaq məqsədi daşımaqdadır.

Hz. Muhəmməd ﷺ Allahın göndərdiyi sonuncu kitabın təbliğçisi kimi sadəcə şifahi olaraq deyil, həm də Allahın buyruqlarını öz həyatında tətbiq edərək əməli olaraq da təbliğçi vəzifəsini yerinə yetirirdi. Allah Rəsulu, Allahın buyruqlarını əvvəla öz həyatında tətbiq edir sonra onu insanlara təbliğ edirdi. Bu mənada hətta demək olar ki o canlı bir Quran idi. Bu cəhətdən Hz. Peyğəmbər ﷺ qiyamət gününə qədər bütün müsəlmanlar üçün nümunəvi şəxsiyyətdir.

Hz. Muhəmmədin ﷺ həyatı təkcə müsəlmanların deyil, bütün bəşəriyyətin faydalana biləcəyi böyük bir uğur hekayəsidir. Hz. Muhəmmədin ﷺ tərcümeyi-halını diqqətlə oxuyanlar, onun həyatında, davasında və mübarizəsində imkanları daxilində səbəblərdən yapışan sadə bir insan olduğunu görəcəklər.

Hz. Muhəmmədin ﷺ siyasət, cəmiyyət və iqtisadiyyat sahələrində qazandığı uğurlar möcüzə kimi asanlıqla əldə edilməmişdir. Əksinə bu nailiyyətlər əvvəlcə Allahın lütfü və yardımı ilə, sonra isə ciddi və nizamlı iş, fədakarlıq, mübarizə, səmimiyyət, sevgi və gördüyü işə iman nəticəsində əldə edilmişdir. Hz. Muhəmməd ﷺ normal bir insanın həyatında görə biləcəyi hər vəziyyəti yaşamışdır. Zənginlik və yoxsulluq, aclıq və toxluq, güvən və qorxu, sağlamlıq və xəstəlik, sevinc və kədər kimi insan halları Hz. Muhəmmədin ﷺ həyatında da baş vermişdir. O peyğəmbər olmaqla bərabər həyat yoldaşı, ata, baba, müəllim, sərkərdə və dövlət başçısı olmuşdur.

Hz. Muhəmmədin ﷺ öyrətdiyi dəyərlər insanlara xoşbəxt və ləyaqətli həyat bəxş edir. İnsanlara sülh və sevgi ilə dolu bir ailə qurmağı öyrədir. Cəmiyyətdə ədaləti, bərabərliyi, əxlaq və fəziləti, sevgi və qardaşlığı təsis edir.

Hz. Muhəmməd Peyğəmbər ﷺ vəfat etdikdən sonra Allahın əbədi kəlamı olan Quran və sünnə dediyimiz hədisləri miras olaraq qoyub getmişdir. Müsəlmanlar da sevimli Peyğəmbərindən ﷺ aldıqları bu əzəmətli mirası diqqətlə qoruyub saxlayaraq nəsildən-nəslə ötürərək bu günə qədər çatdırmışlar.

Geniş oxucu kütləsinə təqdim etdiyimiz bu kitab, Hz. Peyğəmbərin ﷺ mübarək tərcümeyi-halından, gözəl təsvirlərindən və nəcib əməllərindən kiçik bir hissəni ehtiva etməkdədir. Bəşəriyyətin təhlükəli tarixi dönüş nöqtəsinə çatdığı bir vaxtda, insan sistemləri və insan nəzəriyyələri iflas etdi. İnsanlar sağa-sola dönüb vicdanlarını sıxan bu böhranlardan çıxış yolu axtarırlar.

Biz müsəlmanlar əminik ki, bu problemlərin həlli ancaq insanların, peyğəmbərlərin çağırdığı dəvətə qulaq asaraq və onlara tabe olaraq Allahın yaratdığı fitrət üzrə üzünü islama çevirməsindədir.

**Osoul Global Center**

# Təşəkkür və Minnətdarlıq

Bu kitabın ərsəyə gəlməsində göstərdikləri əməkdaşlığa görə aşağıdakı təşkilatlara xüsusi təşəkkürümüzü bildiririk:

Mədinə Araşdırma və Tədqiqatlar Mərkəzi

Küveyt Dövləti Vəqflər və İslam İşləri Nazirliyi

Dubay İslam Məsələləri və Xeyriyyə Fəaliyyətləri Departamenti

İordaniya Haşimilər Krallığı Vəqflər və İslam İşləri Nazirliyi

Bəhreyn Krallığı əl-Fatih Məscidi

Malayziya Ali İslam İşləri İdarəsi (JAKIM)

İndoneziya Din İşləri Nazirliyi

# Mündəricat


**1. Mütəfəkkirlərin şəhadətləri 12**

Mütəfəkkirlərin Hz. Muhəmməd ﷺ haqqındakı şahidliyi

**2. Hz. Muhəmmədin ﷺ sifətləri və xislətləri 20**

**3. Hz. Muhəmmədin ﷺ tərcümeyi-halı 26**

Hz. Muhəmmədin ﷺ müxtəsər olaraq tərcümeyi-halı, təlimi, işi və ailə həyatı.
Peyğəmbərliyindən ölümünə qədər mühüm hadisələr.
Hz. Peyğəmbərin ﷺ həyatı ilə əlaqədar bəzi mühüm yerlərin şəkilləri

**4. Peyğəmbərlik və Risalət 66**

Hz. Muhəmmədin ﷺ peyğəmbər olması və ilk vəhyin gəlməsi
İslam dini insanları nəyə dəvə edir və özündən əvvəlki səmavi dinlərlə əlaqəsi nədir?
Hz. Muhəmməd ﷺ, Hz. İbrahim, Hz. Musa və Hz. İsa haqqında nə demişdir.

**5. Əxlaq və Mədəniyyət 108**

Hz. Muhəmməd ﷺ İslam mədəniyyətinin əxlaqi əsaslarını necə möhkəmləndirdi və sabitləşdirdi?
Hz. Muhəmməd ﷺ içtimai həyata hansı müsbət əxlaqi keyfiyyətlər qazandırdı.
Hz. Muhəmməd ﷺ təhsil, şəxsi inkişaf və özünə nəzarət haqqındakı təlimləri nədir?
Hz. Muhəmmədin ﷺ ictimai münasibətlər, iqtisadiyyat və qeyri-müsəlmanlar haqqında hansı təlimləri var?

**6. Qadın 138**

İslamda qadın hüquqları.
Çox evlilik anlayışını Hz. Muhəmməd ﷺ gətirib yoxsa o dövrdə adi hal olan çox evliliyə ilahi qanunla məhdudiyyətlər qoyub?
Hz. Peyğəmbər ﷺ 25 il tək qadınla evli qaldıqdan sonra birdən çox qadınla evlənməsinin səbəbləri nədir?

**7. İnsan Hüquqları** **156**

İslamda azadlıq, ədalət və insan hüquqlarının qorunması
Hz. Muhəmmədin ﷺ müharibə və yadlara qarşı münasibətlər haqqındakı təlimləri.

**8. Ətraf mühit** **172**

Yaşıl dünyaya çağırış. Ətraf mühitə dəyər əlavə etmək
Təbii ehtiyatların qorunması.
Heyvanlara və halal qidalara etik münasibət.

**9. Möcüzə** **182**

Nə üçün Quran əbədi bir möcüzə sayılır?
Quranda elmi faktlar.

Müasir elm kəşf etmədən əvvəl Qurani Kərimin zikr etdiyi həqiqətlər.

Quranın Allah kəlamı və bəşəriyyətə göndərdiyi bir risalə olmasını necə isbat etmək olar.

Allahın risaləsi olan Qurani Kərim ərəb dilində olduğu halda necə ola bilər ki, bütün bəşər üçün göndərilmiş sayılır.

**10. Hədisi şəriflər** **196**

Muhəmmədin ﷺ müxtəlif məsələlərlə bağlı kəlamları.
Yemək içmək və təbii möcüzlərlə bağlı Peyğəmbərin ﷺ təlimləri.

**11. Son** **214**

**12. İslam memarlığı və xəttatlığı** **224**

İslam sənəti və xəttatlıq.
Dünyanın müxtəlif ölkələrində olan islam memarlığı və məşhur məscidlərin şəkiləri.

**İstifadə olunmuş ədəbiyyatlar** **274**





محمد Xəttat Fərid əl-Əli tərəfindən yazılan “Muhəmməd” sözüdür. Bu yazı onun “Muhammadiyat” kolleksiyasından götürülmüşdür.

Yuxarıda altıbucağın içində "Muhəmməd Allahın Rəsuludur" محمد رسول الله yazılıb. Bu yazıdakı “Ha” hərfi məscidin günbəzi kimi görünür.

Bu yazının əttrafındakı altıbucaqlı divarda isə “Muhəmməd” sözü gözəl həndəsi formada və incə bədii üslubda işlənib.

Muhəmməd ərəb mənşəli bir addır. Azərbaycan dilində bəyənilən, tərifəlayiq, çox təriflənmiş, mədh edilmiş anlamlarını ifadə edir.

O, xeyirxah əməlləri və nümunəvi həyatı ilə insanlar tərəfindən daim təriflə xatırlanan bir şəxsdir.

Fəsil

# 1

# Mütəfəkkirlərin şəhadətləri



# MÜTƏFƏKKİRLƏRİN ŞƏHADƏTLƏRİ

## Muhəmməd: Dünyaya təsir edən 100 böyük şəxsiyyət


Maykl Hart

Amerikalı alim dünyanın formalaşmasında mühüm rol oynamış tarixin 100 ən mühüm şəxsiyyəti haqqında kitab tərtib etmək qərarına gəlmişdi. Bu kitabda o, bu insanların bioqrafiyalarını cəmiyyətə təsir dərəcələrinə görə sıralamağı qarşısına məqsəd qoymuşdu. Maykl Hart məqsədinə çatmaq üçün kompüterdən istifadə etməyə qərar verdi.

Kompüterin yaddaşında bu şəxslərin fəaliyyətləri, məqsədlərinə necə çatmaları, bəşər tarixinə təsirləri haqqında materiallar var idi.
Kompüter təhlili nəticəsində tarixdə iz qoyan 100 nəfərin adı müəyyən edildi. Bundan sonra kompüter bu şəxsiyyətlərdən ən yaxşılarını seçdi. Muhəmməd peyğəmbərin ﷺ adının ekranda birinci yerdə görünməsi Hart və onun həmkarlarını şoka salmışdı. Düşündülər ki kompüter səhv edib. Buna görə də təcrübəni təkrarlamağa qərar verdilər. Bununla belə, Muhəmmədin ﷺ adı kompüter ekranında birinci yerdə görünmüşdü.

M.Hart və tərəfdaşları təcrübəni dəfələrlə təkrarlasalar da, nəticə dəyişməz olaraq qalmışdı. Bundan sonra alimlər həqiqəti qəbul etməli oldular. Beləliklə də, 1978-ci ildə Amerikada Maykl Hartın “Dünyanı formalaşdıran 100 böyük şəxsiyyət” kitabı işıq üzü gördü.

Kitabda adları çəkilən insanların çoxu öz dövrünün inkişaf etmiş ölkələrində, mədəniyyət mərkəzlərində doğulub boya başa çatmışdılar.

Peyğəmbərimiz ﷺ isə elm və mədəniyyət mərkəzlərindən uzaq, köçəri bədəvilərin yaşadığı çox sadə bir bölgədə doğulmuş və yaşamışdır. Buna baxmayaraq Hz. Peyğəmbər ﷺ hamını qabaqlayaraq birinci seçilmişdir. Maykl Harta görə Muhəmməd peyğəmbərin ﷺ kitabda birinci olmasının səbəbi, onun dünyanın ən böyük dinlərindən biri olan İslamın əsaslarını qoyması və bu dinin inkişafında böyük rol oynamasıdır.

Maykl Hartın fikrincə, kitabda Muhəmməd peyğəmbərin ﷺ adının İsa peyğəmbərin adından qabaq olmasının səbəbi isə Muhəmməd peyğəmbərin ﷺ İslamın yaradılması və inkişafında şəxsi xidmətlərinin, xristianlığın təşəkkül tapmasında İsa peyğəmbərin ortaya qoyduğu xidmətlərindən daha böyük olmasındandır. Muhəmməd ﷺ tarixdə həm dini, həm də siyasi fəaliyyətində son dərəcə müvəffəqiyyətli olan yeganə şəxsdir. Bu səbəbdən də bütün alimlər onu böyük uğurlar qazanmış siyasi lider hesab edirlər.



## Tomas Karlayl

*(1795 - 1881) Şotlandiya tarixçisi, filosofu və "Hero, Hero Worshipand Heroic in History/ Qəhrəmanlar, Qəhrəmana pərəstiş və Tarixdə Qəhrəmanlıq" kitabının müəllifidir.*

“Təəccüblüdür ki, bir adam, uzun illərdir bir biri ilə müharibə edən qəbilələri və köçəri ərəbləri sadəcə iyirmi il ərzində ən güclü və ən mədəni millət halına gətirdi.”

***Qeyd:*** *Tomas Karlayl tarixi şəxsiyyətlərin koordinatlarından istifadə edərək insan zəkasının inkişafının şəklini çəkməyə çalışmışdır. O kitabında “Hero as a Prophet/Bir qəhrəman peyğəmbər” başlığı altında Hz.* Muhəmməd ﷺ *üçün xüsusi bir hissə ayırmışdır.*



## Alfonso De Lamartin

*(1790 - 1869) Fransız şairi, yazıcısı və siyasətçi Histoire De La Turquie/ Türk Tarixi adlı kitabın müəllifidir. Paris, 1854,Cild. II, s. 276-277*

Hz. Muhəmməd ﷺ haqqında insaflı şəkildə danışanlardan biri də Fransalı məşhur yazıçı və siyasətçi Alfonso de Lamartindir. O, Muhəmməd peyğəmbərin ﷺ başqa insanlardan üstünlüyünü vəsf edərək belə deyir:

Əgər işin böyüklüyü, istifadə vasitəsinin kiçikliyi və çatılan nəticənin genişliyi və əhatəli olması insan dahiliyi üçün ölçü ola biləcək üç meyyardırsa, müasir tarixin hansı siyasi adamı Hz. Muhəmməd ilə müqayisə edilə bilər?

Tarixin ən məşhur kəsləri, ya qılıncları, ya qanunları, ya da qurduqları imperatorluqlarla şöhrət qazanmış kəslərdir.

Əgər hakim olduqları yerlərdə bir şeylər qura bilmişlərsə, bunlar həmişə maddiyyatla əlaqədar şeylər olmuşdur və hələ həyatda ikən onlardan əvvəl yıxılıb getmişdir. Muhəmməd Peyğəmbər ﷺ bu günkü yaşanan dünyanın üçdə biri üzərində, orduları, qanunları, imperiyaları, millətləri və tərəfdarlarıyla birlikdə milyonlarla insana təsir etmişdir. Bunlarla birlikdə fikirlərə, inanclara və ruhlara da təsir etmişdir. O, hər hərfi bir qanun halına gəlmiş bir kitab əsasında müxtəlif irqlərdən və müxtəlif dillərdə danışan millətlərdən ibarət olan mənəvi bir milliyyət qurmuşdur.

Hansı ki bu millət, uydurma tanrılara qarşı nifrətlə yanaşmış tək və əbədi olan Allaha isə sonsuz sevgi ilə bağlanmışdır. Muhəmməd Peyğəmbər ﷺ, fikirlər fatehi, ağıl əsaslarına söykənən bir inancın, təsvirsiz bir dinin qurucusu və yer üzündəki bir çox maddi imperiyanın və onlara hakim olan tək bir mənəvi imperyanın qurucusudur.
Budur Hz. Muhəmməd ﷺ İnsanların böyüklüyünü nə ilə ölçürlərsə ölçsünlər, dünyada heç bir insan Hz. Muhəmməddən ﷺ daha böyük ola bilməmişdir.



## John Adair

*Britaniya Liderlik Mütəxəssisi və "The Leadership of Muhammed/* Muhəmmədin *ﷺ rəhbərliyi" kitabının müəllifidir. Eyni zamanda O, BMT Liderliyin Tədqiqatları Departamentinin direktorudur."*

İslam düşüncəsində; nümunəvi rəhbərlər uca şəxsiyyət olmaqla yanaşı təvazökar, uzaqgörən və ilham vermə qabiliyyətinə malikdir. Muhəmməd peyğəmbərin ﷺ həyatında görülən liderlik nümunəsi bu xasiyyətlərlə bərabər, bir çox üstün cəhəti əhatə etməkdə və liderliyin təbiəti və praktikası haqqında bildiyimiz universal həqiqətlə tam uyğunlaşmaqdadır. Muhəmmədin ﷺ bu ideala nə qədər yaxınlaşdığını özünüz mühakimə edəcəksiniz".



## Vilyam Montgomeri Vat

*(1909 - 2006) Şotlandiya tarixçisi və Edinburq Universiteti Ərəb və İslamşünaslıq şöbəsinin təqaüdçü professoru. "*Muhəmməd *Məkkədə" kitabının müəllifidir. (Oksford, 1953 s.52)*

"Onun inanclarına görə təqiblərə məruz qalmağa hazır olması, ona inanan və onu lider kimi qiymətləndirən insanların yüksək əxlaqi xarakteri və son nailiyyətinin böyüklüyü, onun əsas dürüstlüyünü sübut edir. Çox təəssüf ki, tarixin böyük şəxsiyyətlərindən heç biri qərbdə Muhəmməd ﷺ qədər az təqdir edilməmişdir"



## Johann Wolfgang Von Goethe

*(1749 - 1832) Böyük alman mütəfəkkiri, şair və Məşhur "Noten und Abhandlungen zum Westslichen Dvan /Şərq-Qərb Divanı" adlı əsərin müəllifidir.*

"O, şair deyil, peyğəmbərdir. Ona görə də onun gətirdiyi Qurana, insan tərəfindən yazılmış təhsil və ya əyləncə kitabı kimi yox; ilahi qanun kitabı kimi baxmaq lazımdır".



**Mahatma Qandi**

*(1869 - 1948) Hindistan müstəqillik hərəkatının siyasi və ruhani lideri*

“Mən bu gün milyonlarla bəşəriyyətin qəlbində şəksiz hökmranlıq edən birinin (Muhəmmədin) həyatının ən yaxşısını bilmək istədim. Mən həmişəkindən daha çox əmin oldum ki, o dövrlərdə İslam qılınc gücüylə özünə yer qazanmamış, əksinə milyonlarla adamın qəlblərinə hakim kəsilmiş və Muhəmməd peyğəmbərin ﷺ ləyaqəti, cəsarəti və şücaəti sayəsində yer tutmuşdur. Muhəmməd peyğəmbər ﷺ, qarşısında duran vəzifəni layiqincə yerinə yetirmiş, dostlarına və ardıcıllarına həmişə sədaqət nümayiş etdirmiş, islam ideyalarını həyata keçirmək üçün fədakarlıq göstərmiştir. Buna görə o bənzərsiz bir şəxsiyyət kimi daim sevilməkdədir”



**Viylam Durant**

*(1885-1981) tarixçi, filosof və “The Story of Civilization/Sivilizasiya hekayəsi” adlı kitabın müəllifidir. 4. Cild. 4. Fəsil s.25*

“Onun adının mənası “tərifə layiq” deməkdir. Bu mənada Bibliyanın bəzi hissələrində onun adına işarə olunur və gəlişi prognozlaşdırılır. Muhəmmədin ﷺ əvvəlcə oxuma yazma savadı yox idi. Fəqət oxuma yazma bilməməsi onun ərəb dilindəki ən məşhur və ən bəlağətli kitabı (Quranı) yaratmasına və yüksək təhsilli insanların bacara biləcəyi insanları idarə etmə anlayışına sahib olmasına mane olmadı.



## Lev Tolstoy

*((1828 - 1910) Məşhur rus mütəfəkkiri və yazıçısı və dünya klassikləri arasında yer alan "Hərb və Sülh" əsərinin müəllifidir.*

"...Bunu söyləmək mənim üçün nə qədər qəribə olsa da Muhəmmədilik, xaça ibadət etməkdən (Xristianlıqdan) müqayisə olunmayacaq dərəcədə yüksəkdir. Əgər İnsanın seçmək hüququ olsaydı, ağlı başında olan hər bir Xristian və hər bir insan, şübhə və tərəddüd etmədən Muhəmmədiliyi, tək Allahı və onun Peyğəmbərini qəbul edərdi"



## Reverend Reginald Bosworth Smith *(1839-1908)*

*İngilis din xadimi və "Mohammad and Mohammedanism/*Muhəmməd *və* Muhəmməd*lik" adlı əsərin müəllifidir.*

O (Hz. Muhəmməd ﷺ) dövlət başçısı eyni zamanda kilsənin başı və papa idi. Ancaq tələbləri olmayan papa və legionu olmayan Sezar. Onun sarayı, hazır ordusu, şəxsi cangüdəni, daimi gəliri və qanunları yox idi. Əgər bir insanın, insanları Allah adına idarə etdiyini deməyə haqqı olsaydı, bu Muhəmməd ﷺ olardı. O vasitələrə və dəstəyə sahib olmadan bütün gücü əlində tuturdu. Ancaq buna baxmayaraq o gücün təzahürlərinə əhəmiyyət vermidi. Şəxsi həyatındaki sadəliyi ictimai həyatında da özünü göstərirdi."



## Maurice Bucaille

*(1920 - 1998) Fransız həkim və cərrah, habelə "The Bible, The Qur'an and Science /İncil, Quran və Elm" adlı kitabın müəllifidir.*

"Quranı tamamilə obyektiv qərəzsiz nəzərdən keçirdim. Müxtəlif mövzuları təqdim edən Quran mətinlərinin müasir elmi məlumatlarla uyğunlaşması məni dəhşətə gətirdi. Muhəmmədin ﷺ dövründəki bilik səviyyəsini nəzərə alsaq, Quranda qeyd olunan elmi həqiqətlərin insan sözü olması qeyri mümkündür. Oxuma yazma bilməyən bir insanın müəyyən mövzuları zərrə qədər səhv etmədən elmi faktlarla necə izah edə bilər?"

# Muhəmməd ﷺ Zamanımızın Peyğəmbəridir



İngilis yazıçısı Karen Armstronq **"MUHƏMMƏD ZAMANIMIZIN PEYĞƏMBƏRİDİR" "MUHAMMAD A PROPHET FOR OUR TIME"** adlı kitabında Muhəmməd ﷺ haqqında belə deyir:

"Onun nailiyyətlərini başa düşmək və ondan ibrət götürmək üçün həm müsəlmanlar, həm də qərblilər Muhəmmədin həyatını obyektiv və doğru şəkildə oxuyub araşdırmalıdırlar.

Muhəmməd ömrünü zülm və zorakılığın aradan qaldırılmasına həsr etmişdir. O, qəbilələr arasında sülh yaratmaqla uzun illər davam edən qan davalarına və müharibələrə son qoymuşdur.

İslam dünyası ilə qərb arasında baş verə biləcək müharibə fəlakətlərinin qarşısını almaq üçün bir-birimizi anlamalı və münaqişələrimizi həll etməliyik. Şübhəsiz ki, bu işə başlamaq üçün ən yaxşı və doğru məqam Muhəmmədin ﷺ həyatını öyrənməkdir."

Fəsil

2

# Hz. Muhəmmədin ﷺ sifətləri və xislətləri




*Hz.Muhəmmədin ﷺ sifətlərinin yazıldığı lövhələr "Hilye-i Şerif" adlanır. Bu lövhələr adətən xəttatlıq üzrə ustalıq dərəcəsi almış xəttatlar tərəfindən yazılır. Yuxarıdakı Hilye-i Şerife lövhəsi isə İspanyalı xəttat Nuria Qarsianın əseridir. Bu lövhədə Hz. Muhəmmədin ﷺ vəsfləri və bəzi xislətləri yazılmışdır.*

# Hz. Muhəmmədin ﷺ sifətləri və xislətləri

İslam dini, kainatın yaradıcısı tərəfindən göndərildiyinə görə, ayrı-seçkilik etmədən bütün Peyğəmbərlərə dərin hörmət edilməsini əmr edir.

Bu səbəbdən Müsəlmanlar, peyğəmbərlərin şəkillərini çəkməyin haram olduğuna inanırlar. Ona görə də müsəlmanlar nə Hz. Muhəmmədin ﷺ nə də başqa peyğəmbərlərin şəkillərni çəkiblər. Bununla belə Muhəmməd Peyğəmbərin ﷺ yaşadığı dövrü təsvir edən kitablar onun xislətlərini, əxlaqi keyfiyyətini və sifətlərini çox diqqətlə təsvir edən rəvayətlər nəql ediblər.

## Hz. Muhəmmədin ﷺ təsviri və xüsusiyyətləri



Orta boylu nə hündür, nə də qısa idi. Onun mübarək üzü çəhrayı-ağ, ay kimi parıldayırdı! Görənlər dərhal onu sevərdi. Onun alnı iri, mübarək gözləri isə qara və iri idi. Saçları qara olsa da, arasında bir neçə ağ saçları var idi. saçı nə hamar, nə də qıvrım deyildi. Saqqalı çox uzun deyildi amma gur idi. O, kök deyildi qarnı düz və sinə səviyyəsində idi. Yeriyərkən iti-iti yeriyir əyağını yerə sürtməzdi. Geriyə baxmaq lazım olanda bütün bədəni ilə dönərdi.

## Hz. Muhəmmədin ﷺ xarakter və şəxsiyyəti

Hz. Muhəmmədin ﷺ xasiyyəti sakit və davranışı yumşaq idi, özü isə kobud və sərt deyildi. Ona 10 il xidmət edən Ənəs ibn Malik رضي الله عنه onu vəsf edərkən belə demişdir: "Peyğəmbər ﷺ insanların ən əxlaqlısı idi. O bir dəfə də olsa belə mənə "uff" deməmişdir".

Gülüşlərinin çoxu təbəssüm şəklində idi. Səhabələri ilə zarafat edirdi. Ancaq zarafat edəndə həmişə həqiqəti deyirdi. Sözləri yersiz və ədəbsiz deyildi. Onun sözləri və hərəkətləri olduqca ədəbli idi. Heç vaxt ucadan danışmazdı, qışqırmazdı.

## Hz.Muhəmmədin ﷺ sözlərinin vəsfi

Hz. Muhəmməd ﷺ çox danışan deyildi. Danışanda bəlağətli sözlərdən istifadə edər, az, yığcam və səlis danışardı. Bir şeyin əhəmiyyətini vurğulamaq istəyən zaman onu üç dəfə təkrarlayardı.

Mübahisələri sevmirdi. Çox ayıblayan və çox tərifləyən deyildi. Əsla yalan danışmaz ancaq düz danışırdı. Sözlərini ancaq Allah rizası üçün sərf edərdi. Mübahisə və yalandan zarafat etmək barədə səhabələrinə belə demişdi:

> "Mən, haqlı olduğu halda belə mübahisədən əl çəkən kimsənin Cənntin güşəsində bir evi olacağına, habelə zarafatla olsa belə yalanı tərk edənin Cənnətin ortasında bir evi olacağına və bir də əxlaı gözl olan kimsənin Cənnətin ən yüksək təbəqəsində bir evi olacağına zəmanət verirəm". (Əbu Davud, 4800, 4974; Təbərani, "Mocəm əl-Kəbir" 8/98; İbn Babuya əl-Qumminin "əl-Xisal" əsəri 1/144; Bihər əl-Ənvar, 2/128)

## Hz. Muhəmmədin ﷺ duyğuları və əhval-ruhiyyəsi



Hz.Muhəmmədin ﷺ qəzəbli bir xasiyyəti yox idi. Heç vaxt özünə görə qəzəbləndiyi görülməmişdi. Həmçinin səhabələrinə həmişə Allah rizası üçün qəzəblənməkdən başqa, mülayim olmalarını və əsəbilikdən çəkinmələrini tövsiyə etmişdir.

Hz. Aişənin رضي الله عنها rəvayət etdiyinə görə, Hz. Muhəmməd ﷺ Allah yolunda etdiyi cihad istisna olmaqla heç kəsi əli ilə vurmamış, nə qulluqçusuna, nə də bir qadına əl qaldırmamışdır. Heç vaxt yamanlığa yamanlıqla cavab verməmiş, əksinə, həmişə bağışlayan olmuşdur.

## Hz. Muhəmmədin ﷺ insanlarla rəftarı

Hz. Muhəmməd ﷺ insanlarla görüşəndə təbəssümlə ilk salamlaşan şəxs olmağa çalışardı. Həmçinin səhabələrinə insanların üzünə təbəssüm etməyin sədəqə olduğunu öyrətmişdi. Günah işlər istisna olmaqla iki seçim arasında qaldıqda onlardan ən asan olanını seçərdi.

Özünə aid olmayan işlərə qarışmazdı. İnsanlarla səmimi və mehriban davranmağı xoşlayırdı. O, əmin və sadiq idi. Bu səbəbdən; insanlar ona "Sadiqu'l - Əmin" ləqəbini vermişdilər. O, məclisə girəndə məclisin ən sonunda oturmağa üstünlük verirdi. Onunla danışanlara diqqətlə qulaq asardı. Danışan adamın sözünü kəsməzdi. O, çox nəzakətli idi. Ondan məzəmmət olunası heç bir əməl görülməmişdir.

## Hz. Muhəmmədin ﷺ gündəlik həyatı

O, nə israfçı, nə də xəsis idi. Ömrünün hər anında təmkinli və təvazökar idi. Yeməyi seçməz, az yeyər və yeməkdə qüsur axtarmazdı. Ömrü boyu iki gün dalbadal arpa çörəyi yeməkdən doymamışdı. Sağ əli ilə yemək yeyər, yeməkdən sonra barmaqlarını yalayardı. Yeməyə “Bismilləh” deyərək başlayır süfrədən qalxanda isə “Əlhəmdülilləh” deyərdi.

O, digər insanlar kimi öz işini özü görər, qoyunlarını öz mübarək əlləri ilə sağardı. Evdə olanda ev işlərində ailəsinə kömək edərdi. Təmiz və səliqəli idi. O, bahalı olmamaq şərti ilə çox gözəl geyimlər geyinər, gözəl iyli ətirlərdən istifadə etməyi xoşlayar və mübarək gözlərinə "İsmid" sürməsi çəkərdi.
Sübh namazından sonra yerindən tərpənməz (namaz qıldığı yerdə qalar), günəş çıxana qədər zikr edər və Quran oxuyardu. O, hər gecə, gecə namazına qalxar, yatıb qaldıqda isə həmin namazı gündüz qılardı. Rəvayər edilir ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ gecə namazını qılarkən o qədər ayaq üstə durardı ki, hətta ayaqları şişib yarıq-yarıq olardı. Bir dəfə mən ona: "Ey Allahın elçisi! Nə üçün özünə bu qədər əziyyət verirsən. Axı Allah sənin kiçmiş və gələcək günahlarını bağışlayıb?" dedikdə o belə cavab verdi: "Şükür edən bir qul olmayımmı!?". Buxari və Muslim.

O, səxavətli və mehriban idi. İnsanlara bol yemək verməyi xoşlayırdı və buna görə də kasıb olmaqdan qorxmurdu. Özü və ailəsi üçün zəkat malından heç bir şey götürməz, həmçinin ailə üzvlərindən birinin zəkat toplamaqla məşğul olmasını heç vaxt qəbul etməzdi. Torpaq evdə yaşayırdı.

Evinin damı xurma yarpaqları və dəvə dərisi ilə örtülmüşdü. Abdullah ibn Abbasdan رضي الله عنهما rəvayət edilən hədisdə Hz. Muhəmməd ﷺ dünya həyatı ilə bağlı fikirlərini belə ifadə etmişdir:

"Nə mənim dünya ilə, nə də dünyanın mənimlə heç bir əlaqəsi yoxdur! Canım əlində olan Allaha and olsun ki, mənimlə dünyanın məsəli, uzun və isti yay günündə bir ağacın kölgəsi altında bir az dincini aldıqdan sonra, o kölgəliyi tərk edib gedən atlının məsəlinə bənzəyir." (Buxari, Mərda, 1; Əhmədin "Musnəd" əsəri 2/666, 2788; Bihər əl-Ənvar, 70/123)



Peyğəmbər ﷺ məscidinin təsviri. [məscid Hz. Peyğəmbər Yəsribə gəldikdən sonra tikilmişdir] Peyğəmbərin ﷺ evi məscidin cənub küncündə idi.



Fəsil

3

# Həyatı və tərcümeyi-halı

**Qeyd:** Hicri təqvimlə Hz. Muhəmməd ﷺ Rəbiül-əvvəl ayının 12-si (Mədinəyə hicrətinin on birinci ili) bazar ertəsi günü vəfat etdi. H.s bu kitabda qəməri aylara əsaslanan İslam təqvimini ifadə etmək üçün istifadə edilən qısaltmadır. “Hicrətdən sonra” ifadəsinin qısaltmasıdır. Yəni Hz. Muhəmmədin ﷺ Məkkədən Mədinəyə hicrətindən sonra.



# HƏYATI VƏ TƏRCÜMEYI-HALI



## Hz. Peyğəmbərin müxtəsər olaraq tərcüməyi halı:

| | |
|---|---|
| **Adı** | Muhəmməd ﷺ |
| **Atasının adı** | Abdullah bin Abdulmuttalib (Onun soyu İbrahim Peyğəmbərin oğlu İsmail Peyğəmbərə birləşir). |
| **Soyadı** | Haşim oğullarına nisbət olunur (Bəni Haşim ərəb yarımadasının ən şərəfli qəbilələrindən olan Qureyşin bir qoludur). |
| **Təvəllüdü** | Miladi 22 Aprel 570 ( Fil ilinin 9 və ya 12 Rəbiüləvvəli). |
| **Doğulduğu yer** | Məkkə Mükərrəmə - Ərəb yarımadası / Səudiyyə Ərəbistan. |
| **Vəfat tarixi** | Miladi 6 iyun 632 (Hicri 11 – ci ilin 12 Rəbiüləvvəl. Vəfat edəndə 63 yaşı var idi) |
| **Vəfat ettiyi yer** | Mədinə Münəvvərə. Məkkənin 400 km şimalda yerləşir |



## Gəncliyi və Uşaqlığı

| | |
|---|---|
| **Anadan olandan 2 yaşına qədər** | Atası hələ o dünyaya gəlməmiş dünyasını dəyişmişdi. Anası Əminə ərəb cəmiyyətində uşaqları süt anaya vermə adətinə əməl edərək onu Məkkə xaricində yaşayan Həlimə əl-Sədiyə adlı qadının yanına göndərdi. |
| **2-6 yaş arası** | Anası Əminə 576-cı ildə vəfat edənə qədər onun yanında qalmışdır. |
| **6-8 yaş arası** | Babası Abdulmuttalib vəfat edənə qədər onun yanında qalmışdır. |
| **8-25 yaş arası** | Babası  vəfat edəndən sonra 10 uşağı olan əmisi Əbu Talibin himayəsində qaldı. |

## Təhsili

**Hz. Muhəmməd ﷺ oxuma yazma bilmirdi.** O, Məkkədən kənarda yaşamamış və elm öyrənmək üçün Məkkədən kənara çıxmamışdır.

Qırx yaşında olanda aləmlərin rəbbi Allah tərəfindən vəhy vasitəsilə ona Qurani Kərim nazil oldu. Cəbrail عليه السلام onun yanına nazil oldu və Allahın kəlamını ona öyrətdi. O da öz növbəsində ona nazil olan ayələri əzbərlədi və  heç bir azalma və artırma etmədən onları olduğu kimi insanlara təbliğ eləməyə başladı.



**Muhəmmədin ﷺ kəlamları və onun təlimləri:** “Hədis kitabları”nda toplanmışdır. Hz. Peyğəmbərin ﷺ kəlamları söz və üslub baxımından Quran ayələrindən fərqlidir.

## İş həyatı

| | |
|---|---|
| **Uşaqlıqdan 20 yaşına qədər** | Çobanlıq edib və ticarətlə məşğul olub. O, əmisi Əbu Talibla ticarət üçün Şama ilk gedəndə 12 yaşında idi. |
| **20 yaşından 40 yaşına qədər** | O, Xədicə bint Xuveylid رضي الله عنها (ilk həyat yoldaşı) adlı varlı və nəcib bir qadının ticarət işlərinə cavabdeh idi. Qısa müddətdə ticarətdə özünü göstərdi və uğurlu və etibarlı tacir kimi tanındı. Bu səbəbdən ona **"Sadıqu'l Əmin"** ləqəbi verildi. |
| **40 – 63 yaş arası** | 40 yaşına çatdıqda Uca Allah tərəfindən ona Cəbrail عليه السلام vasitəsilə peyğəmbərlik vəzifəsi verildi. O, vəzifəsini üzərinə götürdüyü gündən etibarən mübarək həyatını cəmiyyətdə sülh, əmin-amanlıq və sosial ədaləti təmin edən İslam dinini təbliğ etməyə həsr etmişdir. Uca Allah onun haqqında belə buyurur: (Ya Muhəmməd!) Biz səni aləmlərə ancaq rəhmət olaraq göndərdik. (Ənbiya surəsinin 107-ci ayəsi) |

## Ailə həyatı

**Hz. Muhəmməd ﷺ 25 il ərzində bir həyat yoldaşı ilə evli qaldı:** Bəni Əsəd qəbiləsindən zadəgan və dul qadın olan Hz. Xədicə binti Xuveylid رضي الله عنها, qəbiləsində çox hörmətli bir məqama sahib idi. Hz. Muhəmməd ﷺ bu nəcib xanımın ticarət işlərini idarə etməyi öz üzərinə götürmüşdü. Hz. Muhəmmədin ﷺ ticarətdəki uğurları, yüksək əxlaqı və vəfakarlığı Hz. Xədicənin رضي الله عنها diqqətini cəlb etmiş və heyranlığını qazanmışdı. Bu səbəbdən o, vasitəçi göndərib Həzrət Muhəmmədə ﷺ evlənmə təklif elədi və o da bu təklifi qəbul etdi.

**Uğurlu bir evlilik:** Xədicə binti Xuveylid رضي الله عنها Hz. Muhəmməddən ﷺ 15 yaş böyük idi. Lakin cəmiyyət daxilində sosial status baxımından hər ikisi nəcib idi. Ərlə arvad arasındakı yaş fərqi onların sədaqət və sevgi işığı altında müvəffəqiyyətlə evliliklərini davam etmələrinə və uşaq sahibi olmalarına mane olmadı.

Hz. Xədicə رضي الله عنها 65 yaşında (miladi 619) vəfat edənə qədər Hz. Muhəmmədin ﷺ ikinci evliliyi olmadı. Onların 25 il davam edən xoşbəxt evliliyi qarşılıqlı hörmət və sevgi, fədakarlıq və sədaqət nümunələri ilə doludur.

**Altı uşaq atası:** Hz. Muhəmmədin ﷺ Hz. Xədicədən رضي الله عنها 4-ü qız, 2-si oğlan olmaqla altı övladı olmuşdu. Qızların adları belə idi: Zeynəb, Ruqiyyə, Ummu Gülsüm və Fatimə. Oğlanlar isə, Qasım və Abdullah idi. Qasım 3, Abdullah isə 4 yaşında dünyasını dəyişmişdi.

**Sevimli və vəfalı həyat yoldaşı:** Hz. Muhəmməd ﷺ Xədicəni رضي الله عنها çox sevirdi. O, həyat yoldaşına və uşaqlarına bağlı bir ailə başçısı idi. Vaxt tapdıqda həyat yoldaşına ev işlərində kömək edir və uşaqların tərbiyəsi ilə şəxsən məşğul olurdu.

Hz. Muhəmməd ﷺ Hz. Xədicə رضي الله عنها haqqında belə demişdir: "O, İmranın qızı Məryəm kimi öz dövründə olan adamların ən hörmətlisidir."

İmam Əli ibn Əbu Talib رضي الله عنه rəvayət edir ki, "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm:"(Vaxtı ilə dünyada olmuş) qadınların ən xeyirlisi İmranın qızı Məryəmdir. (Bu ümmətin) qadınlarının ən xeyirlisi isə Xədicədir." (Buxari, Muslim, Tirmizi)



Mədinə şəhərində:
Hz. Muhəmmədin ﷺ övladlarının, bəzi həyat yoldaşlarının və bəzi səhabələrinin məzarlarının olduğu Bəqi qəbiristanlığı

Hz. Xədicənin رضي الله عنها qəbrinin yerləşdiyi Məkkədəki Mualla qəbiristanlığı

# Hz. Muhəmmədin ﷺ peyğəmbərlik vəzifəsi 23 ildə tamamlandı

**Miladi 610**

**Peyğəmbərliyin başlanğıcı:**

Hz. Muhəmməd ﷺ Məkkə yaxınlığında yerləşən Nur dağındakı Hira mağarasında təkliyə çəkilib Rəbbinə ibadət edərkən vəhy mələyi Cəbrail عليه السلام nazil olub bütün bəşəriyyətə peyğəmbər və elçi olaraq göndərildiyini ona xəbər verdi.

Hz. Muhəmmədin ﷺ vəzifəsi, həm öz qövmünü, həm də bütün insanları Allahın varlığına, onun birliyinə, heç bir şəriki olmadığına inanmağa, bəşəriyyətə göndərdiyi hidayət dini İslamı qəbul etməyə dəvət etmək idi. Hz. Muhəmmədin ﷺ çiyninə qoyulan bu müqəddəs vəzifə son dərəcə çətin bir vəzifə idi. Bu vəzifə güclü iman, vəfa, sonsuz sədaqət və tam səmimiyyət tələb edirdi.

**Miladi 610 - 612**

**İlk Müsəlmanlar:**

Hz. Muhəmməd ﷺ ilk növbədə ailəsini, qəbiləsini və yaxın dostlarını Allaha və onun risaləsinə iman gətirməyə dəvət etdi. Bu mübarək dəvəti ilk qəbul edənlər Hz. Muhəmmədin ﷺ həyat yoldaşı Hz. Xədicə binti Xuveylid, onun yaxın dostu Hz. Əbu Bəkr əs-Siddiq, əmisi Əbu Talibin oğlu Hz. Əli və xidmətçisi Zeyd bin Haris idi. Hz.Muhəmməd ﷺ və onun səhabələri üç il ərzində Allaha dəvət vəzifəsini gizli şəkildə yerinə yetirdilər. Beləliklə, hər təbəqədən olan insanlar, kasıblar, varlılar, zadəganlar, qullar, qadınlar və kişilər İslamı qəbul etdilər. Onlardan ən məşhurları Osman bin Əffan, Zübeyir bin Əvvam, Abdurrəhman bin Avf, Ammar bin Yasir, Səid bin Zeyd və həyat yoldaşı Fatimə binti Xəttab (Ömər b. Xəttabın bacısı) idi. Allah onların hamısından razı olsun.

**Miladi 613 - 615**

**Qureyş liderləri İslami dəvətə qarşı çıxırlar:**

Üç il ərzində edilən gizli dəvət nəticəsində bir çox insan İslamı qəbul etmişdi. Buna görə də İslam dəvətində ikinci mərhələyə keçməyin vaxtı gəlmişdi. İkinci mərhələ cəmiyyətə açıq bir dəvət idi. Hz.

Muhəmməd ﷺ və onun səhabələri, açıq şəkildə Məkkəliləri öz bütlərini tərk etməyə, yeganə ilah olan Uca Allaha inanmağa və onun dini İslamı qəbul etməyə çağırmağa başladılar. Fəqət Qureyş başçıları şidətlə bu dəvətə qarşı çıxdılar və Hz. Muhəmmədə ﷺ böhtan atmağa başladılar.

İslamdan əvvəl Hz. Muhəmmədi ﷺ doğru danışan, vəfalı, müdrik bir insan kimi qələmə verən və ona "Sadiqu'l-Əmin" ləqəbi verən Məkkəlilər bu dəfə onu dəli, şair və sehrbazlıqda ittiham etdilər!



### Onlar aldatma və təhdidlərə əl atırlar:

Qureyş liderləri Hz. Muhəmmədi ﷺ İslama dəvət etməkdən çəkindirmək üçün hər cür yola əl atdılar. Bəzən mal mülklə aldatmağa çalışırdılar, bəzən hədələdilər, bəzən də təhqir etdilər. Gördülər ki, heç bir nəticə yoxdur, bu dəfə insanlara ona qulaq asmağa qadağa qoydular və müsəlmanlardan kasıb, zəif və kölə olanlara işgəncə verdilər, hətta bəzilərini də öldürdülər. Şəxsən Muhəmmədin ﷺ özünə də olmasın əziyyətlər verdilər. Düşündülər ki, insanları bu yolla qorxuda bilərlər!

### Hz. Muhəmməd ﷺ səhabələrini gücləndirir:

Muhəmməd peyğəmbər ﷺ səhabələrini İslam dini uğrunda çəkilən müsibətlər qarşısında səbirli olmağa və təbliğ vəzifəsini yerinə yetirməkdə qətiyyətli olmağa təşviq etmişdir. Onlarla, mədrəsəyə çevrilmiş Ərqam bin Əbi'l Ərqam əl-Məxzuminin (Dâru'l - Ərqam) evində görüşür, onlara Quran ayələrini və İslamın yüksək əxlaqını öyrədir, İslam dinini bütün bəşəriyyətə bəyan etməyin bir məsuliyyət olduğu aşılayırdı.

Müsəlmanların sayı artdıqca Qureyşin müsəlmanlara qarşı zülmü dözülməz hala gəlmişdi. Buna görə də Hz. Muhəmməd ﷺ səhabələrinə, ədalətli padşah kimi tanınmış (nəsrani olan) Həbəş (Efiopiya) padşahı Nəcaşinin yanına hicrət etməyinə icazə verdi. Bu arada Məkkənin ən güclü insanlarından olan Ömər bin əl-Xəttab və Hz. Muhəmmədin ﷺ əmisi Həmzə bin Abdulmuttalib də İslamı qəbul etdi. Onların İslamı qəbul etmələri İslama dəvət yolunda böyük qələbələrin qazanılacağına işarə idi.

**Miladi 616 – 618**

**Qureyş, Rəsulullaha ﷺ sosial-iqtisadi embarqo tətbiq edir:** Hz. Muhəmmədi ﷺ İslama dəvət etməkdən çəkindirmək istəyən Qureyş başçıları ona müxtəlif təkliflər edərək onunla danışıqlar aparmaq istəyirdilər. Ancaq Hz. Muhəmməd ﷺ bu ucuz sövdələşmələrin heç birinə yaxınlaşmadı. Bunun üzərinə Qureyş rəhbərlərindən bəziləri Muhəmməd peyğəmbərə ﷺ və onun səhabələrinə sosial-iqtisadi embarqo tətbiq etmək qərarına gəldilər və müsəlmanlarla alış-verişi qadağan etdilər. Üç il davam edən bu insafsız embarqoya görə müsəlmanlar çox çətin günlər yaşadılar. Lakin onlar, imanla dolu sinələri, inanılmaz səbrləri və öz işlərinə bağlılıqları ilə çətinliklərin öhdəsindən gəldilər.

**Miladi 619 – 620**

**Hüzn ili:** Bütün bu təzyiqlərdən sonra müsəlmanların sarsılmayacağını görən Məkkə rəhbərləri 619-cu ildə embarqonu qaldırdılar. Təbii ki, müsəlmanlar bu qərara çox sevindilər. Lakin onların sevinci uzun sürmədi. Çünki həmin ildə Hz. Muhəmmədin ﷺ oğulları Qasım və Abdullah daha sonra isə onu himayə edən əmisi Əbu Talib və sevimli həyat yoldaşı Hz. Xədicə رضي الله عنها dünyasını dəyişdi. Rəsulullah ﷺ, oğullarının, sadiq həyat yoldaşı Hz. Xədicənin رضي الله عنها və həyatı boyu himayəsini və köməyini ondan əsirgəməyən əmisi Əbu Talibin itkisindən çox kədərləndi.

Buna görə də, 619-cu il müsəlmanlar arasında “Hüzn ili” kimi tanınırdı. Müşriklərin zülmündən yorulan Hz. Muhəmməd ﷺ Məkkədən 80 kilometr uzaqlıqda yerləşən Taif şəhərinə üz tutdu. Onun məqsədi Taif əhlini İslama dəvət etmək və Məkkə müşriklərinin şərindən xilas olmaq üçün onlardan kömək istəmək idi. Təəssüf ki, burada da onu çox pis qarşıladılar, ona əziyyət verdilər və onu Taifdən qovdular.

**Miladi 620 – 622**

**Ağrılar və ümidlər:** Allaha dəvət yolunda çəkdikləri bütün əzablara baxmayaraq, Hz. Muhəmməd ﷺ və onun səhabələri islam dinini yaymaqda israr edirdilər. Bu dəfə onlar Məkkədən kənarda yerləşən ərəb qəbilələrinə təbliğ etməyə başladılar.

Ancaq Hz. Muhəmmədin ﷺ qeyri-Məkkəlilər arasında İslama

dəvəti ümumi qəbul görmədi. Bununla belə az da olsa İslamı qəbul edənlər olmuşdu. Onların arasında Əbu Zər əl-Ğifari, Tufeyl əd-Dəvsi və Dimad əl-Əzdi də vardı.

## Birinci əqəbə beyəti

Yəsribdə (Mədinədə) “Ovs” və “Xəzrəc” adlı iki böyük ərəb və bir neçə yəhudi qəbiləsi yaşayırdı. Xəzrəc qəbiləsindən 6 gənc ziyarət üçün Məkkəyə gəlmişdi. Hz. Muhəmməd ﷺ bu gəncləri tək olan Allaha ibadət etməyə və Onun göndərdiyi İslama dəvət etdi. Yəhudilərin ağzından tezliklə peyğəmbər gələcəyini eşidən gənclər dəvəti qəbul edib müsəlman oldular. Yəsribə qayıtdıqları zaman qəbilələrini İslama dəvət edəcəklərinə və gələn il həcc mövsümündə hamısının görüşə gələcəklərinə dair Rasulullaha ﷺ söz verdilər.

Yəsribə qayıdan Xəzrəcli gənclər növbəti il özləri ilə daha altı nəfərlə bərabər həcc mövsümündə söz verdikləri kimi Məkkəyə gəldilər. Onların arasında Ovs qəbiləsindən olanlar da var idi. Onlar Muhəmmədin ﷺ yanına gəldilər və ona iman gətirdilər. Daha sonra, bir və tək olan Allahdan başqa heç kimə ibadət etməyəcəklərinə, Ona heç vaxt şərik qoşmayacaqlarına, Allah Rəsuluna daim itaət edəcəklərinə, özlərini və övladlarını düşmənlərdən qoruduqları kimi onu da qoruyacaqlarına, böhtan atmayacaqlarına, zina və oğurluq etməyəcəklərinə və haqsız yerə adam öldürməyəcəklərinə dair Allah Rəsuluna beyət etdilər.

Minada Əl-Əqabə ərazisində (Şeytana daş atılan yerin yaxınlığında) edilən bu beyət tarixə “Birinci Əqəbə beyəti” kimi düşmüşdür.



*(Cəmərat körpüsünün yaxınlığında "Beyət/Əqəbə Məscidi")*

**İkinci Əqəbə beyəti:** Birinci Əqəbə beyətində iştirak edən 12 nəfərlik müsəlman dəstə Yəsribə qayıtdıqdan sonra qəbilə və aşirətlərini İslama dəvət etməyə başladılar və qısa müddət ərzində müsbət nəticələr əldə etdilər. Növbəti il (M.622) Mədinəli müsəlmanlar yenə Həcc mövsümündə ikisi qadın olmaqla 72 nəfərlik bir dəstə ilə Məkkəyə gəldilər. Burada Hz. Muhəmməd ﷺ ilə görüşən Mədinəli müsəlmanlar Birinci Əqəbə beyətində olduğu kimi Allah Rəsuluna ﷺ beyət etdilər. Bu beyət tarixə "İkinci Əqəbə beyəti" kimi düşdü və İslam tarixində mühüm dönüş nöqtəsi oldu.

**Məkkəli müsəlmanlar Mədinəyə hicrət edirlər:**
Birinci və İkinci Əqəbə beyətindən sonra Yəsribdə İslam sürətlə yayılmağa başladı. Qısa müddətdə Ovs və Xəzrəc qəbilələrinin demək olar ki hamısı İslamı qəbul etdi. Bu gözəl xəbərlər üzərinə Hz. Muhəmməd ﷺ Məkkəli müsəlmanlara Yəsribə hicrət etmələrini söylədi. Beləcə onlar artıq Məkkə müşriklərinin zülmündən xilas olacaqdılar.

**Miladi 622 (Hicri 1)**
**Müşriklərin Hz. Muhəmmədi ﷺ öldürmək planları və Mədinəyə (Yəsrib) hicrət:** Hz. Muhəmmədin ﷺ ardıcıllarının qısa müddətdə artması üzərinə, İslam dininin Ərəbistan yarımadasında yayılacağından qorxan Məkkə rəhbərləri, Darul-Nədvada toplaşaraq Muhəmmədi ﷺ öldürməyə qərar verdilər. Ancaq Allah-Təalanın köməyi ilə bu lənətli qərarlarını həyata keçirə bilmədilər. Müşriklərin qətl planlarını alt-üst edən Allah Təala Hz. Muhəmmədə ﷺ Yəsribə hicrət etməyi əmr etdi. Allahın əmri ilə Hz. Muhəmməd ﷺ, yaxın dostu Hz. Əbu Bəkri رضي الله عنه yanına alaraq gizlicə Yəsribə yola düşdü. Onlar, arxasınca gələn müşriklərdən qorunmaq üçün üç gün Məkkə yaxınlığındakı Sovr mağarasında gizləndikdən sonra yenidən yola düşdülər və nəhayət sağ-salamat Yəsribə çatdılar. Hz. Muhəmmədin ﷺ Yəsribə hicrəti İslam tarixində ən mühüm dönüş nöqtəsi hesab olunur. Çünki hicrət nəticəsində İslam dini sürətlə yayılmağa başladı, Müsəlmanlar üçün yeni həyat nizamı formalaşdı və İslam Dövləti quruldu.

## Miladi 623 – 624 (Hicri 2)

### Mədinədə Müsəlmanların Muhəmmədə ﷺ beyət etmələri:

Yəsrib əhalisi iki ərəb qəbiləsindən və üç yəhudi qəbiləsindən ibarət idi. Ərəblər yəhudilərdən daha çox idilər və Məkkədən köçən mühacirlərlə birlikdə onların sayı daha da artmışdı. Hz. Muhəmməd ﷺ Yəsribə hicrət edəndən sonra bütün Müsəlmanlar könüllü olaraq həm dar, həm də xoş günlərində Muhəmmədi ﷺ eşidib, itaət edəcəklərinə dair ona beyət etdilər.

### Yəsrib şəhərinə "Mədinə" adı verilir:

Müsəlmanların rəhbəri Hz. Muhəmməd ﷺ yeni bir başlanğıc əlaməti olaraq Yəsribin adını dəyişdirərək "Mədinə" qoydu. Mədinə adını götürən Yəsrib artıq Ovs, Xəzrəc və yəhudilərin şəhəri deyil, Allahın hökmlərinin tətbiq olunduğu İslam Dövlətinin və Sivilizasiyasının paytaxtı, bütün müsəlmanların vətəni olmuşdur. Muhəmməd ﷺ Mədinə şəhərinin bərəkətli olması və müsəlmanların bu şəhəri sevmələri üçün Allaha dua edir. Hədislərin birində o belə buyurmuşdur: "İlan qayıdıb öz yuvasına girdiyi kimi iman da Mədinəyə yığışacaqdır." (Buxari, 1876; Muslim, 147)

### İnsan haqlarına hörmət etməyə və sülh içində yaşamağa çağıran yeni bir cəmiyyət qurulur:

Hz. Muhəmmədin ﷺ Mədinədə etdiyi ilk iş, namazın camaatla qılınması məqsədi ilə məscid tikmək və cəmiyyətdə sevgi və birliyi təmin etmək üçün mühacirlərlə Mədinə müsəlmanları (Ənsar) arasında İslam qardaşlığını qurmaq oldu.

### İnsanlar arasında birlik və həmrəyliyə çağıran Hz. Muhəmməd ﷺ belə buyurdu:

"Ey İnsanlar! Salamı yayın, yoxsula yemək yedizdirin, insanlar yatarkən namaz qılın və salamat cənnətə daxil olun." (Tirmizi, Qiyamə, 42; İbn Macə, Ətimə, 1; Bihar əl-Ənvar, 66/353)

Hz. Muhəmmədin ﷺ Allahın rizasını, "salam vermək və yoxsula yemək yedirmək" kimi şeylərlə eyni cümlədə istifadə etməsindəki məqsəd, Ərəblərin, Yəhudilərin, Müsəlmanların və qeyri-müsəlmanların yaşadığı bir cəmiyyətdə insanları sülh içində birlikdə yaşamağa dəvət etməkdir.

**Bəşəriyyət tarixində inanc azadlığını və insan hüquqlarını bəyan edən ilk konstitusiya:** Hz. Muhəmməd ﷺ eyni cəmiyyətdə yaşayan insanların bir-birinə qarşı hüquq və vəzifələrini bəyan edən bir sənəd yazdırmış və Mədinədə yaşayan Ərəb və Yəhudilərə imzalatmışdı.

Bəşəriyyət tarixində ilk konstitusiya kimi qəbul edilən Mədinə vəsiqəsi, müsəlmanların, yəhudilərin və qeyri-müsəlmanların etiqad və ibadət azadlığına zəmanət vermiş və bu cəmiyyətlər arasında əlaqələrin yaxşılıq, ədalət və məzlumlara kömək üzərində qurulmasının vacibliyini etiraf etmişdir.
Vəsiqə, İslam dövləti olaraq Mədinə vətəndaşlarının təhlükəsizliyini təmin edir və vəsiqəni imzalayanlar, Mədinə şəhəri düşmən tərəfindən hücuma məruz qaldıqda, bir vətəndaş olaraq vətəni səmimi şəkildə müdafiə etmə öhdəliyini öz üzərinə götürür. Bununla bərabər vəsiqə, günah və zülm edənlərin öz əməllərinə görə cavab verəcəklərini, Allah və Rəsulunun həm vəfalı, həm də Allahdan qorxanların köməkçiləri olduğunu bəyan etmişdir.

**Miladi 623-624 (Hicri 1)**
**Bədr döyüşü**: Müsəlmanlar Məkkədən Mədinəyə hicrət etdikdə Qureyşin başçıları onlara özləri ilə mallarını götürməyə icazə vermədilər və beləliklə onlar öz mallarını və mülklərini orada tərk etməli oldular. Odur ki, müşriklər müsəlmanların mallarını müsadirə etdilər, hətta onlarla ticarət edərək pul qazandılar.



(Bədir döyüşünün baş verdiyi yer)

Əbu Süfyanın başçılıq etdiyi ticarət karvanının Mədinə yaxınlığından keçəcəyi xəbərini alan müsəlmanlar, Müşriklərin Məkkədə müsadirə etdikləri mallarını geri qaytarmaq üçün karvana hücum etməyə hazırlaşır. Lakin Əbu Süfyan, müsəlmanların karvana hücum etməyə hazırlaşdıqları barədə məlumat alır və karvanın yolunu dəyişib dərhal vəziyyətlə bağlı Məkkəyə xəbər göndərir. Məkkə başçıları tələsik bütün silah-sursatla tam təchiz olunmuş 950 nəfərlik ordu hazırlayır və bu ordunu müsəlmanlara qarşı yola salır.
Ticarət karvanına hücum etmək üçün yola çıxan müsəlmanlar böyük müharibəyə hazır deyildilər. Müsəlman ordusu, Hz. Muhəmmədin ﷺ başçılığı altında 313 nəfər, 2 at və bir neçə dəvədən ibarət kiçik bir dəstə olsa da, özündən ən az üç qat daha güclü olan düşmənlə döyüşdən qaçmadı. Müharibədən əvvəl Hz. Muhəmməd ﷺ qələbə üçün Rəbbinə üz tutdu və Allahdan zəfər istəyərək ürəkdən belə dua etdi: “Allahım, əgər bu bir ovuc müsəlman ölsə, yer üzündə sənə ibadət edən qalmaz.”
Hicrətin 2-ci ili Ramazan ayının 17-də cümə gün Mədinənin 155 kilometr cənub-qərbində Bədr bölgəsində baş verən Bədr döyüşü, Müsəlmanlarla müşriklər arasında ilk müharibə idi. Qureyş müşrikəri bu döyüşdə musəlmanarın qələbə qazanacaqlarının mümkünsüz olduğunu düşünürdü. Amma buna baxmayaraq Müsəlmanlar böyük bir qələbə qazandılar. Müsəlmanlar bu döyüşdə Əbu Cəhl, Umeyyə bin Xələf, Vəlid bin Utbə və hicrətdən əvvəl Muhəmmədə ﷺ və İslam dininə qarşı qatı şəkildə mübarizə aparan müşriklərin digər böyüklərini öldürdülər.



## Miladi 624 – 625 (Hicri 3)

**Qureyş başçıları Bədirin intiqamını almaq üçün Uhuda gəlirlər:** Bədr döyüşündə bir ovuc müsəlmana məğlub olan Qüreyş başçılarının qəlbləri kin və intiqamla dolmuşdu. Onlar ərəblər arasında öz nüfuzlarını itirməkdən qorxurdular! Buna görə də onlar müttəfiq olduqları qəbilələrin köməyi ilə hicrətin 3-cü ilində Bədr döyüşünün intiqamını almaq üçün 3000 nəfərlik böyük qoşunla Mədinənin şimal tərəfindəki Uhud dağının ətəyinə gəldilər.



*(Mədinə Munəvvərə yaxınlığındakı Uhud dağının ətəyində şəhidlərin dəfn olunduğu qəbiristanlıq)*

Hz. Muhəmmədin ﷺ komandanlığında İslam ordusu da eyni yerə gəldi. Döyüş meydanında İslam ordusunun sıralarını təşkil edən Hz. Muhəmməd ﷺ, müsəlmanlara arxadan edilə biləcək mümkün bir hücumun qarşısını almaq üçün bir qrup oxçunu döyüş meydanının yaxınlığındakı təpəyə yerləşdirdi və onlara tapşırdı ki, nə olursa-olsun mövqelərini tərk etməsinlər! Lakin meydandakı döyüşün gedişindən müsəlmanların qalib gələcəyini zənn edən oxatanlar yerlərini tərk edərək qəniməti toplamağa tələsdilər. Bu anı səbrlə gözləyən Qüreyş ordusunun komandirlərindən Xalid bin Vəlid bu fürsəti əldən vermədi və öz qüvvəsi ilə İslam ordusunu arxadan mühasirəyə aldı. Bu qəfil mühasirə İslam ordusunda sabitliyi pozdu və müsəlmanlar tərəfində çoxlu itkilərə səbəb oldu. Bu döyüşdə Hz. Muhəmməd ﷺ yaralandı və sevimli əmisi Hz. Həmzə رضي الله عنه də daxil olmaqla onun səhabələrinin bir çoxu şəhid oldu.

## Miladi 626 (Hicri 5)

**Xəndək/Əhzab döyüşü:** Qureyş başçıları müttəfiq ərəb qəbilələri ilə birlikdə Mədinəni mühasirəyə alır. Amma müsəlmanlar Uhud döyüşündə məğlub olsalar da, qısa müddətdə öz sıralarını gücləndirmişdilər.

Müsəlmanlara ölümcül zərbə vurmaq istəyən müşriklər, müttəfiq bəzi ərəb qəbilələri ilə birlikdə 10 min nəfərlik qoşunla Şəvval ayında Mədinəni mühasirəyə aldılar.

Bunun üzərinə Hz. Muhəmməd ﷺ məşvərət etmək üçün səhabələrini topladı. Məsləhətləşdikdən sonra o, Salman əl-Farisinin fikrini qəbul etdi. Salman əl-Farisinin təklifi belə idi: Mədinə sönmüş vulkanlarla və bərbad yollarla əhatə olunduğu üçün atların hərəkəti asan deyildi. Mədinənin bu coğrafi xüsusiyyətindən istifadə edərək şəhərin şimal tərəfində uzun və dərin xəndək qazmaq düşmənin yolunu kəsərdi. Müsəlmanlar bu təklif əsasında Mədinənin sönmüş vulkanların yerləşdiyi Şərq bölgəsi ilə Qərb bölgəsi arasında 5,5 kilometr uzunluğunda 4,6 metr enində xəndək qazdılar. Müsəlmanlar əllərində olan bütün vasitələrdən, o cümlədən psixoloji müharibədən istifadə edərək özlərini qorumaq istəyirdilər.
Buna görə də bir ay davam edən mühasirəyə səbirlə dözdülər. Müsəlmanların çətin şərtlər qarşısında bu dözümlülüyü Qureyşin səbrini tükəndirdi. Şiddətli tufan qopub Qüreyş ordusunun çadırlarını pərən-pərən saldıqda, onlar bir ay davam edən bu mühasirəni bitirdilər və Mədinəyə girməmiş geri çəkildilər.



## Miladi 627- 628 (Hicri 6)

### Hudeybiyyə müqaviləsi... On illik atəşkəs

**10 il atəşkəs**

Xəndək döyüşündən təxminən bir il sonra ortalıq sakitləşmişdi. Hz. Muhəmməd ﷺ ümrə ibadətini yerinə yetirmək üçün Məkkəyə getmək niyyətində idi. Tarix boyu ziyarət üçün Məkkəyə səfər etmək bütün ərəb qəbilələrinin haqqı hesab edilirdi. Məkkənin idarəsini əlində tutan Qureyş də bu haqqa hörmətlə yanaşırdı.

Buna baxmayaraq, Hz. Muhəmmədin ﷺ 1400 silahsız adam və qurbanlıq heyvanlarla Məkkəyə yola düşməsi Qureyş üçün sürpriz gözlənilməz oldu. Qureyş, Muhəmmədin ﷺ Kəbəni ziyarət etməsinə mane olmaq, səhabələr isə nəyin bahasına olursa olsun ümrə ziyarətini yerinə yetirmək istəyirdilər.

İki tərəf arasında aparılan danışıqlar nəticəsində Hudeybiyyə sülhünün imzalanması ilə bu problem həll olundu.

Müqaviləyə əsasən, müsəlmanlar 10 il Qüreyş və onların müttəfiqləri ilə vuruşmayacaqdı. Həmçinin müsəlmanlar bu il Məkkəyə girməyəcək, Mədinəyə qayıdacaqlar, lakin gələn il gəlib Kəbəni ziyarət edib Məkkədə cəmi üç gün qalacaqdılar. Ərəb qəbilələrindən hər hansı biri, istər Muhəmmədlə ﷺ istərsə də Qureyşlə müttəfiqlik edə biləcək və tərəflər buna etiraz etməyəcəkdi. Lakin, Qureyş tərəfində olan bir şəxs, Hz. Muhəmmədə ﷺ qoşularsa, Qureyşə qaytarılacaq, Hz. Muhəmmədin ﷺ tərəfində olanlardan biri Qureyşə qoşulsa müsəlmanlara qaytarılmayacaqdı. Hudeybiyyə sülhündə başqa bəndlər də var idi.




Müsəlmanların çoxu razılaşmanın özlərinin deyil, Qureyşin xeyrinə olduğunu düşünürdü. Hz. Muhəmməd ﷺ isə gələcəyi düşünür və müqavilənin müsəlmanlara böyük fayda gətirəcəyinə inanırdı.



## Miladi 628-629 (Hicri 6-7)

**Atəşkəsi fürsət olaraq görən Hz.Muhəmməd ﷺ İslamı Ərəbistan yarımadasının daxilində və xaricində təbliğ edir:** Qureyşlə müsəlmanlar arasında atəşkəs, Allahın dinini yaymaq istəyən Hz. Muhəmməd ﷺ üçün qızıl fürsət yaratdı. Çünki o, Qureyş başçıları və müttəfiqləri tərəfindən heç bir maneə törədilmədən insanlarla danışa və İslamı onlara izah edə bilərdi.

10 illik atəşkəs dövründə Hz. Muhəmməd ﷺ krallara və şahzadələrə məktublar göndərərək onları Allahın ilahi dini olan İslama dəvət edir. Onların arasında Həbəş kralı Nəcaşi, Bizans imperatoru İrakli, Fars şahı Pərviz b. Hörmüz, Rum imperatoru Qeysər, Misir hökmdarı Muqavqıs, Yəmamə və Bəsrə əmirləri, Şam hökmdarı Haris əl-Qəssani var idi. Atəşkəs dövründə Hz. Muhəmmədin ﷺ İslama dəvətləri nəticəsində bir çox insan müsəlman oldu.



## Miladi 630 (Hicri 8)

### Məkkə qan tökülmədən fəth edilir

Hudeybiyyə sülhündən iki il keçmişdi ki, Qureyşin müttəfiqlərindən olan Bədr oğulları, Hz. Muhəmmədin ﷺ müttəfiqlərindən olan Bənu Xuzaə qəbiləsinə hücum edərək 20 nəfəri öldürdü. Beləcə müqavilə Qureyş tərəfindən pozuldu. Əbu Süfyan Mədinəyə gəldi və Bədr oğullarını müdafiə edərək müqavilənin davam etməsi üçün səy göstərdi. Lakin müsəlmanlardan heç kim onun bu səylərinə əhəmiyyət vermədi.



Bunun üzərinə Hz.Muhəmməd ﷺ 10 minlik bir ordu hazırlayıb Məkkəyə doğru yola düşdü. Qüreyşlilər isə müsəlmanlarla müharibəyə hazır deyildilər. Hz. Muhəmməd ﷺ əsgərlərinə və səhabələrinə onlarla döyüşənlərdən başqa heç bir insanı öldürməməyi əmr etdi. Hətta Məkkə əhlinə ümumi bir zəmanət verdi. Bu zmanətə görə: Qüreyşin görkəmli liderlərindən olan Əbu Süfyanın evinə sığınan, Beytullaha sığınan və öz evlərinə sığınanların təhlükəsizliyi təmin edildi. Məkkəyə daxil olan müsəlmanlar Allahın evi Kəbənin ətrafına toplaşaraq təkbir, lə ilalə illallah və həmd deməyə başladılar. Bu lütfkar mənzərə Məkkəlilərin qəlblərini İslama qarşı yumşaltmışdı!
Hz. Muhəmməd ﷺ Kəbəni təvaf etdikdən sonra "Haqq gəldi, batil yox oldu. Şübhəsiz ki, batil yox olmağa məhkumdur" mənasındakı ayəni oxuyaraq Beytullahdakı bütləri bir-bir sındırdı. Sonra xütbə oxudu. Xütbəsində Allahın vəhdaniyyətini, yalnız Ona ibadət etməyi və cahiliyyə adətlərini tərk etməyi tapşırdı. Hz. Adəmin torpaqdan yaradıldığını, bütün insanların da ondan törəndiyini və insanların ən şərəflisinin Allahdan ən çox qorxanların (təqvalı) olduğunu bildirdi. Daha sonra ona və səhabələrinə işgəncə verən, mallarını müsadirə edən və hicrət etməyə məcbur edən Məkkə əhlinə səsləndi:

"Ey Qureyş camaatı! İndi sizin haqqınızda nə edəcəyimi düşünürsünüz?" Qureyşlilər dedilər: "Biz inanırıq ki, sən bizə yaxşılıq edəcəksən. Çünki sən çox hörmətlisən və hörmətlimizin də oğlusan! Bunun üzərinə aləmlərə rəhmət olaraq göndərilən Hz. Muhəmməd ﷺ belə buyurdu: "Yusif عليه السلام öz qardaşlarına necə demişdisə, mən də sizə elə deyirəm: Bu gün sizə heç bir qınama yoxdur! Allah sizi bağışlasın. O, rəhm edənlərin ən rəhmlisidir. Gedin, siz azadsınız."
(Sunən əl-Beyhəqi, 9/118, 18342, 18343; Kuleyninin "əl-Kafi" əsəri 4/317)

### Miladi 630-631 (Hicri 8-9)

**Ərəb qəbilələri İslamı qəbul edir:** Məkkənin möhtəşəm fəthindən sonra müşriklərdən çoxlu sayda insan müsəlman olmuşdu. Lakin İslam düşmənçiliyindən əl çəkməyən Həvazin və Səqif qəbilələri böyük bir ordu toplayaraq Məkkəyə hücum etmək üçün Huneyn bölgəsinə gəldilər. Hücum xəbərini alan Hz. Muhəmməd ﷺ böyük bir ordu toplayıb Huneynə gəldi. Hicrətin 8-ci ilinin Şəvval ayında baş verən şiddətli döyüşdə Allahın köməyi və lütfü ilə müsəlmanlar Həvazin və onun müttəfiqlərinə qalib gəldilər.
Döyüşdə məğlub olan Həvazin və Səqif qəbilələrinin bir qismi Taifə sığındı. Hz. Muhəmməd ﷺ ordusunu Taif şəhərinə doğru yönəltdi və şəhəri mühasirəyə aldı.

Hz. Muhəmməd ﷺ bir müddət sonra mühasirəyə son verdi və "Allahım! Səqif əhlinə hidayət ver! Onları bizim yanımıza gətir!" deyərək onlar üçün dua etd. Bu duadan çox keçməmiş, Allahın lütfü ilə Səqif və Həvazin qəbilələri iman gətirib İslamı qəbul etdilər.
Hicrətin 9-cu ili İslam dininin sürətlə yayıldığı bir il oldu. Məkkənin fəthindən sonra Hz. Muhəmməd ﷺ Mədinəyə döndü və Ərəbistanın hər yerindən Mədinəyə gələn insanları qəbul edib onlardan beyət aldı. Digər tərəfdən Hz. Muhəmməd ﷺ insanları İslama dəvət etmək üçün elçilər göndərir və eyni zamanda İslamı qəbul etmiş qəbilələrə dinlərini öyrətmək üçün müəllimlər təyin edirdi. Bu yolla ərəb qəbilələrinin əksəriyyəti İslamı qəbul etdilər.

> "Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuz xoşunuza gəldi, lakin bunun sizə faydası olmadı. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız. Sonra Allah Öz rəsuluna və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası."
>
> *(ət-Tovbə, 25-26)*

**Miladi 632 (Hicri 10)**
**Vida Xütbəsi:** Peyğəmbərlik vəzifəsini ən gözəl şəkildə yerinə yetirən Hz. Muhəmməd ﷺ Rəbbinə qovuşma vaxtının yaxınlaşdığını hiss etdi. Hicrətin 10-cu ilində 100 min müsəlmanla birlikdə həcc ziyarətinə getdi və orada daha sonra "Vida xütbəsi" olaraq adlandırılacaq bir xütbə söylədi. Növbəti Həcc mövsümündə görüşməmək ehtimalının olduğunu vurğulayan Hz. Muhəmməd ﷺ insanların onun nə deyəcəyini dinləmələrini və anlamalarını istəyirdi.
Allahın peyğəmbəri onları, Allahın birliyinə, İslam dininə əməl etməyə, şeytandan çəkinməyə, cahiliyyə dövrünün pis adətlərini tərk etməyə, insanlar arasında ədalət və bərabərliyi təmin etməyə, müsəlmanların qanını və malını bir-birinə haram etməyə, əhd-peymanlara riayət etməyə, insan hüquqlarına hörmət etməyə, qadınlarla yaxşı rəftar etməyə və pis əxlaqı tərk edərək gözəl əxlaqlı olmağa dəvət etmişdir.

**Miladi 632 (Hicri 11)**
**Rəsulullahın ﷺ vəfatı:** Hz. Muhəmməd ﷺ müsəlmanlarla Ərəfatda olarkən Maidə surəsinin üçüncü ayəsi nazil oldu: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim."

Bu ayədən müsəlmanlar Həzrət Muhəmmədin ﷺ ölümünün yaxınlaşdığını hiss etdilər. Həqiqətən Hz. Muhəmməd ﷺ, yuxarıdakı ayə nazil olandan üç ay sonra, hicrətin 11-ci ilinin Rəbiul-əvvəl ayının bazar ertəsi günü Mədinədə öz evində vəfat etdi. Bununla da Hz. Muhəmməd ﷺ Allaha dərin imanla öhdəsinə götürdüyü, böyük fədakarlıqlara tab gətirdiyi və 23 il mübarizə apardığı uca nübüvvət missiyasını tamamlamış oldu.

Hz. Muhəmməd ﷺ özündən sonra heç bir mal buraxmadı. Onun qoyub getdiyi tək şey insanlara doğru yolu göstərən Quran və Sünnə idi.

Hz. Muhəmmədə ﷺ nazil olan Quran dünyanın hər yerində milyonlarla insanın qəlbini işıqlandırmaqda davam edir və Allahın izni ilə Qiyamətə qədər də işıqlandırmağa davam edəcəkdir.

**Qeyd:** Muhəmməd peyğəmbərin ﷺ vəfat tarixi ilə bağlı müxtəlif rəvayətlər olsa da, ən mötəbər rəvayət hicrətin 11-ci ilinin (Miladi 632) Rəbiül-əvvəl ayının 11-i dir.



*Məkkədə hira mağarasının yerləşdiyi nur dağının panoramik mənzərəsi*



*Məscidül-həramın havadan görünüşü - Məscidül-həram, Məkkə*







*Məscidül-həramın havadan görünüşü - Məscidül-həram, Məkkə*

## Həzrət Muhəmmədin ﷺ həyatı üçün ümumiləşdirilmiş qrafik

| Miladi Təqvim | Hicri Təqvimi | Hz. Muhəmmədin ﷺ yaşı | Hadisələr |
|---|---|---|---|
| 570 | | Doğumu | Hz. Muhəmmədin ﷺ Məkkədə doğuldu. |
| 576 | | 6 | Hz. Muhəmmədin ﷺ anası dünyasını dəyişdi. |
| 595 | | 25 | Hz. Xədicə ilə evləndi. |
| 610 | | 40 | Peyğəmbərlik (ilk ilahi vəhy gəldi). |
| 620 | | 50 | Həyat yoldaşı Hz. Xədicə və əmisi Əbu Talib vəfatı etdi. |
| 622 | 1 | 53 | Mədinəyə hicrət etdi. |
| 628 | 6 | 58 | Hğdeybiyə müqaviləsi |
| 630 | 8 | 60 | Məkkə fəth edildi |
| 632 | 10 | 62 | Vida ziyarəti və xütbəsi. |
| 633 | 11 | 63 | Muhəmməd peyğəmbərin ﷺ vəfatı. |

Miladi və Hicri təqvimləri ən çox yayılmış rəvayətlərə və istinadlara əsasən təxmini hesablanır.

Bəzi istinadlara görə Miladi təqvimlə verilən illər, müxtəlif hesablamalara əsaslandığı üçün yuxarıdakı rəqəmlərdən bir qədər fərqlidir. Siz Muhəmməd peyğəmbərin ﷺ vəfat etdiyi il kimi eramızın 632-ci ilini göstərən istinadlara da rast gələ bilərsiniz.



*Quba məscidi İslam dinində tikilən ilk məsciddir. Bu məscid Peyğəmbər ﷺ məscidindən təxminən 5 km aralıda yerləşir. Rəvayətlərə görə Peyğəmbər ﷺ və onun sevimli dostu Əbu Bəkr رضي الله عنه (peyğəmbərliyin 14-cü ili) hicrətin 1-ci ilində Rabiul-əvvəl ayının 8-də bazar ertəsi günü Qubaya gəlmiş və az bir müddətdə orada qalmışdır. Bundan sonra isə Mədinəyə getmişdirş*



*Mədinə-i Münəvvərədəki Quba məscidi:*
*Həzrət* Muhəmməd ﷺ *şənbə və ya bazarertəsi günləri bəzən atla bəzən də piyada mütəmadi olaraq Quba məscidinə gedərək namaz qılardı.*
*Həzrət* Muhəmməd ﷺ *Quba məscidi haqqında belə buyurmuşdur: "Quba məscidində namaz qılmağın ümrə savabı vardır".*



*Bədr bölgəsinin havadan görünüşü*



*Məkkə ordusunun Bədrdə düşərgə saldığı yer*



*Bədr döyüşünün yeri, Hz. Muhəmməd ﷺ və onun əshabının düşərgə saldıqları yer*



*Bədr döyüşünün baş verdiyi yer*



*Uhud dağının panoraması*



*Uhud döyüşünün yeri. Fotoda oxçular dağı və Şəhidlər qəbiristanlığı əks olunub. Hz. Muhəmmədin ﷺ yetmişdən çox səhabəsi və sevimli əmisi Həmzə orada dəfn olunub.*




Uhud dağı
Xəndək döyüşü
xəndəyin olduğu yer
Vaqim (Vulkanik sahə)
Sila dağı
Mədinə şəhəri
Vəbra (Vulkanik sahə)





*Yəsrib şəhərində (Mədinə) evlər və xurma ağacları ilə əhatə olunmuş Peyğəmbər Məscidini göstərən təsviri görünüş (Mədinə tədris və Araşdırmalar Mərkəzi)*



*Genişləndirilmiş vəziyyətdə Peyğəmbər məscidi*



Allahın peyğəmbərləri arasında Hz. Muhəmməd ﷺ yeganə peyğəmbərdir ki, onun dəfn yeri dəqiq müəyyən edilir və müsəlmanlar onun qəbrinin dəqiq yeri barədə əmindirlər.

Hz. Muhəmməd ﷺ Mədinədəki “Məscid ən-Nəbəvi” məscidinin yanındakı evində dəfn edilib. Bu fotoşəkildə məscid binasının insanların Muhəmməd peyğəmbərin ﷺ məqbərəsini və evini görmək üçün girə biləcəyi tərəfi göstərilir.

Nəzərə alınmalıdır ki, Peyğəmbər ﷺ məsciddə deyil, öz evində dəfn olunub. Məscid Vəlid bin Abdulmalik tərəfindən genişləndirildikdə, Peyğəmbərin evi məscidin içində qalaraq oranın bir hissəsi olub.





*Bura Muhəmməd peyğəmbərin ﷺ Mədinədəki "Məscidün-Nəbəvi" məscidindəki məzarıdır. Aşağıdakı şəkildə (soldan birinci) Peyğəmbərin ﷺ, sonra isə onun iki xəlifəsinin Əbu Bəkr Siddiq (ortada) və Ömər ibn əl-Xəttabın (ən sağda) qəbirləri yerləşir.*





Genişləndirildikdən sonra Peyğəmbər ﷺ Məscidi.
Fotoqraf: Nuşad Əli





*Hz. Peyğəmbər ﷺ Xeybər döyüşündən sonra hicri 7-ci ildə Peyğəmbər məscidini genişləndirdi, sonra Ömər ibn əl-Xəttabın dövründə genişləndirildi. Ondan sonra da məscid tarix boyu bir neçə dəfə genişləndirildi. Ən böyük genişləndimə isə Kral Fəhd bin Əbdüləziz tərəfindən aparıldı. Belə ki, onun dövründə Məsidin ərazisi 82.000 kvadratmetr artırıldı. Hal hazırda Məscidin ümumi sahəsi 400.000 kvadratmetri keçib.*



## QEYDLƏR

1. Bəzi rəvayətlərə və təxmini hesablamalara görə Hz. Muhəmməd ﷺ miladi 571-ci ildə anadan olmuşdur.

2. Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsur tərəfindən tikilmiş Əqəbə/Beyəti məscidi Məkkə ilə Mina arasında yerləşir. Mədinənin Əvs və Xəzrəc qəbilələrindən olan 70 nəfər burada beyət edərək İslamı qəbul etmişdilər.

3. Muhəmməd Peyğəmbər ﷺ Mədinəyə hicrət etdiyi zaman Məkkədə çox az müsəlman qalmışdı. Onlar köç etməyə imkanı olmayanlar idi.

4. Hicri təqvimi, Hz. Muhəmmədin ﷺ Mədinəyə hicrətinin ilk günündən (təxminən 13 sentyabr M.622) başlayır. Müsəlmanların Məkkəyə qayıtmaları və Məkkəni qansız fəth etmələri təqribən miladi 630-cu ilin 8 yanvarına təsadüf edir.

5. Küveytli Xəttat Seyid Əli əl-Beddanın Küveyt Universitetində nümayiş etdirilən lövhəsində "Bir şey istəyəndə Allahdan istəyin!" ifadəsi yazılır. Bu ifadə İbn Abbasın rəvayət etdiyi hədisdən bir cümlədir ki, bəndə yaxşı və pis gündə Allahdan kömək istəməli və yalnız Ona təvəkkül etməlidir.

6. Taiflilər, İslama dəvət etməyə gələn Həzrət Muhəmməd ﷺ ilə çox pis rəftar etmiş və onu daşqalaq edərək Taifdən qovmuşdular. Qarşılaşdığı pis rəftardan çox üzülən Allah Rəsulu ﷺ əllərini açıb rəbbinə belə dua etmişdi:

# DUA

“Allahım! Gücümün tükənməyini, qüvvətimin azalmağını, insanların gözündə alçalmamı sənə şikayət edirəm.

Ey mərhəmətlilərin ən mərhəmətlisi!

Sən məzlumların Rəbbisən!

Sən mənim Rəbbimsən!

Məni kimin əlinə bıraxırsan?

Mənə qəddarlıq edən yad adamların ixtiyarına?

Yoxsa mənə hakim olacaq bir düşmənin əlinə?

Əgər sən məndən narazı deyilsənsə, mən başıma gələnlərə əhəmiyyət verməyəm.

Amma sənin köməyin mənə təsəlli verəcək. Mən, Sənin qaranlığı işıqlandıran nuruna sığınıram. Dünyamı və axirətimi xilas edəcək nura...

Gələcək hiddətindən və mənə çatacaq qəzəbindən sığınacaq axtarıram. Sənə sığındım və sadəcə Sənin rızanı istəyirəm. Qüdrət və güc sahibi yalnız Sənsən.

(Təbərani və başqaları. Bəzi alimlər bu rəvayətin zəif olduğunu söyləmişdilər )

Fəsil

4

# Peyğəmbərlik və Risalət



Bədii kompozisiya İslam xəttatlığı sənəti.
Yapon xəttat Nobuko Saqavanın əsərindən:
“Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən bir elçi olaraq göndərdik.”
Sülüs xətti ilə yazılmış əl-Əhzab surəsinin 45-ci ayəsi.

# PEYĞƏMBƏRLİK VƏ RİSALƏT

**Hz. Muhəmməd ﷺ peyğəmbər olacağını bilmirdi:** İnsanlar arasında sadiq və əl-əmin olaraq tanınan Hz.Muhəmməd ﷺ, cəmiyyətdəki hər bir fərd kimi normal həyat sürmüş, çörək pulu qazanmaq üçün çobanlıq və ticarətlə məşğul olmuşdur. Bütpərəst cəmiyyətdə yaşamasına baxmayaraq, heç vaxt bütlərə sitayiş etməmişdir.
Hz. Muhəmməd ﷺ uşaqlıqdan kainatı yaradan bir ilahın olduğuna Onun heç bir şərikinin olmadığına inanırdı. 40 yaşına çatanda dünya işlərindən sıxılmağa başlamışdı. Onun saf ruhu, fəsad içində olan insanların yaşadığı şəhərdən uzaqda tək qalmağı xoşlayırdı. Ona görə də tez-tez Məkkə yaxınlığında yerləşən Nur dağındakı "Hira" mağarasına gedərək özünü dua və təfəkkürə həsr edirdi.

**Bu, nə yuxu, nə də xəyal deyildi!:** Tarix miladi 610-cu ilin Ramazan ayını göstərirdi. Hz. Muhəmməd ﷺ ibadət üçün Hira mağarasında çəkilmişdi. Təfəkkür və dua ilə məşğul olduğu bir vaxtda Hz. Muhəmmədə ﷺ göndərilən vəhy mələyi Cəbrayıl عليه السلام ona "OXU!" dedi.


Hira mağarası

"OXU!"

İlk dəfə bir mələyi görən Hz. Muhəmməd ﷺ dəhşətə gəldi. Oxuma yazma bilmədiyi üçün "Mən oxuya bilmirəm!" dedi. Bunun üzərinə Cəbrail عليه السلام Hz. Muhəmmədi ﷺ qucaqlayıb sıxdıqdan sonra buraxdı və eyni sözü təkrarladı: "OXU!" dedi. Hz. Muhəmmədin ﷺ cavabı yenə "Oxuya bilmirəm" oldu. Cəbrail عليه السلام Hz. Muhəmmədi ﷺ yenidən qucaqlayıb sıxdı və sonra buraxdı. "OXU!" deyə üçüncü dəfə sözünü təkrarladı. Hz. Muhəmməd ﷺ yenə də "Oxuya bilmirəm" deyə cavab verdi. Hz. Muhəmməddən ﷺ yenə "Mən oxuya bilmirəm" ca-

vabını alan Cəbrail عليه السلام, kainatın yaradıcısı Allah Təalanın əzəli kəlamı olan Quranın ilk beş ayəsini oxudu:

> "Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin müqayisəsiz səxavətə malikdir. O, qələmlə yazmağı öyrətdi. İnsana bilmədiklərini öyrətdi."
>
> *(əl-Ələq, 1-5)*

Quran ayələrini oxuduqdan sonra Cəbrail عليه السلام, Hz. Muhəmmədə ﷺ "Nəbi" və ya "Rəsul" olduğunu demədən gözdən itdi.

**Hz.** Muhəmməd ﷺ **qorxu içində evə qayıdır:** Şahidi olduğu böyük hadisənin təsirindən şiddətlə titrəyən Hz. Muhəmməd ﷺ bu vəziyyətdə evinə qayıtdı və həyat yoldaşı Hz. Xədicəyə رضي الله عنها "Üstümü örtün!" dedi. Hz. Xədicə رضي الله عنها sevimli həyat yoldaşını şəfqət və hörmətlə bürüdü. Hz. Peyğəmbər ﷺ sakitləşdikdən sonra ayağa qalxıb mağarada başına gələnləri həyat yoldaşına danışdı. Həyat yoldaşını diqqətlə dinləyən Hz. Xədicə رضي الله عنها: "Qorxma! Allah səni utandırmaz. Sən həmişə doğru danışırsan, əmanətə riayət edirsən, qohumluq əlaqələrini möhkəmlədir, kasıblara yardım edir və haqq sahiblərinin haqqını ödəyirsən..." deyərək Hz. Muhəmmədə ﷺ təsəlli verdi.






(İordaniyalı xəttat Abdulməcid ən-Nəirat tərəfindən dizayn edilmiş "Muhəmməd" sözünün olduğu lövhə. Bu lövhə, Hz. Muhəmmədin ﷺ Hira mağarasına qalxması, eyni zamanda Hz. Muhəmmədin ﷺ qoyduğu yolla gedən şəxsin zirvəyə qalxa biləcəyinə işarə edir.)

**Hz. Muhəmmədə ﷺ nazil olan Mərhəmətli Allahdan gələn vəhydir, yoxsa şeytanın vəsvəsəsi?** Ərini bu dərəcədə qorxuya salan bu hadisənin nə olduğunu öyrənmək istəyən Xədicə رضي الله عنها, Hz. Muhəmmədi ﷺ götürüb əmisi oğlu Varaqa bin Nofəlin yanına gətirdi. Müdrik qoca olan Varaqa bin Nofəl cahiliyyə dövründə nəsrani olmuş, İncil və Tövrat haqqında dərin biliyə malik idi. Varaqa bin Növfəl, Hz. Muhəmmədə ﷺ bir sıra suallar verdi. Varaqa, Rəsulullahı ﷺ dinlədikdən sonra beli dedi: "Sən Hz. Musa عليه السلام və Hz. İsanın عليه السلام öz ümmətini müjdələdiyi, insanları zülmətdən nura çıxaracaq gözlənilən peyğəmbərsən. Sənin yanına gələn mələk də, səndən əvvəlki peyğəmbərlərə gələn Ruhu'l-Qüds (Cəbrail) idi. Sənin gətirdiyini insanlar rədd edəcək və sənə düşmən olacaqlar. Sənin peyğəmbərliyin zamanında gənc olsaydım və qövmün səni Məkkədən qovduğu vaxta qədər yaşaya bilsəydim sənə kömək edərdim."

**Allahın rəsulu Hz. Muhəmməd ﷺ:** İlk vəhydən bir müddət sonra Cəbrail عليه السلام yenidən Hz. Muhəmmədə ﷺ göründü və bu dəfə Müddəssir surəsinin ilk yeddi ayəsini oxudu.

> Ey libasına örtünmüş peyğəmbər! Qalx və insanları xəbərdar et! Təkcə Rəbbini uca tut! Geyimini təmiz saxla! Pis şeyləri tərk et! Yaxşılığı təmənna məqsədilə etmə! Rəbbin üçün səbir et!
>
> *(əl-Muddəssir, 1-7)*

Cəbrail عليه السلام vasitəsilə Hz. Muhəmmədə ﷺ göndərilən vəhy 23 il davam etdi. Bu müddət ərzində insanları dünya və axirət səadətinə qovuşduracaq. Quran ayələri tamamlanmışdır.

**Hz. Muhəmmədin ﷺ dəvəti nə idi?** Hz. Muhəmməd ﷺ ailəsini, qohumlarını, qəbiləsini və bütün bəşəriyyəti heç bir şəriki olmayan tək ilaha (Allaha) iman gətirməyə dəvət edirdi. O Allah ki bütün kainatı və saysız-hesabsız canlı və cansız məxluqları yalnız O yaratmışdır. Buna görə də Allahdan başqasına ibadət etmək, ona şərik qoşmaq və ondan başqasının hökmlərinə tabe olmaq caiz deyil.

**Hz. Muhəmmədin ﷺ gətirdiyi səmavi risalət nədir?** Hz. Muhəmməd peyğəmbərin ﷺ gətirdiyi ilahi mesaj İslam dinidir. Yəni Allaha imanla təslim olmaq, Onun qanunlarını əqidə və şəriət olaraq qəbul etmək deməkdir. İslam əqidəsi; Allahın varlığına, birliyinə, tək olduğuna və şərikinin olmadığına inanmaqdır. O Allah ki bəşəriyyətin yeganə Rəbbi, yeganə sahibi və yeganə ilahıdır. İslam şəriəti isə, insanın bütün həyatını, işini və vərdişlərini tənzimləyən Allahın qoyduğu qanunlardır. Fiqh alimləri İslam şəriətini üç əsas başlıq altında toplayıblar: "İbadətlər", "Əxlaq" və "Davranışlar".

**Əqidə və Şəriət**

**(1) İbadətlər**: Allahın qoyduğu, insanlara Rəbbinə ibadət etməyi öyrədən hökmlərdir. Bunlar: Allahdan başqa ibadətə layiq olan heç bir məbudun olmadığını və Muhəmmədin ﷺ Allahın elçisi olduğuna şahidlik etmək, beş vaxt namaz qılmaq, malın qırxda birindən zəkat vermək, Ramazan ayında oruc tutmaq və ömründə bir dəfə Kəbəyə gedib həcc etməkdir.
**(2) Əxlaq:** Allah Təalanın təriflədiyi və insanların bir-biriləri ilə rəftarlarında riayət etmələrini istədiyi dürüstlük, etibarlılıq, sevgi, ədalət, əməkdaşlıq, qardaşlıq və səxavət kimi gözəl davranışlar toplusudur.
**(3) Davranışlar:** İçtimai həyata aid olan evlilik, boşanma, varislik, ticarət, qəyyumluq və insan hüquqları kimi məsələləri tənzimləyən ilahi hökmlər "Davranışlar" altında toplanır.

# Səmavi risalətin hökümlərinin xülasəsi

*De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum." Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız. Yetim yetkinlik yaşına çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız.*

*Yuxarıda qeyd olunan əl-Ənam surəsinin 151 və 152-ci ayələrində Allah-Təalanın insanlara əmr etdiklərinin və haram buyurduqlarının xülasəsi bildirilmişdir.*

QEYD: Həzrət Muhəmmədə ﷺ peyğəmbərlik vəzifəsi verildikdən sonra 13 il Məkkədə qaldı. Bu müddət ərzində "Allahdan başqa ibadətə layiq olan məbud yoxdur" mənasını verən tövhid əqidəsini cəmiyyətdə bərqərar etməyə çalışdı. Mədinəyə hicrət etdikdən sonra isə (miladi 622) müsəlmanlara İslam hüququnu öyrətdi.

**Həbəşistanda İslam mesajının praktiki izahı:** Hz. Cəfər bin Əbi Talibin Həbəşistanda dediyi sözləri bəlkə də İslamın ən gözəl tərifidir: “Risalətin 5-ci ili idi. Qureyşin müsəlmanlara qarşı etdiyi zülm, əzab, işgəncə və iqtisadi embarqodan kədərlənən Hz. Muhəmməd, müsəlmanlara, heç kimə zülm etməyən və ədalətli kimi tanınan Həbəş kralı Nəcaşinin ölkəsinə hicrət etməyi tövsiyə etdi. Peyğəmbərin tövsiyəsi ilə bir qrup müsəlman indi Efiopiya kimi tanınan Həbəşistana hicrət etdi.

Ancaq qureyşlilər burada da müsəlmanları tək rahat yaşamağa qoymadılar. Onlar Həbəşistana gəlib Nəcaşidən müsəlmanları onlara təslim eləməsini xahiş etdilər. Qureyşin təklifini rədd edən Nəcaşi müsəlmanları öz hüzuruna dəvət etmək və məsələni onların öz ağızlarından dinləmək istədiyini söylədi. Bunun üzərinə Hz. Cəfər ibn Əbi Talib kralın hüzurunda İslamı ən gözəl şəkildə tanıdan bu qısa sözləri demişdir:



"Ey kral! Biz cəhalət içində yaşayan bir xalq idik. Bütlərə sitayiş edir, murdar ət yeyirdik. Bütün pis işləri görür, qohum-əqrəbayla əlaqələrimizi kəsərdik. Qonşularla pis rəftar edərdik, güclülərimiz zəiflərimizi əzərdi. Bizə nəsəbi, doğruluğu, namusluluğu və iffətiylə tanınan bir peyğəmbər göndərilənə qədər belə etdik. O, Allahın elçisidir. Bizi Allahın birliyinə iman gətirməyə, yalnız Allaha ibadət etməyə, atalarımızın sitayiş etdiyi daş və bütlərdən əl çəkməyə dəvət etdi. Bizə haqqı deməyi, əmanəti yerinə yetirməyi, qohum-əqrəbaya diqqət etməyi, yaxşı qonşu olmağı, haramdan uzaq olmağı, qan tökməməyi əmr etdi. Bizi bütün pisliklərdən uzaqlaşdırdı. O, yalan şahidlik etməyi, yetimin malını yeməyi və namuslu qadınlara böhtan atmağı bizə qadağan etdi. Bizə yalnız Allaha ibadət etməyi, Ona şərik qoşmamağı, namaz qılmağı, zəkat verməyi və Ramazan ayında oruc tutmağı əmr etmişdir. Biz bu peyğəmbərə inandıq və iman gətirdik. Onun göstərdiyi yolla getdik. Biz, Peyğəmbərin halal dediyini halal, haram dediyini də haram qəbul etdik.

Ey kral! Bunun müqabilində qövmümüz bizə hücum etdi və bizə hər cür işgəncə verdi. Bizi dinimizdən döndərməyə və yenidən bütlərə ibadət etdirməyə çalışdı. Bizə etdikləri işkəncə və zülmlər dözülməz vəziyyətə çatdıqda dinimizi qorumaq üçün vətənimizdən çıxdıq və sənin ölkənə üz tutduq. Biz sizin ölkədə qalacağımızı və beləcə bizə edilən əzab əziyyətdən canımızı qurtaracağımızı ümid edirdik”.



## Kral Nəcaşi İslamı qəbul edir:


Efiopiyada Kral Nəcaşinin adına olan məscid

Həbəşistan kralı Nəcaşi ədalətli hökmdar olduğu üçün hökm verərkən Allahdan qorxurdu. Buna görə hz. Cəfərdən Hz. Muhəmmədə ﷺ göndərilən ayələrdən bir neçəsini oxumasını istədi. Hz. Cəfər Məryəm surəsindən bir neçə ayət oxudu. Oxunan ayələrdən çox təsirlənən Nəcaşi ağlamağa başladı, hətta ağlamaqdan saqqalı da islandı. Sonra kral belə dedi:




“Peyğəmbərinizə göndərilənlər və İsanın gətirdikləri eyni çıraqdan çıxan bir işiq kimidir."

Qüreyşi təmsil edən Amr bin As (o vaxt hələ müsəlman deyildi), müsəlmanların ardınca Həbəşistana gedərək onları Məkkəyə qaytarmaq istəyirdi. Ancaq onun bütün səylərinə baxmayaraq Nəcaşi müsəlmanları Qureyşə təslim etmədi. Əksinə, onlara öz ölkəsində istədikləri qədər qalmağa icazə verdi.

# İslam. Sonuncu səmavi risalət
## İslam nədir?



"İslam" sözü kainatı yaradan, hər şeyin yaradıcısı olan, mülkündə şəriki olmayan və ondan başqa məbud olmayan tək Allaha təslim olmaq deməkdir. İslam dini isə mülkün sahibi və məxluqatın yaradıcısı olan Allaha xalis tövhid dinidir.

**Əsmaul – Hüsna (Allahın gözəl adları)** Allahın bir çox adları və sifətləri vardır ki, onlardan bəziləri Qurani Kərimdə, bəziləri də Hz. Peyğəmbərin ﷺ hədislərində qeyd edilmişdir. Bu adlardan məlum olanlarının sayısı 99 dur.



"Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin!"

*(əl-Əraf,180)*

"De: "İstər Allah deyib çağırın, istərsə də ər-Rəhman deyib çağırın. Necə çağırsanız da, hər halda ən gözəl adlar Ona məxsusdur."

*(əl-İsra,110)*

"O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı bilən Allahdır. O, Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olmayan, Hökmdar, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır."

*(əl-Həşr, 22-23)*



| English | Arabic | Hebrew | Aramaic |
|---|---|---|---|
| God | Elah | Eloha | Elaha |

*Qeyd:*
*Ərəb dilində olan İncildə "ilahı" ifadə etmək üçün Allah sözütez-tez istifadə olunur. İslamda Allahın 99 tanınmış "gözəl ad və sifətləri" vardır.*

"O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Hikmət sahibidir."

*(əl-Həşr, 24)*

**Muhəmməd ﷺ və İslam:** Sufyan ibn Abdullah əs-Səqəfi رضي الله عنه demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə ﷺ) dedim: "Ey Allahın elçisi! İslam haqqında mənə elə bir söz söylə ki, artıq səndən başqa heç kəsdən bu haqda soruşmayım." Peyğəmbər ﷺ buyurdu:

İslam, iman etmək və doğru yolda olmaqdır.

“Allaha iman gətirdim de, sonra da düz yol tut".
(Müslim, İman, 62; Bihar əl-Ənvar, 40/175)

İslam inancını qəbul etmək sözdə, hərəkətdə və ya əməldə ekstremizmə meyl etmədən balanslaşdırılmış/ortayollu həyat tərzi sürməyi tələb edir.

Peyğəmbərin ﷺ ifadə etdiyi bu söz mömin və müsəlmanların izləyəcəyi yolu və həyat tərzini müəyyən edir, onun Rəbbinə doğru getməsi üçün yol cızır və onu sözdə və əməldə ifratçılıqdan uzaqlaşdırır. İslam, həyatın bütün məsələlərində dürüst olmağı tələb edir. İslam Allaha iman gətirən insanın davranışını, onun məqsəd və istəklərini bərqərar edən yoldur.

Allah Təala Quranda möminləri belə vəsf edir:

> "Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!"
>
> *(Fussilət, 30)*

**İslam və Sülh:** Dil baxımından “İslam” sözü ərəb dilində zərərsiz mənasını verən “sələmə” kökündən gəlir və sülh mənasını verən “Salam” sözü ilə əlaqəlidir. “Salam” Allahın ən gözəl adlarından biridir. Allaha təslim olan insan öz daxilində rahatlıq tapır və ətrafındakı insanlarla sülh içində yaşayır. Muhəmməd Peyğəmbər ﷺ müsəlmanı “Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin” kimi tərif etmişdir, yəni insanlar onun əməllərindən və sözlərindən heç bir zərər görməməlidirlər.

**Müsəlmanlar yoxsa Muhəmmədilər?** Digər dinlərin ardıcıllarından fərqli olaraq, Muhəmmədin ﷺ ardıcıllarına Muhəmmədi deyilmir. İslama bağlı olan və həyat tərzi kimi qəbul edənə, bir Allaha iman gətirib Ona təslim olan mənasında “müsəlman” deyilir.

**İslamda imanın əsasları və dinin dərəcələri hansılardır?** İmanın altı əsası var: Allaha iman, mələklərə iman, müqəddəs kitablarına iman, peyğəmbərlərə iman, qiyamət gününə iman və xeyir və şərin Allahdan olduğuna iman. Dinin dərəcələrinə gəlincə, onlar belədir:

## İslam – İman – İhsan

İhsan: Allahı görürmüş kimi ona ibadət etməkdir. Çünkü sən onu görməsən də o səni görür.

## İslamın Əsasları

İslam dini müsəlmanın yerinə yetirməli olduğu beş əsas üzərində qurulmuşdur. Bu əsasların hamısına iman gətirmək vacibdir. Bu beş əsasın beşinə də eyni zamanda iman gətirməyən şəxs müsəlman sayılmaz.

| | | |
|---|---|---|
| 1 | **Şəhadət** | Kəlmeyi şəhadəti (Əşhədu ən la ilahə illəllah, Əşhədu ənnə Muhəmmədən rəsulullah. Mənası: Şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və yenə şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın elçisidir) dil ilə söyləmək, qəlb İlə təsdiq etmək və tələb etdiyi əməlləri yerin yetirməkdir. |
| 2 | **Namaz** | Gündə beş vaxt namaz qılmaqdır. |
| 3 | **Oruc** | Ramazan ayında bir ar oruc tutmaqdır. |
| 4 | **Zəkat** | Malın zəkatını verməkdir. |
| 5 | **Həc** | Yoluna gücü yetən insana Allahın evi Kəbəni (ömürdə bir dəfə) həcc ziyarəti etməkdir. |



## 1. KƏLMEYİ - ŞƏHADƏT

Şəhadət dinin bünövrəsi və sütunu, şəriki olmayan qüdrətli və əzəmətli Allahın birliyinə və Ondan başqa məbud olmadığına dəlildir.

أشهدُ أن لا إله إلا الله وأشهدُ أنَّ محمداً رسول الله



İslam əqidəsinin əsasını təşkil edən kəlmeyi – şəhadəti tələffüz etmək, bütün varlıqları yaradan bir və tək Allahın olduğunu etiraf etməkdir. Bir şəxs kəlmeyi - şəhadəti "Allahdan başqa haqq məbud yoxdur və Muhəmməd Allahın Rəsuludur" söyləsə, ona yəqinliklə iman gətirsə və bu kəlmənin namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həcc etmək kimi tələblərinə əməl etsə, halal olanları qəbul edib haram olanlardan uzaqlaşsa əsil müsəlman olar.



Kəlmeyi şəhadət, Muhəmmədi ﷺ Allahın elçisi kimi tanımaqla bərabər, ondan əvvəl göndərilən bütün peyğəmbərləri Allahın elçiləri olaraq qəbul etməyi tələb edir.

## 2. BEŞ VAXT NAMAZ

Namazın İslamda böyük yeri vardır və insanın Qiyamət günü hesaba çəkiləcəyi ilk şey də namazdır. Namaz kafirlə müsəlman arasında fərqləndirici nişanədir. Allah müsəlmanlara gündə beş vaxt namaz qılmağı fərz buyurmuşdur.

**Namaz imanın əməli tətbiqidir.**

Gündə beş vaxt namaz:




> "Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən onlara yaxınam, Mənə dua edənin duasını dua etdiyi vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər."
>
> *(əl-Bəqərə, 186)*

Ərəb dilində namaza "salat" deyilir. "Salat" sözü ərəb dilində gəlib irtibat mənasını bildirir. Bəndə namaz vasitəsiylə yaradanı ilə əlaqə quraraq Ona şükür edir və istəklərini Ona ərz edir. Namaz insanın yaradıcısı ilə ünsiyyət qurmasına və Ona yaxınlaşmasına imkan verən bir ibadətdir.

**Mənəvi enerji və psixoloji dəstək**

İbadətin mahiyyəti Allahı qəlb, dil və bədənlə təsbih etmək, ucaltmaq və həmd etməkdir. Gündə beş dəfə namaz qılmaq insana mənəvi enerji və psixoloji rahatlıq verir.

İnsan bədən və ruhdan ibarətdir. Necə ki, bədənimiz üçün gündə üç-dörd dəfə yemək yeyirik və fiziki qidaya ehtiyacımız olduğu üçün heç vaxt şikayət etmirik, ruhumuz üçün də mənəvi qidaya ehtiyacımız var. Gün ərzində fasilələrlə qılınan namaz belə mənəvi qidanı təmin edir.

## 3. ZƏKAT

Malın zəkatı 2.5 %

Allah təala müsəlmanlara zəkat verməyi quranda fərz buyurmuşdur. Zəkat 85 qr. təmiz qızıl dəyərinə çatan malın üzərindən bir il keçdikdən sonra onun qırxda birini (2,5%) ildə bir dəfə yoxsullara və ehtiyac sahiblərinə sədəqə vermək deməkdir. Zəkat, sadəcə varlı müsəlmanların, kasıblara etdikləri bir yardım və ya verdikləri bir bəxşiş deyildir. Zəkat, tam olaraq kasıbın varlının malında olan haqqıdır. Zəkat mal ilə olan ibadətdir. Zəkat insanın qəlbini hərislik və xəsislikdən təmizləyir, kasıbların qəlbindən isə kin və paxıllığı uzaqlaşdırır. Zəkat, varlı və kasıb arasındaki qarşılıqlı sayğı və hörməti gücləndirir, ictimai həmrəylik və əməkdaşlıq ruhunu yüksəldir, cəmiyyətin rifahını yüksəldir və sosyal ədalətin bərpasında mühüm rol oynayır. Dəvə, inək, qoyun, taxıl və s. mal qaranın və ya qızıl gümüş kimi qiymətli mineralların da zəkatı verilməlidir. Zəkat, ət-Tovbə surəsinin 60-cı ayəsində buyurulduğu kimi yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və pulu qurtarıb yolda qalan müsafirlərə verilməlidir. **Qeyd:** Zəkat malları ilə əlaqədar ətraflı məlumat üçün fiqh kitablarına müraciət edilməlidir.

## 4. RAMAZAN ORUCU



Allah Təala əvvəlki ümmətlərə fərz buyurduğu kimi müsəlmanlara da oruc tutmağı fərz buyurmuşdur. Oruc Quranın nazil olduğu Ramazan ayında tutulur. Oruc tutan müsəlman dan yeri söküləndən gün batana qədər yeməkdən, içməkdən və cinsi əlaqədən uzaq durmalıdır. Müsəlman oruc tutarkən müəyyən dərəcədə emosional təfəkkür və

mənəvi rahatlıq içində olur. Eyni zamanda oruc tutan insan nəfsini daha rahat hesaba çəkə bilir və xeyirxah işlər görməyə meyilli olur. Müasir tibb tərəfindən sübut edilmişdir ki, oruc tutmağın sağlamlığa böyük faydaları var. Oruc tutan insan nəfs və istəklərini cilovlamağın, habelə özünü mənəvi cəhətdən yüksəltməyin yollarını öyrənir. Oruc tutan insan, ac qaldığı üçün Allahın köməyinə və ruzisinə möhtaclıq hiss edir və buna görə də su və yemək qıtlığına məruz qalan insanları və yoxsulları daha yaxşı başa düşür.

| Qəməri Aylar | |
|---|---|
| 1 | Məhərrəm |
| 2 | Səfər |
| 3 | Rabiuləvvəl |
| 4 | Rabiulaxir |
| 5 | Cumadələvvəl |
| 6 | Cumadəlaxir |
| 7 | Rəcəb |
| 8 | Şaban |
| 9 | Ramazan |
| 10 | Şəvval |
| 11 | Zilqədə |
| 12 | Zilhiccə |

## 5. HƏCC

Həcc, qəməri aylardan Zilhiccə ayında Kəbəni ziyarət etmək və müəyyən ibadətləri yerinə yetirmək məqsədi ilə Məkkəyə edilən ziyarətdir. Həcc İslam əsaslarının beşincisidir. Maddi və fiziki imkanlara malik olan, ağlı başında olan, azad və yetkinlik yaşına çatmış hər bir müsəlman ömründə bir dəfə həc ziyarəti edməlidir. Həcc, müsəlmanın həyatında yalnız Rəbbinin və yaradanının razılığını qazanmaq üçün çıxdığı müqəddəs və böyük bir səyahətdir.
Həcc dünyanın hər yerindən milyonlarla müsəlmanın Məkkədə icra etdiyi ən böyük kollektiv ibadətdir. Müxtəlif irqlərə və dillərə malik olan müsəlmanlar Zilhiccə ayının doqquzuncu günü Ərafatda toplaşaraq Allaha dua edirlər.

Hz. Peyğəmbər ﷺ belə buyurub: “Kim Allah üçün həcc ziyarətini yerinə yetirsə və (ziyarət əsnasında) qadını ilə yaxınlıq etməsə və (digər) günah işlərdən çəkinsə, dünyaya gəldiyi gündə olduğu kimi (pak halda evinə) qayıdar."

(Buzari, 1521; Muslim, 1350; Təbarsinin "Mustədrak Vəsail" əsəri, 8/28)

# Bir ilah... Bir risalət

## Peyğəmbərlər və Allahın elçiləri



Bütün insanların Rəbbi olan Uca Allah insanları nəzarətsiz qoymamışdır. Onların hidayətə qovuşması üçün aralarından seçdiyi peyğəmbərləri tövhid dinini öyrətmək üçün onlara elçi olaraq göndərmişdir. Quranı Kərimdə 25 peyğəmbərin adı çəkilir. Bəzi peyğəmbərlər haqqında isə Quranda daha ətraflı məlumat verilir və adları Quranda daha çox keçir. Məsələn, Hz. Adəm 25, Hz. Huh 43, Hz. İbrahim 69, Hz. Musa 136, Hz. İsanın adı isə Quranda 25 dəfə keçir. Bütün peyğəmbərlərin risaləti insanlara uca Allahın varlığını və birliyini, yaradılışın məqsəd və hikmətini, gözəl əxlaqı öyrətməklə insanları zülmətə düşməkdən xilas etməkdir. Məhz Hz. Muhəmməd ﷺ də, Hz. Adəm عليه السلام dövründən bəri dəyişməmiş olan bu həqiqəti bir daha təsdiqləmək üçün göndərilmiş son peyğəmbərdir. Peyğəmbər ﷺ demişdir: "Mənim və əvvəlki peyğəmbərlərin məsəli, gözəl və heyrətamiz bir ev tikmiş, lakin kərpicinin birini qoymamış bir kimsənin məsəlinə bənzəyir. Camaat bu evin yan-yörəsindən keçir, ona təəccüb edir və deyirlər: "Nə üçün bura bir kərpic qoyulmayıb?" Sonra Peyğəmbər ﷺ davam edib dedi: "O kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam." (Buxari, 3535; İbn Şəhr Aşubinin "Mənaqib Ali Əbi Talib" əsəri, 1/198)

Qeyd: Kərpic tikinti daşıdır. Bu misaldan məqsəd odur ki, bina tikilmiş ancaq bir yer boş qalmışdı. Muhəmməd ﷺ gəldi və onu tamamladı. Gözəl bina və ya ev isə Adəmdən عليه السلام Muhəmmədə ﷺ qədər Uca Allahın göndərdiyi səmavi risalətləri təmsil edir.

"Biz səndən əvvəl də elçilər göndərmişdik. Onlardan bəziləri haqqında sənə danışmışıq, bəziləri haqqında isə danışmamışıq. Heç bir elçi Allahın izni olmadan bir ayə gətirə bilməzdi. Allahın əmri gəldikdə isə ədalətlə hökm verilər və yalan danışanlar orada ziyana uğrayarlar."

*(Ğafir,78)*

"Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!"

*(əl-Bəqərə,136)*

**Tövrat, İncil və Quran səmavi kitablardır:** İslamda imanın əsasları belədir: Allaha iman, mələklərə iman, kitablara iman, peyğəmbərlərə iman, Qiyamət gününə iman, qədərə - yəni, xeyir və şərin Allahdan olduğuna iman.

Müsəlmanlar, Quranla bərabər Hz. İbrahimə عليه السلام nazil olan səhifələr, Hz. Musaya عليه السلام nazil edilən Tövrata, Hz. Davuda عليه السلام nazil olan Zəbura və Hz. İsaya عليه السلام nazil edilən İncilə inanır və müqəddəs olaraq qəbul edirlər. Quran digər səmavi kitablarla ziddiyyət təşkil etmir. Çünki hamısı eyni mənbədən (Allahdan) gəlir.  Ancaq Quran digər səmavi kitablardan fərqli olaraq Allahın şəriətini tamamlayan sonuncu səmavi kitab olduğuna görə Allah Təala onu təhrif olmaqdan qorumuş, insan əli ilə dəyişdirilməmişdir. Digər səmavi kitablar isə tarix boyu insan əli ilə edilən təhriflərə məruz qalmışdır.

Bu bir həqiqətdir ki bu gün müsəlmanların əlində olan Quranla 14 əsr əvvəl Muhəmməd Peyğəmbərə ﷺ nazil olan Quran arasında heç bir fərq yoxdur. Möcüzəvi şəkildə qorunub saxlanılan Quranı müsəlmanlar əzbərləyərək nəsildən-nəslə ötürüləcək və qiyamətə qədər toxunulmaz qalacaq.

"Şübhəsiz ki, Biz, içində hidayət və nur olan Tövratı nazil etdik. Özlərini Allaha təslim edən peyğəmbərlər bununla yəhudilər arasında hökm edərdilər. Din xadimləri və elm adamları isə Allahın kitabından qorunub saxlanılanlarla hökm verərdilər. Onlar buna şahiddirlər. Elə isə insanlardan qorxmayın, Məndən qorxun! Ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirdirlər."

(əl-Maidə,44)

"Qoy İncil əhli Allahın onda nazil etdiyi şəriət qanunları ilə hökm versin. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqdirlər."

(əl-Maidə,47)

"Biz sənə, özündən əvvəlki kitabı təsdiqləyən və onu qoruyan Kitabı haqq olaraq nazil etdik. Sən onların arasında, Allahın nazil etdiyi ilə hökm ver. Sənə gələn haqqı buraxıb onların istəklərinə uyma. Ey ümmətlər, hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Fəqət bu fərqli şəriətlər və yollar, sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın dönüşü Allahadır. O, ixtilaf etdiyiniz şeylər barəsində sizə xəbər verəcəkdir."

(əl-Maidə,48)

Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə gəmidə daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə Mərhəmətli Allahın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır.

(Məryəm,58)

| Peyğəmbər və ya elçi | Hz. İbrahim عليه السلام | Hz. Musa عليه السلام | Hz. İsa عليه السلام | Muhammad صلى الله عليه وسلم |
|---|---|---|---|---|
| Yaşadığı əsr (təxmini | E. Ə: 1700 | E. Ə: 1400 | M. 1-33 | M. 570-632 |
| Yaşadığı ömür (təxmini) | 175 il | 120 il | 33 il | 63 il |

# Hz. Muhəmməd ﷺ və Hz. İbrahim عليه السلام



Yəhudilər, xristianlar və müsəlmanlar İbrahimi عليه السلام peyğəmbərlərin atası kimi tanıyırlar. Çünki, İbrahimdən عليه السلام sonra gələn peyğəmbərlərin hamısı onun nəslindəndir. Atasız dünyaya gələn Hz. İsanın عليه السلام anası da Hz. İbrahimin عليه السلام nəslindədir. Müsəlmanlar etiqad edirlər ki, Muhəmməd peyğəmbər ﷺ İbrahimin عليه السلام böyük oğlu Hz. İsmailin عليه السلام nəslindəndir. İsrail oğullarına peyğəmbər olaraq göndərilən Hz. Yəqub, Yusif, Əyyub, Musa, Zəkəriyyə və Yəhya isə Hz. İbrahimin عليه السلام kiçik oğlu Hz. İshaqın nəslindəndir.




Hz. İbrahim عليه السلام və həyat yoldaşı Sara xanım qocalsa da, o vaxta qədər uca Allah onlara övlad verməmişdi. Ona görə də Sara fikirləşdi ki, öz kənizi Hacəri ərinə bağışlasın. İbrahim عليه السلام onunla evlənsin və Allah ondan İbrahimə عليه السلام övlad versin. Yaşı yetmişi ötmüş İbrahim عليه السلام Hacərlə evləndi. Nəticədə bu evlilikdən onların bir oğlu oldu. Uşağın adını İsmail qoydular. Bir müddət sonra isə çox qoca olmasına baxmayaraq möcüzəvi şəkildə hamilə qalan Sara bir oğlan uşağı dünyaya gətirdi. Bu uşağa da İshaq adını qoydular.

Hz. İbrahim عليه السلام hələ uşaq ikən Allah Təalanın varlığına və birliyinə inanırdı. O, başa düşürdü ki, bütlər, od, günəş, ay və ulduzlar ibadət ediləcək tanrı ola bilməz. İbrahim عليه السلام tam əminliklə dərk etmişdir ki, ibadətə layiq olan yalnız sonsuz kainatı və içindəki varlıqları heç kimə möhtac olmadan yaradan uca Allahdır. Ona görə də o, bütün həyatını insanlara bu həqiqəti öyrətməyə həsr etmişdir.

Hz. İbrahim ﷺ uca yaradan Allah Təalanın əmrlərinə təslim olmaq və iman yolunda fədakarlıq etmək haqqında bəşər tarixinin ən böyük nümunələrini özündə əks etdirmişdir. Sadəcə “Allahdan başqasını tanımıram və ona ibadət etmirəm” dediyi üçün Nəmrud və adamları tərəfindən atəşə atılmasına dözdü. O, Allahın əmri ilə arvadı Həcəri və südəmər oğlu İsmaili ﷺ bir an belə tərəddüd etmədən Ərəbistanın heç bir bitki və su olmayan bir vadisində qoyub getdi. Və yenə də Allahın əmri ilə illərdir həsrətini çəkdiyi sevimli oğlu İsmaili ﷺ Allah yolunda qurban kəsməkdə tərəddüd etmədi. Allah təala Hz. İbrahimin ﷺ fədakarlıqlarını əvəzsiz bıraxmadı və onu heç vaxt tək qoymadı. O atəşə atıldığı vaxt Allahın (əmriylə əl-Ənbiya surəsinin 69-cu ayəsində buyurulduğu kimi) atəş İbrahimə qarşı sərin və salamat oldu və ona bir zərəri toxunmadı. Yenə o, körpə oğlunu və həyat yoldaşını Məkkənin susuz səhrasının ortasında qoyub getdiyi vaxt Allah təala onlar üçün səhradan zəmzəm suyu çıxartdı və bu insanların dəstə-dəstə bura gəlməsinə səbəb oldu. Hz. İbrahim ﷺ Allahın əmri ilə çox sevdiyi oğlu İsmaili ﷺ qurban kəsməyə hazırlaşdığı anda Allah təala bıçağın İsmaili ﷺ kəsməsinə icazə vermədi və əvəzində ona qurbanlıq bir qoç göndərdi.

> “Yaxşı əməl sahibi olduğu halda özünü Allaha təslim edən və hənif İbrahimin dininə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi Özünə yaxın dost tutmuşdur.”
>
> *(ən-Nisa, 125)*

**ŞƏRİKİ OLMYAN TƏK BİR İLAH**

Müsəlmanlar Hz. İbrahimə ﷺ böyük hörmət bəsləyirlər. Çünki özünü ilk dəfə müsəlman olaraq tərif edən Hz. İbrahim ﷺ olmuşdur.

> “İbrahim nə yəhudi, nə də nəsrani idi. O, ancaq hənif (haqqa yönələn) bir müsəlman idi və müşriklərdən deyildi. Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və ona iman gətirənlərdir. Allah möminlərin dostudur.”
>
> *(Ali İmran, 67-68)*



Qurani Kərim xəbər verir ki, Hz. İbrahim عليه السلام və Hz. İsmail عليه السلام Allahın əmri ilə insanların yer üzündə ibadət etmələri üçün bir ev (Kəbə) tikirlər.

> "Bir zaman Biz müqəddəs Evi insanlar üçün ziyarətgah və əmin-aman bir yer etdik. "İbrahimin durduğu yeri namazgah edin!" Biz İbrahimə və İsmailə buyurduq: "Evimi təvaf edənlər, etikafa girənlər, rüku və səcdə edənlər üçün təmizləyin!"
>
> *(əl-Bəqrərə, 125)*

### Hz. İbrahim عليه السلام və Hz. İsmailin عليه السلام Kəbəni tikərkən etdiyi dua:

> "Ey Rəbbimiz! İkimizi də Sənə təslim olan, nəslimizdən də Sənə təslim olacaq bir ümmət et. Bizə ibadət qaydalarını göstər və tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!"
>
> *(əl-Bəqrərə, 125)*



*Məkkədə, Səudiyyə Ərəbistanında yerləşən Məscidulhəram. Bu, İslamın ən müqəddəs məscididir. Qara bina Kəbədir. Müsəlmanlar inanırlar ki, Allah İbrahim peyğəmbərə Onu (tək Allahı) ucaltmaq və Ona ibadət etmək üçün Kəbəni tikməyi əmr etmişdir. Müsəlmanlar Allaha namaz qıldıqları zaman (dünyanın hər yerindən) Kəbəyə yönəlirlər.*



Muhəmməd *peyğəmbər Məscidulhəramda namaz qılmağın çox savab olduğunu bildirmişdir. Hz. Peyğəmbər ﷺ, Allahın evində (Məscidulhəram) qılınan namazın başqa yerlərdə qılınan 100.000 namaza bərabər olduğunu bildirmişdir.*



# HƏCC

İslamın beş rükmündən biridir. Həcc, Hz. İbrahim عليه السلام və Hz. Həcərin tövhid dini üçün verdiyi fədakarlıqlarını simvolizə edir. Quran və Hz. Muhəmmədin ﷺ hədislərindən öyrənən müsəlmanlar Həcc ziyarəti üçün Məkkəyə gəlirlər.

**Təvaf**: Ərəbcə "bir şeyin ətrafında dolanmaq" mənasını verən təvaf, İslami bir termin olaraq Həcəruləsvəd (qara daş olan) küncündən başlayaraq Kəbəni saat əqrəbinin əks istiqamətinə yeddi dəfə dövrə vurmağa deyilir. Hz. Muhəmməd ﷺ Kəbəni yeddi dəfə dövrə vurmuşdur. Təvaf bir ibadət olduğu üçün təvaf edən şəxs dəstəmaz almalı, dilini dua, zikr və Quran tilavəti ilə məşğul etməlidir. Kainatda hər şeyin təvaf halında olduğu bir həqiqətdir. Burada müsəlmanların Kəbə ətrafında təvafı ən kiçik maddə olan atomdan tutmuş ən böyük qalaktikalara qədər bütün varlıqların fırlanmasını simvolizə edir.

> “Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər.
> Onların hər biri öz orbiti ilə üzüb gedər.”
>
> *(Ya sin, 40)*



"Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır."

*(əl-İsra, 44)*





**İbrahim məqamı:** Hz. Muhəmməd ﷺ təvafını bitirdikdən sonra İbrahim məqamının arxasında iki rükət namaz qılardı. Məqami İbrahim Kəbənin qapısının yanındakı ətrafı şüşəli metal konstruksiyalı yerdir. Hz. İbrahimin عليه السلام Kəbəni tikərkən iskala kimi istifadə etdiyi daş bu məqamın içində yerləşir. Hz. Muhəmmədin ﷺ sünnəsini yerinə yetirmək üçün Məqami İbrahimin arxasında namaza duran müsəlman, sanki müvəhhid imam Hz. İbrahimin عليه السلام arxasında durub namaz qılır.

**Səy**: Səfa və Mərvə təpələri Məscidulhəramın şimal-şərqində və şimal-qərbində yerləşən iki təpədir. Onların arasındakı məsafə 395 metrdir. Bu iki təpənin arasında yeddi dəfə gedib – gəlməyə "Səy" deyilir. Hz. Muhəmməd ﷺ burada yeddi dəfə gedib gəlmişdir.

Həcc və ümrəni yerinə yetirən şəxsin bu iki təpənin arasında yeriməsi və bəzi yerlərdə qaçması, Allahın əmri ilə Hz. İbrahim عليه السلام tərəfindən körpəsi ilə insanların olmadığı quru və susuz bir səhrada tərk edilən Hz. Həcərin su axtarma səylərini simvollaşdırır.

Bəli, Allah Təala Hz. Həcərin zəhmətini hədər etməmiş, susuzluqdan dili qurumuş İsmailin عليه السلام ayaqları altından Zəmzəm suyu çıxardaraq səhraya həyat vermişdir. Zəmzəm suyunun çıxması ilə Ərəbistan yarımadasındakı tayfalar gəlib Məkkəyə yerləşdilər. Zəmzəm suyu 14 əsrdir ki, həm Məkkə əhalisinin, həm də dünyanın hər yerindən hər il Məkkəyə gələn zəvvarların su ehtiyacını ödəyir.

**Rəcm:** İslam dinində Həcc ziyarəti zamanı gerçəkləşdirilməli olan mərasimlərdən biridir. Zəvvarlar, Hz. Muhəmmədin صلى الله عليه وسلم öyrətdiyi kimi, Məscidulhəramın şərqinə düşən Minadakı "əl-Cəmərat" bölgəsində bayramın 1, 2 və 3-cü günlərində şeytanı daşlayırlar. Cəməratda, Böyük Cəmrə, Kiçik Cəmrə ve Orta Cəmrə adlanan yerlərdə her dəfə fındıq boyda 7 daş atırlar. Əslində, şeytanları daşlamaq simvolik bir ibadətdir. Bələki, Hz. İbrahim عليه السلام Allahın əmri ilə oğlu İsmaili عليه السلام qurban kəsməyə apararkən Əqəbədə qoca bir kişi şəklində şeytan onun qarşısına çıxmışdır. Şeytan, Hz. İbrahimin عليه السلام ata şəfqətindən istifadə edərək niyyətindən döndərməyə çalışdı. Şeytanın hiyləsini anlayan Hz. İbrahim عليه السلام şeytana 7 daş atdı və şeytan dərhal gözdən itdi.







Şeytan, daha iki dəfə İbrahimin ﵇ qarşısını almağa çalışdı. Lakin hər dəfə Hz. İbrahim ﵇ tərəfindən yeddi daş atılaraq qovuldu. Ziyarətdə, şeytana simvolik olaraq daş atan müsəlmanlar, hər cür pisliyi əmr edən nəfslərinin vəsvəsələrindən və əbədi düşmənləri olan şeytanın şərindən qurtulmaq əzmində olduqlarını göstərirlər.



**Qurban**: Hz. İbrahimin ﵇ bu səmimiyyəti əbəs deyildi. Uca Allah İsmailə əvəz olaraq qurbanlıq böyük bir qoç göndərdi. Həcc vəzifəsini yerinə yetirən zəvvarlar və həccə gedə bilməyən, maddi vəziyyəti yaxşı olan müsəlmanlar Hz. Muhəmmədin ﷺ öyrətdiyi kimi qurban kəsirlər. Müsəlmanlar kəsdikləri qurban ətini həm özləri yeyir həm də yoxsullara paylayırlar.



Hz. İbrahimin ﵇ və oğlu İsmailin ﵇ bərabər olaraq Allahın əmrinə mütləq təslimiyyəti, Quranda əs-Saffat surəsində açıq şəkildə qeyd olunur:

"Hər ikisi Allahın əmrinə tabe olduqları və İbrahim onu üzüstə yerə yıxdığı zaman. Biz onu çağırıb dedik: "Ey İbrahim! Artıq sən yuxunu təsdiq etdin!" Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Həqiqətən də, bu, açıq-aydın bir imtahandır. Biz onun əvəzinə böyük bir qurbanlığı fidyə verdik. Sonradan gələnlər arasında ona gözəl xatirə qoyduq. İbrahimə salam olsun! Həqiqətən, Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Həqiqətən, o, Bizim mömin qullarımızdandır."

*(əs-Saffat, 103-111)*

Hz. Muhəmməd ﷺ, müsəlmanlara hər namazın sonunda Hz. İbrahimə عليه السلام salavat gətirməsini əmr etmişdir. Oxunan salavat belədir: **“Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd. Kəmə salleytə alə İbrahimə və alə ali İbrahim, innəkə Həmidun Məcid. Allahummə bərik alə Muhəmmədin və alə ali Muhəmməd. Kəmə bəraktə alə İbrahimə və alə ali İbrahim innəkə Həmidun Məcid.”**

Rəvayət edilir ki, səhabələrdən biri Hz. Muhəmmədi ﷺ “Ey insanların ən xeyrlisi” deyə çağırdığında Hz. Muhəmməd ﷺ böyük ədəb və təvazökarlıq göstərmiş və “İnsanların ən xeyirlisi İbrahimdir” demişdir. Hz. Muhəmməd ﷺ, həyat yoldaşı Məryəmdən dünyaya gələn övladına da “İbrahim” adını vemişdi. Lakin balaca İbrahim iki yaşına çatmamış dünyasını dəyişmişdir.





Əsrlər əvvəl Fələstində yaşayan insanlar Hz. İbrahim عليه السلام və ailəsinin dəfn olunduğunu təxmin etdikləri yerə türbə tikdilər və buranı özlərinə ziya etdilər. Türbə sonradan məscidin tərkibinə daxil edildi. Səlibçilər Fələstini ələ keçirdikdə (1099) məscidi kilsəyə çevirdilər. Fələstini səlibçilərdən xilas edən böyük sərkərdə Səlahəddin Əyyubi (1187) binanı yenidən məscidə çevirdi.

Əl-Xəlil şəhərinin ən qədim tarixi abidəsi olan İbrahim Məscidi düzbucaqlı quruluşa malikdir. İki minarəsi var və hündür divarlarla əhatə olunub.

Hz. İbrahim عليه السلام və həyat yoldaşı Sara, oğulları Hz. İshaq عليه السلام və onun həyat yoldaşı Rəfqə, Hz. İshaqın oğlu Hz. Yaqub عليه السلام və həyat yoldaşı Lega və Hz. Yusif عليه السلام Fələstinin əl-Xəlil şəhərində dəfn olunub. Orada peyğəmbərlərin məzarları olduğu üçün müsəlmanlar kimi yəhudilər və xristianlar da Məscid-i İbrahimin hərəmini müqəddəs hesab edirlər.







**(Hz. İbrahimin عليه السلام türbəsi)**

İslam dini duaları və yalvarışları qəbirlərə və ya dəfn edilmiş insanlara yönəltməyi qadağan edir. Hz Muhəmməd ﷺ buyurur: Əgər (bir şey istəsəniz) Allahdan diləyin, kömək istəsəniz, Allahdan kömək istəyin.



*De: “Həqiqətən, Rəbbim məni doğru yola, həqiqi dinə, hənif İbrahimin dininə yönəltdi. O heç vaxt müşriklərdən olmamışdı.” De: “Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm.” De: “Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa məbudmu axtaracağam?” Hər kəsin qazandığı günah yalnız öz əleyhinədir. Heç bir günahkar başqasının günahını daşımaz. Sonra isə dönüşünüz Rəbbinizə olacaq və O, ixtilafa düşdüyünüz məsələlər barədə sizə xəbər verəcəkdir."*

*(əl-Ənam, 161-164)*

(İbrahim Məscidi və ətrafı. əl-Xəlil şəhəri / Fələstin)









Musa..
Allahla
danışan
peyğəmbər

## Hz. Muhəmməd ﷺ və Hz. Musa عليه السلام:

Hz. Muhəmməd ﷺ, “Kəlimullah” ünvanına sahib olan Hz. Musanı “Qardaşım Musa” deyərək tərifləmiş və Qiyamət günü onu Allahın Ərşindən möhkəm yapışmış olaraq görəcəyini bildirmişdir.
*(Buxar, 3408, 3414, 3416; Muslim 2373)*

Hz. Muhəmməd Peyğəmbər ﷺ Mədinəyə hicrət edərkən yəhudilərin Məhərrəm ayının 10-cu günü oruc tutduğunu görür. Yəhudilərdən soruş ki, bu nə orucudur? Onlar deyirlər: "Bu gün Allahın Musanı düşmənlərindən xilas etdiyi və Fironu dənizdə boğduğu gündür. Hz. Musa عليه السلام Allaha şükür etmək üçün bu gün oruc tutardı".







Bunun üzərinə Hz. Muhəmməd ﷺ "Biz Musanın yolunu davam etdirməyə sizdən daha çox haq sahibiyik" deyərək, müsəlmanlara Məhərrəm ayının 9 və 10 və ya 10 və 11-ci günlərində oruc tutmağı tövsiyə etmişdir.

Hz. Musan عليه السلام və Bəni-İsrailin qissələri Quranda müxtəlif surələrdə təfərrüatlı şəkildə qeyd edilir. Allah Təala Hz. Musa عليه السلام ilə Tur dağında söhbət etmiş və onun, Allahın mühim vəzifələr verdiyi "Ulu'l-Əzm" peyğəmbərlərindən olduğunu bildirmişdir. Digər "Ulu'l-Əzm" peyğəmbərləri isə Hz. Nuh عليه السلام, Hz. İbrahim عليه السلام, Hz. İsa عليه السلام və Hz. Muhəmməddir ﷺ.

Hz. Musa عليه السلام, İordaniyanın Fələstin ərazilərinə baxan tərəfində, ölü dənizə yaxın olan Moab dağının Nebo təpəsində dəfn edilmişdir. Hz. Muhəmməd ﷺ də Hz. Musanın عليه السلام qəbrinin yolun kənarındakı qırmızı qumlu təpənin yanında olduğunu xəbər vermişdir. Hz. Musanın məzarını dünyanın hər yerindən turistlər ziyarət edir.





Müsəlmanlar Hz. Muhəmməd ﷺ və Hz. Musa عليه السلام arasında çoxlu oxşarlıqlar olduğuna inanırlar. Hər ikisi də həm nəbi həm də rəsuldur. Hər ikisi öz vətənlərindən mühacirət edib sonra qayıdıblar. Onların hər ikisi peyğəmbər olmaqla yanaşı, ümmətlərinin rəhbərləri olublar. Hər ikisi evlənib və uşaqları olub.








## Hz. Muhəmməd ﷺ və Hz. İsa عليه السلام:

Hz. Muhəmməd ﷺ İsa عليه السلام haqqında belə demişdir:

> Mən Məryəm oğluna həm dünyada, həm də axirətdə insanların ən yaxınıyam. Onunla mənim aramda başqa peyğəmbər olmamışdır. Peyğəmbərlər ata bir, ana ayrı qardaşdırlar. Anaları ayrı olsada dinləri də birdir." (Buxari, 3442, 3443)

**Quranda Hz. İsa**

Qorani Kərim Hz. İsanın عليه السلام atasız olaraq dünyaya gəlməsini möcüzəvi şəkildə Məryəm surəsində bu cür anladır:

*"Kitabda Məryəmi də yada sal. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə olan bir yerə çəkilmiş və ibadət vaxtı onlardan gizlənmək üçün pərdə tutmuşdu. Biz Öz Ruhumuz Cəbraili onun yanına göndərdik. O, Məryəmin qarşısında kamil bir insan surətində peyda oldu. Məryəm dedi: “Mən səndən Mərhəmətli Allaha sığınıram! Əgər müttəqisənsə, mənə toxunma.” Mələk dedi: “Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm.” Məryəm dedi: “Mənə bir insan toxunmadığı və özüm də zinakar olmadığım halda, necə mənim övladım ola bilər?” Mələk dedi: "Bu belədir, lakin Rəbbin buyurdu: «Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir dəlil və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Bu, hökmü verilmiş bir işdir.»" Məryəm uşağa qaldı və bətnindəki ilə birlikdə gedib uzaq bir yerə çəkildi. Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykən-məyə vadar etdi. O dedi: “Kaş bundan əvvəl öləydim və birdəfəlik unudulaydım!”*

*(Məryəm, 16-23)*



Nasıra Fələstinin Katoliklərə məxsus olan ən mühüm tarixi şəhərlərindən biridir. Xristianlar tərəfindən müqəddəs sayılan Müjdə kilsəsi Nasırada yerləşir. Xristianların etiqadına görə Müjdə kilsəsi, Hz. Məryəmin evinin yerində tikilmişdir. Bu kilsənin içindəki mağarada Cəbrailın عليه السلام Hz. Məryəmə göründüyü və İsaya hamilə qalacağını bildirdiyinə inanılır.

Qurani Kərim, atasız uşaq dünyaya gətirən Hz. Məryəmin, qucağındakı körpəsi ilə xalqının yanına gəlməsini və bu körpənin xalqın sərt qınaqlarına qarşı möcüzəvi şəkildə danışdığını bildirir:

*"Körpə dil açıb dedi: “Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də məni anama qarşı qayğıkeş etdi; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!” Barəsində şübhəyə düşdükləri haqq söz olan Məryəm oğlu İsa budur! Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq “Ol!”– deyər, o da dərhal olar."*

*(Məryəm, 30-35)*

Qurani-Kərim, Hz. İsanın عليه السلام Allahın Məryəmə göndərdiyi "Ol" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhu olduğunu, Allahın izni ilə müqəddəs ruh Cəbrail ilə gücləndirdiyini və Bəni İsraili doğru yola yönəltmək üçün göndərilən bir peyğəmbər olduğunu xəbər verir. Həmçinin Quran, Hz. İsanın, Allaha yaxın, dünyada və axirətdə şərəfli bir insan olduğunu, Allahın ona Kitabı, Hikməti, Tövratı və İncili öyrətdiyini, Allahın izni ilə korları və cüzamlıları sağaltdığını, ölülərə Allahın izni ilə həyat verdiyini, insanların nə yediklərini və evlərində də nə saxladıqlarını xəbər verdiyini bildirir.



**Doğuş Kilsəsi: Bethlehem / Fələstin.**
**Doğuş kilsəsi dünyanın ən qədim kilsəsi kimi tanınır.**
**Xristianlar Hz. İsanın عليه السلام burada doğulduğuna inanırlar.**

## İslam baxışına görə Hz. İsanın عليه السلام qayıdışı:

**İsa məsih qayıdacaqmı?**

Muhəmməd peyğəmbər ﷺ axır zamanda İsanın gəlişi ilə müsəlmanları müjdələmişdir. O, gəldikdən sonr müsəlmanların imamı ona dəstək olacaq və Məsihid-Dəccəla qarşı vuruşub onu öldürəcək və beləliklə yer üzündə yayılmış zülmə son qoyulacaqdır. Hz. İsa عليه السلام Allaha iman gətirən bütün möminləri bir araya gətirəcək və onlar tövhid əqidəsi üzərində olacaqlar. Bundan sonra o, İslam şəriəti ilə ədalətlə hökm verəcək və hamı xeyir içində olacaq.







Suriya, Dəməşq şəhəri.
Bəzi rəvayətlərə görə Hz. Muhəmməd ﷺ İsa peyğəmbərin Dəməşqin şərqində yerləşən bu yerə nazil olacağını bildirmişdir.

**İslam Allahın bəşəriyyətə mesajıdır:** İslamın mesajı təkcə ərəblərə deyil, bütün bəşəriyyətə çatdırılmalı olan beynəlmiləl bir mesaj idi. Buna görə də Hz.Muhəmmədə ﷺ peyğəmbərlik vəzifəsi verildiyi zaman o, Ərəbistan yarımadasının hüdudlarından kənarda yaşayan qəbilələrə də elçilər göndərərək onları İslama dəvət etmişdir.
Hz. Muhəmmədin ﷺ məktub göndərdiyi kral və hökmdarlardan bəziləri bunlardır: Həbəş kralı Nəcaşi, Misir kralı Muqavqıs, Bizans imperatoru İrakli, Fars (İran) şahı Hörmüz, Bəhreyn hökmdarı Munzir b. Sava.

> "Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin insanların çoxu bunu bilmir."
> *(Səba, 28)*

**Hz. Muhəmmədin ﷺ Rum imperatoru Herakla göndəriyi məktub**

## Rum imperatoru Herakl Hz. Muhəmmədin ﷺ məktubunu qəbul edir.

Muhəmmədin ﷺ məktubunu alan Herakl, Hz. Muhəmməd ﷺ haqqında tədqiqat aparmaq istəyir və o zaman ticarət üçün Şam diyarında olan Abu Süfyanı öz hüzuruna dəvət edərək ona çoxlu suallar verir.
Abu Süfyanla Herakl arasında aşağıdakı dialoq baş verir:



*Hz. Muhəmmədin ﷺ Rum imperatoru Herakla göndərdiyi məktub*

| Herakl | Əbu Sufyan |
|---|---|
| Aranızda onun əsil – nəcabəti nədir? | O, bizim zadəganlarımızdandır. |
| Onun əcdadları arasında padşah olubmu? | Xeyir |
| İndi dediklərini deməmişdən əvvəl onu yalan danışmaqda ittiham edirdinizmi? | Xeyir |
| Ona daha çox tabe olanlar kimlərdir, varlılar yoxsa kasıblar? | Kasıblar. |
| Onların sayı artır, yoxsa azalır? | Onların sayı hər gün artır. |
| Onların dinini qəbul etdikdən sonra dini bəyənməyib geri qayıdan varmı? | Xeyir |
| Onunla müharibə elədinizmi? | Bəli |
| Müharibənin nəticəsi necə oldu? | Bir dəfə biz qalib gəldik bir dəfə də onlar. |
| Ondan xəyanət gördünüzmü? | Xeyir |
| Onun dediyi bu sözü (dəvəti) ondan əvvəl deyən olubmu? | Xeyir |
| O sizdən nə istəyir? | Bizdən namaz qılmağı, zəkat verməyi və iffətli olmağımızı istəyir. |

Herakl: Əgər onun haqqında dedikləriniz doğrudursa, o, mütləq peyğəmbərdir. Mən bilirdim ki, bir peyğəmbər gələcək. Ancaq onun sizlərdən biri olacağını düşünmürdüm. Ona çata biləcəyimi bilsəydim, onunla görüşməyi çox istərdim. And içirəm ki, onun hökmranlığı ayağımın basdığı yerlərə çatacaqdır.

***Qeyd**: Rum imperatoru Herakl eramızın 610- 640-cı illəri arasında hökmdarlıq etmişdir. Hökmdarlığı dövründə 3 böyük müharibə etmişdir. Fars İmperiyasını məğlub edərək Suriyanı, Fələstini, Misiri və Şimali Afrikanın böyük hissəsini torpaqlarına qatdı.*

**İslam beynəlmiləl dindir:** İslam xristianlıqdan sonra dünyada ikinci ən böyük din hesab olunur. 2009-cu ildəki statistik məlumatlara görə, dünya əhalisinin ümumi sayı 6,8 milyarddır. Xristianların sayı 2,1 milyard (33%), müsəlmanların sayı 1,57 milyard (22%), dinsiz və ya ateistlərin sayı 1,1 milyard (16%), yəhudilərin sayı isə təqribən 14 milyon (0,22%) təşkil edir.

**Bütün müsəlmanlar ərəbdir?** Quran ərəb dilində nazil olsa da, ərəblərin nisbəti müsəlmanların dörddə birindən də azdır. Müsəlmanların əksəriyyəti ərəb olmayan millətlərdəndir. Bu, ərəblərin İslam dinini bütün dünyaya yaymaq üçün çox səy göstərmələrinə işarədir.




Dünya əhalisinin 32%-ni (təxminən 2,1 milyard) xristianlar və 15%-ni (1,1 milyard) ateistlər təşkil edir. Yəhudilik isə dünya əhalisinin 0,22%-ni (təqribən 14 milyon nəfər) təşkil edir.

## QEYD

Müsəlmanların, Xristianların və Yəhudilərin ümumi sayı 3,65 -3,89 milyarddır. Bu, dünya əhalisinin yarısının Allaha inandığını göstərir. Dünya əhalisinin digər yarısı ya ateistdir, ya da bütpərəst dinlərə malikdir. Amerikada Pew Araşdırma Mərkəzinin apardığı araşdırma, müsəlmanların sayının qarşıdakı illərdə digərlərindən daha çox olacağını və 2050-ci ildə 2,8 milyarda çatacağını proqnozlaşdırır.

2) İslam dini haqqında ətraflı məlumat almaq istəyənlər aşağıdakı internet səhifəsinə baxa bilərlər.

www.guidetoislam.com



Misirli xəttat İsa Abdulfəttaha aid Kufi xətti ilə yazılmış

“Bismilləhir-Rəhmanir-Rəhim”  və “Lə iləhə illəllah” yazılan iki lövhə

Fəsil

5

# ƏXLAQ VƏ MƏDƏNİYYƏT

## İSLAM MƏDƏNİYYƏTİNİN ƏXLAQ PRİNSİPLƏRİ




*"Həqiqətən də, sən böyük əxlaq sahibisən!"*

*əl-Qələm, 4*

# Birincisi:
# Şəxsi inkişaf və özünü tərbiyə



**Ruh və bədən ehtiyacları arasında tarazlıq:** Allah Təala insanı ruh, ağıl və cəsəddən ibarət olaraq yaratmış və onların hər birinin təbii ehtiyaclarını müəyyən etmişdir. Balanslı və xoşbəxt bir həyat üçün insan hər cəhətdən hüzurlu olmalıdır. Ruhun fitri ehtiyacı mənəviyyatdır. Ona görə də ruh ancaq mənəviyyatla rahatlıq tapır. Ağlın ehtiyacı təfəkkür və elm öyrənməkdir. Bədənin ehtiyacları isə fiziki hərəkət, yemək-içmək, müalicə və istirahətdir.




İslam dini bədənin ehtiyaclarına əhəmiyyət verir və buna görə də rahibliyi (tərkidünyalığı) qəbul etmir. Hətta bəzən bədən ehtiyaclarını ibadət vəzifəsindən üstün tutaraq, bədənin yemək-içmək ehtiyacının ödənilməsini ön planda tutur. Bu barədə Hz. Peyğəmbər ﷺ belə buyurur: “Yemək gələn vaxt namaz üçün iqamə gətirilərsə, (vaxt varsa) əvvəl yeməyi yeyin sonra namaz qılın.”

(Buxari, Əzan,42)

Bu onu göstərir ki, insan ac olduğu halda namaz qılarkən fikri yeməkdə qalmasın.

Muhəmməd peyğəmbər ﷺ səhabələrinə gecə namazlarını bacardıqca məhdudlaşdırmalarını, yorğun olduqları zaman dincəlmələrini tövsiyə etmişdir.

“Ta. Ha. Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən...”

*(Ta Ha, 1-2)*

“Allah sizin üçün çətinlik istəmir, əksinə, sizin üçün asanlıq istəyir...”

*(əl-Bəqərə, 185)*

**Ekstremizmdən çəkinin....İslamda ifratçılıq yoxdur:** Dini və ya dünyəvi işlərdə normadan kənara çıxıb ifrata varmaq radikalizm adlanır. İslam dini radikal yanaşmaları həm fikir, həm də davranış baxımından qəbuledilməz hesab edir.

> "Beləliklə, siz insanlara şahid olasınız, peyğəmbər də, sizə şahid olsun deyə Biz sizi orta bir ümmət etdik..."
>
> *(əl-Bəqərə, 143)*

Hz. Hz.Muhəmməd ﷺ insanların yatmaq, yeyib-içmək, bir-biri ilə rəftar etmək kimi dində və dünya işlərində ifrat dərəcəsinə çatmağın qarşısını almaq üçün bəzi prinsiplər qoymuşdur.
Rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "(Bir dəfə) üç nəfər Peyğəmbərin ﷺ evinə gəlib onun əhli-əyalından Peyğəmbərin ﷺ ibadəti barəsində soruşdu. Bu haqda onlara xəbər verildikdə onlar (etdikləri ibadətin) az olduğunu güman edib belə dedilər: "Yəni biz Peyğəmbər ﷺ kimi ola bilərikmi? Üstəlik Allah onun bütün keçmiş və gələcək xətalarını bağışlamışdır." Onlardan birisi dedi: "Mən bütün gecələri ibadət edəcəyəm, yatmayacağam." O birisi dedi: "Mən il boyu oruc tutacağam, (gündüzlər) yemək yeməyəcəyəm." Üçüncüsü dedi: "Mən qadınlara yaxın durmayacağam, heç vaxt evlənməyəcəyəm."

Peyğəmbər ﷺ (bunu eşidəndən sonra) onların yanına gəlib dedi: "Filan, filan sözləri sizmi demisiniz?! Vallahi ki, aranızda Allahdan ən çox qorxanınız mənəm. Bununla belə mən bəzən oruc tutur, bəzən də tutmuram, gecənin bir vaxtını namaz qılır, digərində isə dincəlirəm və nəhayət, mən qadınlarla evlənirəm. Belə olduğu halda mənim yolumdan çıxan kimsələr məndən deyildirlər."

*(Buxari, 5063)*



**Hz. Muhəmməd ﷺ dində çətinliyi sevmirdi:** Hz. Muhəmməd ﷺ Allahın əmr etdiyi məsələlərdən başqa məşəqqətli və sərt olmağı sevməzdi. İki işdən birini seçmək qarşısında qaldıqda – günah iş olmadıqca – həmişə onlardan daha asanını seçərdi. Bununla da o, dinin təkcə əqidədən ibarət olmadığını, eyni zamanda canlı və cansız varlıqlara müsbət münasibət göstərən bir həyat tərzi olduğunu göstərirdi.

Abdullah ibn Məsudun رضي الله عنه rəvayət etdiyi bir hədisdə deyilir ki, Hz. Muhəmməd ﷺ üç dəfə "Dində həddi aşanlar (ifratçılıq edən və dinə sonradan yenilik/bidət gətirənlər) məhv olmuşdur..." deyərək ifratçılığı pisləmişdir.

**Təmizlik İmandandır:** İslam dini təmizliyə böyük əhəmiyyət vermiş və "Təmizlik imandandır" demişdir. Bu səbəbdən təmizlik İslam cəmiyyətinin başlıca xüsusiyyətlərindən qəbul edilir. İslam dini, mənəvi paklanmaq məqsədilə edilən ibadətlərdə, fiziki təmizliyin yəni bədənin və ibadət yerlərinin təmiz olmasını şərt qoymuşdur. Təmizlik imanın bir hissəsi olduğu üçün bədən və ruh təmizliyi olmadan iman kamil olmaz.



"Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da."
*(əl-Bəqərə, 222)*

"Geyimini təmiz saxla!"
*(əl-Muddəssir, 4)*

**İslamda qüsl və dəstəmaz:** İslam dini hər namazdan əvvəl dəstəmaz almağı tələb edir. Dəstəmaz belə alınır: Əllər biləklərə qədər yuyulur. Ağıza üç dəfə su alınır. Hər dəfə ağız yaxalanır. Buruna sağ əllə üç dəfə su alınır. Sol əllə isə burun təmizlənir. Sonra alındakı saç bitən yerdən çənə altına və qulaqlara qədər olmaqla üz üç dəfə yuyulur. Dirsəklər də daxil olmaqla əvvəl sağ qol, sonra sol qol üç dəfə yuyulur. Əllər isladılır və başa məsh edilir. Sol əlin köməyi ilə topuq sümükləri də daxil olmaqla əvvəlcə sağ, sonra isə sol ayaq yuyulur. Ayaqlar yuyularkən barmaq araları da islanmalıdır.



Dəstəmaza sağ tərəfdən başlamaq, yuyulan yerləri üç dəfə yumaq, əl və ayaq barmaqlarının aralarını ovuşdurmaq, qulaqların içinə məsh çəkmək, və misvakdan istifadə etmək dəstəmazın sünnələrindəndir.
Bütün bədəni təmiz su ilə yumağa qüsl deyilir. Qüsl 2 növdür: Fərz və məndub.

## Fərz qüsl

Cənabətdən (kişilərin bədənində sperması xaric olması), heyz və nifasdan sonra (heyz və doğuşdan gələn qan qurtardıqda), habelə cinsi əlaqədən sonra bütün bədəni təmiz su ilə yumaqdır. Həmçinin; Şəhidlər istəsna olmaqla, dəfn edilməzdən əvvəl ölülərin də qüsl olunması vacibdir.

## Məndub qüsl:

**Hər gün dəstəmaz**

Allah Rəsulunun ﷺ etdiyi kimi cümə və bayram namazlarına getməzdən əvvəl, həcc və ümrə üçün ehrama girməzdən əvvəl, ümumi bədən təmizliyini təmin etmək üçün qüsl alınır. Buxarinin rəvayət etdiyi hədisdə Hz. Muhəmməd ﷺ qüsl haqqında belə buyurmuşdur:

“Hər bir müsəlman həftədə bir dəfə qüsl etməli - başını və bədənini yumalıdır.”

Hz. Muhəmməd ﷺ səhabələri təmizliyə təşviq edirdi; Onlardan evlərinin içərisini və çölünü təmiz saxlamağı tövsiyə edirdi. O, həmçinin yola atılan və insanları narahat edən əşyaların (daş, tikan və s.) götürülməsinin sədəqə olduğunu bildirmişdir. Şəxsi təmizliyə böyük əhəmiyyət verən Hz. Muhəmməd ﷺ bu mövzuda bir sıra tövsiyələr vermişdir:

- Həddən artıq dəbdəbəli geyinərək israfçılıq etmədən, səliqəli və zərif geyinmək.
- Gözəl ətir sürtmək. Xüsusən də məscidə gedəndə və insanlarla qarşılaşanda.
- Dırnaqların kəsilməsi. Qoltuqaltı və bədənin övrət yerlərindəki artıq tükləri təmizləmək.
- Yeməkdən əvvəl və sonra əllərin yuyulması.
- Yuxudan oyandıqdan sonra əlləri yumadan yemək yeməmək.
- Hər gün dişləri fırçalamaq. Xüsusilə namazdan əvvəl.

Hədisi şərifdə belə buyurulmuşdur: “Təmizlik imanın yarısıdır. “Əlhəmdulillah” tərəzini doldurur. “Subhanallah vəlhəmdulillah” göylərlə yer arasını doldururlar. Namaz bir nurdur. Sədəqə bir dəlildir. Səbir bir işıqdır. Quran isə sənin ya lehinə, ya da əleyhinə bir hüccətdir. Hər bir insan səhər (evindən çıxıb iş dalınca gedər və) nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər.”

(Muslim, 223)



## Dişlərin qorunması

### Misvak dişləri təmizləyir və sağlam nəfəs almağı təmin edir:

Hz. Muhəmmədin ﷺ misvaka əhəmiyyət verməsi, yəni dişləri təmişləmək üçün onun misvakdan istifadə etməsi həm İslamın ədəbinə, həm də misvaın tibbi və sanitar faydalarının olduğuna dəlalət edib. Misvakın bu faydalarını isə müasir tibb elmi yalnız 14 əsr sonra kəşf edə bilmişdir. Hz. Muhəmməd ﷺ misvak haqqında belə buyurmuşdur:

> "Misvak ağzı təmizləyir və Allahın rizasını qazandırır." (Nəsai, Təharət, 4) "Ümmətimə çətin olacağından qorxmasaydım, hər namazdan əvvəl misvakdan istifadə etməyi əmr edərdim." (Buxari, Cümə, 8)



Bəziləri elə hesab edirlər ki, əvvəllər diş məcunu olmadığı üçün ibtidai dönəmdə insanlar dişlərini misvakla təmizləyirdilər. İndi isə diş məcunu icad edildiyi üçün misvak istifadə etməyə ehtiyac yoxdur.
Halbuki müasir elm sübut etmişdir ki, misvak, ağız üçün təbii antiseptikdir. Buna görə də o, dişlərin çürüməsinin qarşısını alan, diş minasını qoruyan, dişləri ağardan, diş ətinin qanamasının qarşısını alan və ağızda xoş qoxu buraxan təbii fırçadır.



Aparılan tədqiqatlar misvakın tərkibindəki 25 kimyəvi maddənin dişləri və diş ətlərini uzun müddət bakteriyadan qoruduğunu ortaya çıxartmışdır.
Misvak; Səudiyyə Ərəbistanı, Hindistan, Afrika və Cənubi Amerikada bitən arak (arak/salvadore persica) adlı ağacın nazik köklərindən əldə edilir. Misvakın xarici hissəsi qabıqlı, daxili hissəsi isə liflidir. Misvakın tərkibində natrium bikarbonat olan yağlı şirə var.

**Hz. Muhəmməd ﷺ insanları elm öyrənməyə təşviq etmişdir:**

Hz.Muhəmməd ﷺ, insanları cəhalət zülmətindən xilas edib nura çıxaracaq OXU əmri ilə başlayan, səmavi və əbədi bir çağırışla gəldi. Muhəmməd peyğəmbərin ﷺ gətirdiyi İslam dini çox qısa bir zamanda bütün dünyaya yayılaraq, bəşəriyyət tarixində ən böyük sivilizasiyanı doğurmuş və bu sivilizasiya əsrlər boyu elm və mədəniyyət mənbəyi olmuşdur. Allah Təala insanı başqa varlıqlardan fərqli yaratmışdır. Allahın insana bəxş etdiyi ağıl neməti, insanın ətrafda gördükləri haqqında düşünməsini və bu yolla elm və ürfan qazanmasını təmin edir. Buna görə də Quran, öyrənmənin əsası olan və insanları həqiqəti dərk etməyə sövq edən təfəkkür və mühakiməyə çox əhəmiyyət verir.




“Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər və *deyərlər:* “Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!”

*(Ali İmran, 190-191)*



> “Yəqinliklə inananlar üçün yer üzündə dəlillər var. Sizin özünüzdə də *dəlillər var*. Məgər görmürsünüz?! Sizin ruziniz və sizə vəd olunan şeylər göydədir. Göyün və yerin Rəbbinə and olsun ki, bu *vəd* sizin danışmağa qüdrətiniz olduğu kimi həqiqətdir.”
>
> *(əz-Zariyat, 20-23)*

Hz. Muhəmməd ﷺ insanları elm öyrənməyə təşviq etmiş və elmi gizlətməyi onlara qadağan etmişdir. O ﷺ, səhabələrini insanlara faydalı olan bütün elm növlərini öyrənməyə və öyrəndikləri bilikləri başqalarına öyrətməyə təşviq edərək belə buyurmuşdur:

> “Hər kim elm axtarmaq üçün yola çıxarsa Allah bunun sayəsində onun üçün Cənnətə gedən yolu asanlaşdırar.”
>
> (Muslim, 8/71, 2699; Bihar əl-Ənvar, 1/164)

Muhəmməd Peyğəmbərin ﷺ elm öyrənməyə təşviq etməsi səbəbindən Quranın dili olan ərəb dili, əsrlər boyu universitetlərdə tədris olunan tibb, fizika, kimya, riyaziyyat kimi elmlərin dili olmuş və yenə də bu təşviqlər, müsəlmanlar arasından saysız-hesabsız alimlərin meydana çıxmasına səbəb olmuşdur. Müsəlman alimləri tərəfindən edilən elmi kəşflər və ixtiralar bəşər sivilizasiyasına böyük töhfələr vermişdir. Müsəlman alimlərinin ixtiraları və kəşfləri olmasaydı, bugünkü inkişaf etmiş Qərb sivilizasiyası bir neçə əsr gecikərdi.

Müsəlman alimlərinin mədəniyyət və texnologiyanın inkişafına verdiyi töhfələr

| Alim | Müxtəsər Tərcümeyi-halı |
|---|---|
| **Cabir bin Həyyan Abdullah əl-Əzdi** (Kimyanın atası) **721-815** | **Cabir bin Həyyan:** O, müasir tətbiqi kimyanın banisidir. Laboratoriya tədqiqatları nəticəsində əldə etdiyi kükürd duzları, civə oksidi, sirkə turşusu, sidr, parça boyası kimi bir çox kimyəvi birləşmələr, həmçinin kəşf etdiyi tətbiq olunan kimya üsullarına (oksidləşmə, reduksiya, buxarlanma, təmizlənmə, distillə, kristallaşma...) görə "Kimyanın atası" adı ilə tanınır. |
| **Muhəmməd bin Musa əl-Xəvarizmi** (Loqarifmin atası) **780-850** | **əl-Xəvarizmi (əl-Xarəzmi):** Cəbr elmini kəşf edən və tənliklərdə "sıfır"dan ilk dəfə istifadə edən alim kimi tanınır. Onun icad etdiyi "riyazi tənliklərin həndəsi fiqurların çəkilməsi ilə izah edilməsi" üsulu "Alqoritm" adlanır. əl-Xarəzminin kitabları riyaziyyatın inkişafına mühüm töhfələr verib. Ən məşhuru 1135-ci ildə Avropa dillərinə tərcümə edilmiş "əl-Kitâb'ul Müxtəsər fi Hisâb'il Cəbri və'l Muqabələ" adlı əsərdir. Onun təkcə riyaziyyatda deyil, astronomiya və coğrafiyada da mühüm araşdırmaları olub və Abbasi xəlifəsi Məmunun istəyi ilə 70 alimlə dünya xəritəsini çəkib. |
| **Əbu Bəkr Muhəmməd bin Zəkəriyya ər-Razi** (Tibbin atası) **865-929** | **ər-Razi:** "Tibbin atası" kimi tanınan məşhur müsəlman alimidir. O Təkcə tibb deyil, kimya, riyaziyyat, fəlsəfə, astronomiya, ədəbiyyat, din və musiqi ilə də maraqlanırdı. Bununla belə o, daha çox həkim kimi tanınırdı. Razi tibb sahəsində kimyadan istifadə edən, şəkərli mayelərdən spirt icad edib narkoz tətbiq edən, çiçək, suçiçəyi və qızılca xəstəliyinin fərqini tapan və bu xəstəlikləri ayrıca təsvir edən ilk həkimdir. Həmçinin o, ilk dəfə fermentləşdirilmiş şəkər məhlullarından spirt və dəmir sulfat distillə edərək sulfat turşusu hazırladı. Razinin xəstəliklərin diaqnostikası və müalicəsi ilə bağlı yazdığı "əl-Havi" kitabı 400 il Qərbdə mənbə kitabı kimi istifadə edilmişdir. |

| | |
|---|---|
| **Hüseyn bin Abdullah bin Sina** (Müasir tibbin atası) **980-1037** | **İbn Sina:** O, fəlsəfə, tibb, məntiq, təbiətşünaslıq və sərf və nəhvlə məşğul olub. İbn Sinanı "Müasir tibbin atası" kimi qələmə verən qərblilər onu "Avicenna" adı ilə tanıyırlar.<br>İbn Sinanın yazdığı əsərlərdən günümüzə 200 kitab gəlib çatmışdır. Bunlardan "Kitâbuş'ş Şəfa" və "əl-Qanun fi't-Tibb" qərb dillərinə tərcümə edilərək 19-cu əsrin sonlarına qədər universitetlərdə mənbə dərsliyi kimi istifadə edilmişdir. |
| **Əbul İz bin İsmail ər-Rəzzaz bin əl-Cəzəri** (Kimyanın atası) **1136-1206** | **Əbul İz əl-Cəzəri:** O, tarixin ən məşhur mühəndis və kimyaçılarından sayılır və robototexnikanın atası kimi tanınır. 1181-ci ildə Diyarbəkir Sultanı Qara Arslan tərəfindən Cizrədən Diyarbəkirə dəvət edilən Cəzəri, 25 il elmi araşdırmalar aparmış və bir çox alətlər icad etmişdir. İxtira etdiyi alətlər arasında su liftləri, avtomatik su saatları, robotlar, hicama və dəstəmaz almaq üçün istifadə edilən müxtəlif qablar var. Cəzəri icad etdiyi alətlər haqqında "Kitabul Camii Beynə'l İlmi vəl-Aməl ən-Nafi fi Sinaat-il Hiyəl" (Fövqəladə Mexanik Alətlər haqqında Kitab) adlı təsvirli bir kitab yazmışdır. |


İbn Sina

Rum rəqəmləri

I, II, III, IV, V, VI, VII, VIII, IX, X

Ərəb rəqəmləri

1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10

## Sağlam ağıl sağlam bədəndə olar

Hz. Muhəmməd ﷺ zəiflikdən, tənbəllikdən, qəm və sıxıntıdan Allaha sığınırdı. Hz. Peyğəmbər ﷺ səhabələrinə üzgüçülük, qaçış, at sürmə və atıcılıq kimi idman növləri ilə məşğul olmalarını və bu idman növlərini uşaqlarına öyrətmələrini tövsiyə etmişdir.



Hz. Muhəmməd ﷺ özü də ailəsi ilə idman edirdi. Hədislərdə həyat yoldaşı Hz. Aişə ilə yarışdığı, bir dəfə yarışda uduzduğu, digərində isə qalib gəldiyi nəqledilir. Hz. Muhəmməd ﷺ idmanı ciddi mənada təşviq etmiş hətta bunun üçün Məscid-i Nəbəvinin qərb tərəfində bir yarış meydanı tikdirmişdir. Hazırda bu meydanın yanında tikilən məscid ərəbcə sibaq (yarış) sözündən əmələ gələn "Məscid-i Səbq" adlanır.

Hz. Muhəmməd ﷺ belə demişdir:

> "Güclü mömin zəif mömindən Allah üçün daha xeyirli və daha sevimlidir. (Bununla belə) Onların hər ikisində xeyir var. Elə isə sənə faydası olan işləri görməyə çalış. Allahdan kömək dilə və acizlik göstərmə."
>
> *(Müslim, Qədər,34)*



Qrup oyunları insanlar arasında müsbət rəqabət ruhunu inkişaf etdirir, ağıl və bədənə sağlamlıq və rahatlıq verir. İslam dini əxlaq qaydalarına riayət etməklə idmanın, insan bədənini düzgün örtən libasda edilməsini əmr edir. İslama görə, hansı iş olursa olsun, o cümlədən idman heç vaxt namaza mane olmamalıdır ki, bu da Allahın bəndələri üzərindəki haqqıdır. İdman oyunlarına heç bir mərc qoyulmamalı və idman oyunları insan və heyvan həyatı üçün təhlükə yaratmamalıdır.

# İkinci: İctimai və əxlaqi dəyərlər

**Hz. Muhəmməd ﷺ insanlara, öz aralarında sevgi və məhəbbəti yaymağa təşviq etmiş və belə demişdir:**



“Sizdən biriniz özü üçün sevdiyini mömin qardaşı üçün sevmədikcə, həqiqi mömin ola bilməz”.

“Canım əlində olan Allaha and olsun ki, iman etmədikcə Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə də iman gətirə bilməzsiniz. Sizi elə bir şeyə yönəldimmi ki onu etdikdə bir-birinizi sevəsiniz? Aranızda salamı yayın!”

*(Muslim, İman, 93; Ravdatul-Vaizin, 1/491; Miskat əl-Ənvar,157; Mustədrak əl-Vəsail, 8/362)*

“Hər kim bir möminin dünya sıxıntılarından birini aradan qaldırarsa, Allah da qiyamət günü onun bir sıxıntısını aradan qaldırar”.

“Bəndə öz mömin qardaşının köməyində olduğu müddətcə Allah da onun köməyində olar.”

*(Buxari, Məzalim, 3)*

“Mömin qardaşının üzünə təbəssüm etmək sədəqədir.”

*(Tirmizi, Birr, 36)*



**İnsanlara qarşı daim parlaq gülər üzlü olmaq.**

**Salam Sülh Mesajıdır:** Hz. Muhəmməddən ﷺ, “İslamın hansı əməli daha yaxşıdır?” deyə soruşduqda o belə cavab verdi: “(Yoxsula) yemək yedirmək, tanıdığın və tanımadığın hər kəsə salam verməkdir”.

*(Buxari, İman, 18)*

Digər rəvayətdə isə belə buyurmuşdur: "Heç bir yaxşılığı kiçik görmə. Hətta, qardaşını gülər üzlə qarşılamaq olsa belə."

*(Muslim, 6857; Musnəd Əhməd 21519; Mustədrak əl-Vəsail, 12/344)*

“Ey insanlar, salamı yayın, yemək yedizdirin, qohum-əqrəba ilə əlaqə qurun, gecələr insanlar yatarkən siz namaz qılın və cənnətə salamat daxil olun.”

*(Tirmizi, Qiyamət, 42)*



**Hz. Muhəmməd ﷺ ilk salam verməyə əhəmiyyət verirdi:** Hz. Muhəmməd ﷺ qarşısına çıxan şəxsə dərhal salam verərdi. Əgər bir şəxslə əl ilə görüşsəydi, qarşısındakı əlini çəkməyincə əlini çəkməzdi. Hz. Muhəmməd ﷺ insanları gülər üzlə qarşıladığı üçün onun mübarək üzünə baxanlar rahatlıq hiss edərdilər.

**Hz. Muhəmməd ﷺ dostları ilə zarafat edir, həyat yoldaşları və uşaqları ilə oynayırdı:** Sevimli şəxsiyyətə malik olan Həzrət Muhəmməd ﷺ güləndə yüksək səslə gülməz, daha çox təbəssüm edərdi. Şərəfli və ləyaqətli, insanlar arasında hörmət və ehtiram sahibi idi. Dostları, övladları və nəvələri ilə zarafat edərdi. Lakin zarafat edəndə həmişə düz danışar, yalana əl atmazdı. Zövcələrini və uşaqlarını sevindirməyə çalışar, onlarla qaçış yarışı edərdi.



**Hz. Muhəmmədin ﷺ yaşlı qadınla zarafatı:** Bir yaşlı qadın Hz. Muhəmmədin ﷺ yanına gəlir və ondan dua etməsini istəyir ki, cənnətə girə bilsin. Hz. Peyğəmbər ﷺ buyurur: “Cənnətə yaşlı qadınlar girməyəcək”. Bu cavabdan sonra qadın çox kədərlənir və ağlayaraq, “Niyə, onlara nə olub ki?” - deyə soruşur. Hz. Muhəmməd ﷺ qadınların cənnətdə cavanlaşacaqlarına işarə edərək, “Biz *Cənnətdəki* qadınları yeni biçimdə yaradacağıq. Onları bakirə qızlar edə-cəyik.” (əl-Vaqiə, 35-36) ayələrini oxudu və “Məgər siz bu ayələri oxumadınızmı” dedi.



Yenə Hz. Muhəmməd ﷺ ərini axtaran bir qadına: “Gözündə ağ olan kişi?” deyə soruşur. Qadın cavab verir: “Mənim ərimin gözünə bir şey olub?” Hz. Muhəmməd ﷺ təbəssüm edərək “gözündə ağ olmayan insan varmı?" deyir. (Təbəraninin “Mucəm əl-Əvsat” əsəri, 5/357, 5545)

**Hz. Muhəmməd ﷺ səhabələrlə zarafatlaşırdı:** Hz. Muhəmməd ﷺ gözü iltihablı halda xurma yeyən Suheyb ər-Rumi ilə zarafat edərək deyir: “Həm gözün ağrıyır həm də xurma yeyirsən?” Suheyb ər-Rumi belə cavab verir: “Ya Rəsulallah! Mən sağlam gözümün haqqını yeyirəm.” Hz. Muhəmməd ﷺ onun bu cavabına təbəssüm edir. (Hakim “Mustədraq” 4/411,8357; İbn Macə, 4/500, 3443; Musnəd Əhməd, 7/3636, 16859)

Hz. Ənəsin (r.a) rəvayət etdiyi başqa bir hədisdə isə, bir kişi (başqa rəvayətdə qadın) Hz. Muhəmmədin ﷺ yanına gəlir və bir minik heyvanı istəyir. Hz. Muhəmməd ﷺ: “Səni dəvə balasına mindirəcəyəm” deyə cavab verir. Adam, “Ya Rəsulallah, mən sizdən bir minik istəyirəm, dəvə balasını nə edim?” dedi. Onun təəccübləndiyini görən Hz. Peyğmbər ﷺ: “Bütün dəvələr başqa bir dəvənin balası deyilmi?” deyərək zarafat etdiyini bildirir. (Əbu Davud, Ədəb, 84,92)



**Hz. Muhəmməd ﷺ uşaqları çox sevir və onlara qayğı göstərirdi:** Hz. Muhəmməd ﷺ uşaqlara xüsusi diqqət yetirirdi. Onlarla salamlaşıb söhbət edər, bir yerdə oyunlar oynayardı. Rəvayət edilir ki, Hz. Ənəs bin Malikin ləqəbi Əbu Umeyr olan Zeyd adlı kiçik bir qardaşı var idi. Hz. Muhəmməd ﷺ Əbu Umeyrlə oynamağı və zarafat etməyi çox sevirdi. Əbu Umeyrin “Nuğeyr” adlı sərçəyə bənzər kiçik bir quşu var idi. Bir gün Nuğeyr ölür və Əbu Umeyr buna çox üzülür. Hz. Muhəmməd ﷺ onun qəmgin kiçik qəlbinə sevinc və fərəh gətirmək üçün: "Ey Əbu Umeyr! Nuğeyrə nə oldu?" deyir və ona təsəlli verir. (Buxari, 6129, 6203; Muslim, 2150)



Hz. Muhəmməd ﷺ valideynlərdən övladlarına qarşı ədalətli olmalarını və onlara qarşı mərhəmətli olmalarını istəmişdir. Özü də buna ən gözəl şəkildə nümunə idi.

Bir gün Əqra ibn Habis Hz. Muhəmmədin ﷺ yanına gəlir və onun, qızı Hz. Fatimədən olan nəvəsi Hz. Hüseynin başını sığalladığını və öpdüyünü görür. Bunu görən Əqra "Mənim on övladım var, amma onlardan heç birini belə öpməmişəm" deyir. Bunun üzərinə Hz. Muhəmməd ﷺ “Mərhəmət göstərməyənə rəhm olunmaz” buyurur. (Buxari, Ədəb, 18)

Hz. Muhəmməd ﷺ demişdir: "Rəhm edənlərə ər-Rəhman da rəhm edər. Elə isə yer üzündə olanlara rəhm edin ki, göydəki də sizə rəhm etsin." (Tirmizi, Birr,16; Əvali əl-Ləali, 1/361; Mustədrak əl-Vəsail, 9/56)
Yenə Ənəs bin Malikdən رضي الله عنه rəvayət edilən bir hədisə görə Peyğəmbərimiz ﷺ, ona xidmət edən bir yəhudi oğlan uşağının xəstələndiyini gördüyü zaman onu ziyarət etmiş və başı üstündə oturaraq onun üçün dua etmişdir. (Buxari, 1356)

**Hz. Muhəmməd ﷺ qonşuluq münasibətlərinə əhəmiyyət verirdi:** Hz. Muhəmməd ﷺ: "Allaha and olsun ki, o, həqiqi iman gətirmiş sayılmaz. Allaha and olsun ki, o, həqiqi iman gətirmiş sayılmaz. Allaha and olsun ki, o, həqiqi iman gətirmiş sayılmaz." deyə and içdi. Yanındakılar, "Kim ya Rəsulallah?" deyə soruşduqda Hz. Peyğəmbər ﷺ, "Qonşusu, şərrindən əmin olmayan adam" deyə cavab verdi." (Buxari, 6016; Muslim, 46; əl-Kafi, 2/666; Bihar əl-Ənvar, 21/152; Vəsail əş-Şiyə, 12/125)

Həmçinin Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və axirət gününə inanırsa, qonşusunu incitməsin."
Başqa bir rəvayətdə də Peyğəmbər ﷺ belə demişdir: "Cəbrayıl mənə qonşu haqqında o qədər tövsiyə etdi ki, qonşuya da mirasdan pay düşəcəyini güman etdim." (Buxari, 6015; Muslim, 2625; Tusinin "əl-Əmali" əsəri, 2/97; əl-Kafi, 2/667; Bihar əl-Ənvar, 43/62; Vəsail əş-Şiyə, 12/126)

Qonşunla yaxşı davran

Bir dəfə Peyğəmbər ﷺ Əbu Zərə belə deyir: "Ey Əbu Zərr! Şorba hazırlayanda suyunu bir az çox elə və ondan (ehtiyacı olan) qonşularına da ver." (Muslim, 8/37, 2625)

**Hz. Muhəmməd ﷺ insanlara istehza etməyi qadağan etmişdir:** Uca Allah "əl-Hucurat" surəsinin 11-ci ayəsində insanlara ləqəb qoymağı, bir-birini ələ salmağı qadağan etmişdir. Hz. Muhəmməd ﷺ müsəlmanlara, dil və əl hərəkətləri ilə bir-birlərini incitməmələrini əmr etmiş və belə buyurmuşdur:
**"Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin".**

> “Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar*. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.”
>
> *(əl-Hucurat, 11)*

## Sui-zənn, şübhə, eyb axtarmaq və qeybət olmaz!

> “Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi?! Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir.”
>
> *(əl-Hucurat, 12)*

Peyğəmbər ﷺ demişdir: “Zənnə qapılmaqdan çəkinin! Çünki zənn ən yalan söhbətdir. Bir-birinizin eybini axtarmayın, casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!” (Buxari, 6066; Muslim, 6071; Bihər əl-Ənvar, 72/252)

## Yalan xəbər yaymayın!

> *“Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, onu araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz.”*
>
> *(əl-Hucurat, 6)*

## İslamda ədəb və nəzakət

Hz. Muhəmməd ﷺ cəmiyyətdə insanlarla rəftarda ədəb qaydalarına böyük əhəmiyyət verirdi. Nəzakət qaydalarına riayət etmələrini səhabələrinə öyrədən Rəsulullah ﷺ, ədəb qaydalarının "Sünnə"nin bir parçası olduğunu vurğulamışdır.

Quranda alçaq səslə danışmaq, bir yerə daxil olarkən icazə almaq, yeriyərkən təvazökarlıqla yerimək kimi ədəb və gözəl əxlaq qaydaları vurğulanır. İslam dini bir çox nəzakət qaydalarını öyrətmişdir. Onlardan bir neçəsini qeyd edək:




- Əsnədiyiniz zaman ağzınızı əlinizlə bağlayın. Biri asqırdıqda ona "Yərhəmukəllah" duasını edin.
- Danışarkən səsinizi qaldırmayın. Söyüş söyməyin və pis sözlər deməyin. Təkəbbürlə yeriməyin.
- Din qardaşlarınızdan biri xəstələnəndə onu ziyarət edin. Ancaq xəstənin istirahət etməsi üçün ziyarətin qısa olmasına diqqət yetirin.
- Soğan, sarımsaq kimi pis ətirli şeylər yediyiniz zaman məscidə getməyin ki, camaat narahat olmasın. Bilin ki, camaatı narahat edən şeylər mələkləri də narahat edir. Məscidə getdiyiniz zaman xoş qoxu çəkin və təmiz paltar geyinin. Namaz qılanların qarşısından keçməyin. Əgər məscid camaatla doludursa, onlardan sizə yer ayırmalarını istəyin.

- Başqaları ilə yumşaq dildə danışın. Bilın ki, gözəl söz sədəqədir. İnsanları çağırdığınız zaman xoşlandıqları şəkildə çağırın. Mömin qardaşınızla qarşılaşdığınız zaman çalışın birinci siz salam verin.
- Əgər üç nəfər bir yerdə olsanız iki nəfər pıçıltı ilə gizli danışmasın ki, üçüncü şəxs tək qalmasın. Məxfilik tamamilə zəruridirsə, dördüncü tərəfin və ya daha böyük qrupun sizə qoşulmasını gözləyin. Bu halda dostunuzu kənara çəkib danışa bilərsiniz.
- Valideynlərlə mehriban olun. Onlara qarşı səsinizi qaldırmayın. Hətta ən kiçik söz sayılan "Of!" kəlməsini belə demə.
- Uşaqlar ata-ana otağına daxil olarkən bu üç vaxtda icazə istəməlidirlər. Sübh namazından əvvəl, günorta paltarlarınızı çıxartdığınız zaman və İşa namazından sonra. (ən-Nur surəsi, 57)
- İnsanlara su təklif edərkən diqqətli ol, hərkəs su içtikdən sonra ən son sən iç. Su içərkən üç dəfəyə və qaba üfürmədən iç.
- Yeməyə dəvət edildikdə dəvəti qəbul edin. Yemək yeyərkən “Bismilləh” deyin və qabağınızdan yeyin ki başqaları narahat olmasın.

### Qadınlarla davranış etikası

Qadınların təbiətcə kövrək şüşə kimi olduğuna işarə edən Hz. Muhəmməd ﷺ qadınlarla rəftarda çox nəzakətli və mülayim olmağı tövsiyə etmişdir. Buxarinin Ənəs bin Malikdən rəvayət etdiyi hədisə görə Hz. Muhəmməd ﷺ, həyat yoldaşı Hz. Səfiyyə dəvəyə minsin deyə diz çökmüş və Hz. Səfiyyə də Hz. Peyğəmbərin ﷺ mübarək dizinə çıxaraq dəvəyə minmişdir.

**Hz.Muhəmməd ﷺ cəmiyyətlə münasibətdə hörmət və mədəniyyəti əsas götürmüşdür:**

Hz. Muhəmməd ﷺ peyğəmbərlikdən sonra 23 il səhabələri ilə birlikdə yaşadı. Bu müddət ərzində o, insani dəyərləri və gözəl əxlaqı ucaltmış və möhkəmləndirmişdir. Həmçinin Hz. Peyğəmbər ﷺ, cəmiyyət arasında (müsəlman və qeyri-müsəlman) tətbiq etdiyi mədəni qaydalarla da insanların sevgisini qazanmışdır.

Ənəs bin Malik Hz. Muhəmmədin ﷺ xoşrəftar olması haqqında belə deyir: "Uşaqlığımda Hz. Peyğəmbərə ﷺ 10 il xidmət etdim. Bir dəfə belə canı sıxılıb: “Uf, nə üçün belə etdin? Niyə bunu etmədin?” - deyə məni danlamadı". Rəsulullah ﷺ əxlaq baxımından insanların ən gözəli idi. (Əbu Davud, Ədəb,1)

**Siz insanlarla münasibətdə mülayimsinizmi?**

**İctimai münasibətlərdə doğru və müdrik olmaq:**

Hz. Muhəmməd ﷺ uzaqgörən, realist və müdrik rəhbər idi. Buna görə də insanlar ona hörmət edir və hökmlərini həvəslə qəbul edirdilər. Bununla əlaqədar iki nümunə:

Hz. Muhəmməd ﷺ Bəni Qureyzəyə yürüş edərkən səhabələrə: “Qoy hər kəs əsr namazını ancaq Bəni Qureyza qəbiləsində qılsın!” dedi. Səhabələrdən bəziləri əsr namazını, məğribdən əvvəl daxil olduqları Bəni Qureyzədə qıldılar. Bəziləri isə vaxtın keçəcəyindən qorxaraq namazlarını yolda qıldılar. Məsələ Rəsulullaha ﷺ təqdim edildikdə, o, səhabələr arasında tərəf tutmadan hər iki ictihadı qəbul etdi. (Buxari, 946, 4119; Muslim, 1770)

Zatu's-Səlasil döyüşündə İslam ordusunun komandanı olan Amr bin əl-As رضي الله عنه ehtilam olmuşdu. Həmin vaxt hava çox soyuq idi. Odur ki o, xəstələnmək qorxusundan su ilə qüsl almamış, təyəmmüm etmiş və ordunun sərkərdəsi olduğu üçün səhabələrə imamlıq təklif etmədən camaata imamlıq edərək sübh namazını qıldırmışdır. Səhabələr Mədinəyə çatdıqda hadisəni Rəsulullaha ﷺ xəbər verdilər. Hz. Muhəmməd ﷺ Amr bin əl-Asdan niyə yuyunmadığını soruşdu. Amr bin əl-As məsələni izah etdikdən sonra ictihadına dəlil olaraq

“özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir.” (ən-Nisa , 29) ayəsini oxudu. Hz. Muhəmməd ﷺ Amr bin əl-Asın ictihadını təbəssümlə qəbul etdi. (Əbu davud, 1/132, 34; Musnəd Əhməd,7/4007, 18091; Mustədrak Hakim 1/177, 634)

**Hz. Muhəmməd ﷺ insanları, bir-biriləri ilə məşvərət etməyə təşviq edir, özü də bunu öz səhabələri arasında tətbiq edir:**
Hz. Muhəmməd ﷺ ilahi vəhy göndərilmiş bir peyğəmbər olsa da, bir çox dünyəvi məsələlərdə səhabələri və zövcələri ilə məsləhətləşmişdir. Səhabələrinə doğru yoldan ayrımamağı əmr edən Hz. Muhəmməd ﷺ, düzgün qərar verə bilmələri üçün fikirlərə təəssübkeşlik etməməyi tövsiyə etmiş və verdiyi tövsiyələri şəxsən öz səhabələrinə tətbiq etmişdir.

**İki nümunə:**
Müsəlmanlar, Məkkəli müşriklərin və bəzi ərəb qəbilələrinin birlikdə Mədinəyə hücum etməyə hazırlaşdıqlarını öyrəndilər. Onlar hücumu necə dəf etmək barədə öz aralarında danışıqlar apararkən, Salman əl-Farisi Mədinənin ətrafında xəndək qazmaq fikrini irəli sürdü. Bu fikir Hz. Muhəmməd ﷺ, eləcə də səhabələr üçün çox qəribə idi. Çünki Ərəbistan yarımadasında xəndək qazmaq praktiki olaraq yox idi. Buna baxmayaraq, Hz. Muhəmməd ﷺ Salman əl-Farisinin fikrini qəbul etdi. Hz. Peyğəmbər ﷺ səhabələrlə məsləhətləşdikdə onlar da razılaşdılar və Mədinənin şimal tərəfində eni 4,7 metr, uzunluğu 5,5 kilometr olan xəndək qazdılar və təhlükədən özlərini qoruya bildilər.



Bədir döyüşündə Hz. Muhəmmədin ﷺ komandanlığı altında İslam ordusu bir yerdə yerləşirdi. Ordudan bir əsgər Hz. Muhəmmədin ﷺ yanına gəlib düşərgəni Allahın əmri ilə seçdiyini, yoxsa öz ictihadı iləmi seçdiyini soruşdu. Əsgərin sualı üzərinə Hz. Muhəmməd ﷺ öz ictihadının olduğunu təvazökarlıqla bəyan etdi. Bunun üzərinə əsgər, ordunun yerləşdiyi yerin hərbi baxımdan əlverişli olmadığını söylədi. Sadə bir əsgərin irəli sürdüyü bu fikir ətrafında yoldaşları ilə məsləhətləşən Hz.Muhəmməd ﷺ, onlardan müsbət cavab aldıqda düşərgəni daha münasib bir yerə köçürdü.

**Başqa dinlərin nümayəndələrinə hörmət etmək:** Hz. Muhəmməd ﷺ, səhabələrinə başqa dinlərin mənsublarına qarşı hörmətli və dözümlü olmağı, onlarla İslam əqidəsinin buyurduğu kimi İslamın ali əxlaq qaydalarına uyğun davranmağı tövsiyə etmişdir.

Bir dəfə Hz. Muhəmməd ﷺ Mədinədə olarkən bir cənazə görür və ayağa qalxır. Oradakı səhabələr cənazənin bir yəhudiyə aid olduğunu dedikdə Hz. Muhəmməd ﷺ onlara, "Bu da insan deyilmi?" deyir. Yəni irqindən, dinindən və sosial vəziyyətindən asılı olmayaraq həmin cənazə də bir insandır.

(Buxari, 2/85, 1312; Muslim, 3/58, 961)

**Qeyri-müsəlmanlarla sülh içində yaşamaq:** Əsri-səadət dövründə müsəlmanlar Mədinə yəhudiləri ilə sülh və əmin-amanlıq içində yaşayırdılar. Onlar öz aralarında ticarət sövdələşmələri və müqavilələr bağlayırdılar. Hz. Muhəmməd ﷺ özü də yəhudilərlə ticarət edirdi. Hətta, vəfat edəndə müharibələrdə geyindiyi zireh borcuna müqabil bir yəhudinin yanında girov qalmışdı.

İslam tarixi, müsəlmanların uzun illər xristianlar və başqa dinlərin nümayəndələri ilə sülh şəraitində yaşaması nümunələri ilə doludur. Çünki İslam dini, insanların ədalətlə mühakimə olunmasını, onların etnik və regional kimliklərinin, canlarının, mallarının və inanc azadlığının qorunmasını təlim və təmin edir. İslam dini İndoneziya kimi Uzaq Şərq ölkələrinə müsəlman tacirlərin vasitəsilə çatmışdır. On üçüncü əsrdə Sumatra adasına gedən müsəlman tacirlər, dürüstlükləri və düzgünlüyə əsaslanan ticarət etikası sayəsində Buddizm və Hinduizm kimi müxtəlif din və irqlərdən olan adalıların qəlblərini fəth eləmişdilər. Hazırda İndoneziyada 200 milyondan çox müsəlman yaşayır.

**Xristian nümayəndə heyəti ilə söhbət**

**Hz. Muhəmməd ﷺ məsciddə xristian nümayəndə heyətini qəbul edir:** Hicrətin 10-cu ilində Yəmənin Nəcran bölgəsindən olan xristianlardan ibarət bir heyət Hz. Muhəmmədi ﷺ ziyarət etməyə gəlirlər. Hz. Muhəmməd ﷺ onları Məscid-i Nəbəvidə gülər üzlə qarşılayır. Verdikləri suallara cavab verir, eyni zamanda İslam dinini xoş dillə onlara izah edir. Hətta onlara Məscidi Nəbəvidə ibadət etməyə icazə verir.

> "*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır."
>
> *(ən-Nahl, 125)*

> "İçərilərindən zülm edənlər istisna olmaqla Kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də ilahımız, sizin də ilahınız təkdir. Biz yalnız Ona təslim olanlarıq."
>
> *(əl-Ənkəbut, 46)*





Dini güzəştlər!

## Qüdsdə Hz. Ömər Məscidi və Qiyam Kilsəsi:

Tarix boyu müsəlmanlar müxtəlif dinlərin nümayəndələri ilə sülh və əmin-amanlıq içində yaşayıblar. Bunun ən yaxşı nümunəsi Qüds şəhəridir. 12 əsr müsəlmanların hakimiyyəti altında olan Qüds, 1948-ci ildə sionistlər tərəfindən işğal olunana qədər sülh və əmin-amanlığın simvolu olub. 638-ci ildə Qüdsü bir damla qan tökmədən fəth edən Hz. Ömər, Qüds Patriarxı Sofroniy (Sophronius) tərəfindən xristianların müqəddəs kilsəsi olan "Qiyam kilsəsi"nə dəvət olunur. Namaz vaxtı girdiyi zaman Patriarx Sofroniy (Sophronius) Hz. Ömərə kilsədə namaz qılmağı təklif edir. O, patriarxa **"Kilsənizdə namaz qılsam, məndən sonra gələnlər buraya haqq iddia edərək, onu əlinizdən ala bilərlər"** – deyərək namazını, kilsədə deyil, 10 metr cənubundakı boş bir sahədə (kilsənin həyətində) qılmışdı. Müsəlmanlar daha sonra bu yerdə məscid tikərək, adını "Ömər məscidi" qoydular.







Qiyam Kilsəsi, Xristianlığın ən əhəmiyyətli və müqəddəs yerlərindən biri hesab olunur. Xristian inancına görə Qiyam kilsəsi, İsa peyğəmbərin عليه السلام çarmıxa çəkildiyi, yuyulduğu və kəfənləndiyi yerdir. İnanclarına görə o, buradakı bir mağarada basdırılmış, üç gün sonra dirilmiş, həvariləri ilə zeytun dağında görüşmüş və bundan sonra səmaya yüksəlmişdir (İslama görə isə: Yəhudilər Hz. İsanı tapa bilməmiş və ona çox bənzəyən -İsaya xəyanət edən- birisini, İsa deyə çarmıxa çəkmişlər). Hz. İsanın عليه السلام doğulduğu hesab edilən "Mövlud Kilsəsi" Fələstinin "Beytulləhm" şəhərində yerləşir və dünyanın ən qədim və müqəddəs kilsələrindən biri kimi qəbul edilir.

Ömər bin Xəttab Məscidi






Ömər Məscidinin Girişi

Fəthdən sonra xəlifə Hz. Ömər رضي الله عنه Mədinənin Xəzrəc qəbiləsindən olan məşhur səhabə Ubadə bin Samiti رضي الله عنه şəhərə qazi təyin etdi və ona xristianların müqəddəs yerlərini qorumağı tapşırdı. Ubadə bin Samit رضي الله عنه Qüdsdə vəfat edəndə Məscidüləqsanın cənub tərəfində yerləşən "Baburəhmət/ Rəhmət Qapısı" qəbiristanlığında dəfn olunub.

**Hz. Ömər vəsiqəsi İnanc azadlığı və dini güzəştlərin ən gözəl nümunəsidir.**



Hz. Ömər رضي الله عنه Qüds xalqına inanc azadlığı, can və mal təhlükəsizliyini təmin edən bir sənəd (əqdnamə) verdi. Müsəlmanlarla yanaşı xristianların da fəxr etdiyi “Ömər vəsiqəsi” sonradan ağ mərmər lövhəyə yazılaraq məscidin girişində asılmışdır. Bu lövhə bu günə qədər turistlərin böyük marağına səbəb olmuşdur.

Həmin əqdnamədə *(yuxarıdakı fotoda)* bunlar yazılmışdır: **“Bu, Allahın qulu və möminlərin əmiri Ömər tərəfindən İlya (Qüdsün Ömərə qədərki keçmiş adıdır – red.) xalqına verilən təhlükəsizlik aktıdır. Möminlərin Əmiri bütün xalqın mal və canlarının qorunacağına zəmanət verir. Eyni zamanda ibadət yerlərinə, xaçlarına və dinlərinə toxunulmayacağına dair təminat verir. Xalqın kilsələri dağıdılmayacaq və yerlərinə başqa heç bir şey tikilməyəcək. Öncədən sahib olduqları haqlar, eynilə mühafizə ediləcək. Sahib olduqları heç bir şeyə xələl gəlməyəcək və dini inancları barəsində onlara heç bir təzyiq edilməyəcək. Heç kim, heç bir şəkildə zərər görməyəcək… Allah, Peyğəmbəri, səhabələri və möminlər bu anlaşmaya şahidlik edirlər. Ömər b. əl-Xəttab.”**

Vəsiqənin əvvəlində ərəbcə yazılan “Bismiləhir-Rəhmanir-Rəhim” sözü İraqlı Xəttat Visam Şövkətin əl işidir

# Üçüncü: Ticarət əxlaqı

**Hz. Muhəmməd ﷺ halal qazanca və ticarətdə müsbət rəqabətə təşviq etmişdir.**

İnsanları ticarətə təşviq edən Hz. Muhəmməd ﷺ, halal qazancın müsbət rəqabət yolu ilə, İslam əxlaqı qaydaları çərçivəsində, saxtakarlıq, yalan, aldatma, hilə və inhisarçılıq olmadan əldə edilməsini istəyirdi. Aləmlərə rəhmət olaraq göndərilən Hz. Muhəmməd ﷺ, insanları ticarətdə xoşrəftar olmağa dəvət etmiş və belə buyurmuşdur:

> “Satanda, alanda və ya haqqını tələb edəndə güzəşdə gedən kimsəyə Allah mərhəmət etsin.” (Buxari, 2076)

**Doğru danışan ol və insanları aldatma:**

Bir gün Hz. Peyğəmbərimiz ﷺ bazarda gəzərkən ərzaq satan bir nəfərin yanına gedib əlini ərzaqın içinə soxmuş və alt tərəfinin islaq olduğunu gördükdə ona: ***“Bu nədir?”*** – deyə soruşmuşdu. Satıcı: **“Yağış yağmışdı, ona görə islandı”**, – deyə cavab verdi. Bunun müqabilində Hz. Peyğəmbər ﷺ: ***“Nə üçün islaq tərəfini insanlar görsün deyə üstə çıxarmadın?”*** – deyərək sərt bir üslubda onu tənbeh etdikdən sonra belə buyurdu: ***“Bizi aldadan bizdən deyil”***. (Muslim, İman, 164). Bundan başqa, digər bir hədisdə qüsurlu bir malın eyibli tərəfini bildirmədən satışının halal olmadığını vurğulamışdır. (Muslim, İman, 164)

**Nifaqdan çəkinin... Nifaq nədir bilirsinizmi?**

Muhəmməd Peyğəmbər ﷺ insan münasibətlərini pozan nifaq haqqında belə buyurmuşdur: “Dörd xislət vardır ki, bunlar kimdə olarsa əsl münafiq sayılar. Bu dörd xislətdən birinə sahib olan insanda, onu tərk edənə qədər münafiqlik xisləti vardır.

1. Ona əmanət verildiyi zaman xəyanət edər.
2. Danışanda yalan danışar.
3. Əhd bağladığı zaman əhdini pozar.
4. Mübahisə etdiyi zaman haqsızlıq edər. (Buxari, 34)

Nifaq olmaz!



Mədinə bazarlarından biri

**Azad Ticarət Zonası**

**Azad ticarət:** Hz. Muhəmməd ﷺ Mədinəyə hicrət edərkən yəhudilərin bazarlarında ticarət edən müsəlmanlardan xərac aldıqlarını gördü. Bunun üzərinə Hz. Peyğəmbər ﷺ səhabələrə əmr edir ki, bir yer alıb bazar yeri kimi ayırsınlar və orada alış-veriş edənlərdən vergi alınmasın.

***Mədinə bazarlarından biri***



*Peyğəmbərin ﷺ əmrini yerinə yetirən səhabələr bazar yeri olaraq aldıqları və bağışladıqları torpağa dəvələrin diz çöküb yükünü boşaltdığı yer mənasına gələn "əl-Munəxə" adını verdilər. Bu bazar yeri eyni adla günümüzə qədər gəlib çatmışdır.*



əl-Munəxə" bölgəsi üçün yeni tikilmiş binanın hasarını göstərən son fotoşəkil. Mədinə-i Münəvvərə.



*Uman Sultanlığında yerləşən Əl-Sultan məscidi taxta tavanı və nazik divar bəzəkləri ilə İslam tikinti sənətinin gözəl nümunəsidir.*



Muhəmməd sözü iki gümbəz və İslamın qapıları formasında bədii şəkildə işlənib. Küveytli xəttat Fərid əl-Əlinin əsəri



Türk Xəttat Həsən Çələbinin lövhəsi
"İnsanların ən xeyirlisi insanlara ən çox faydası olandır."



Qübbətüs-Saxra Məscidi - Qüds - Fotoqraf Peter Sander

Fəsil
**6**

# QADIN

"Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır."
*ər-Rum surəsi 21*

وجعل بينكم مودة ورحمة



*İstanbul Sultan Əhməd Məscidi (Türkiyə)*

# QADIN HÜQUQLARI

Qədim dövrlərdə və İslamdan əvvəl bəzi cəmiyyətlərdə qadın rəzil məxluqlar, bədbəxtliklərin səbəbkarı kimi qəbul edilirdi. Qadına o qədər xor baxılırdı ki, kişi qadından öncə öləndə arvadı onun cəsədi ilə birlikdə dəfn edilirdi. Bəzən də, əgər arvadın oğlan uşağı olmadan əri ölərdisə o, ərinin ailəsinə miras olaraq qalırdı.

**İslam dini oğlan və qız uşaqları arasında fərq qoymur:** İslamdan əvvəlki ərəb cəmiyyətində oğlanlara üstünlük verilirdi. Hətta iş o yerə çatmışdı ki, qız övladının olmasından utanan bəzi kişilər qızlarını diri-diri basdırırdılar. İslam dini qızlara və oğlanlara heç bir fərq qoymadan, ədalət, sevgi və şəfqətlə rəftar edilməsini əmr edir. Hətta qızların gəlin olana qədər tərbiyəsinə daha çox diqqət yetirilməsini tövsiyə edilir.

**Hz. Peyğəmbər ﷺ dəfələrlə qadınlarla yaxşı rəftar edilməsini təkid edərək belə demişdir:** “Qadınlarla yaxşı davranın!” “Ən üstün mömin, xanımı ilə ən yaxşı və ən lütfkar davranan gözəl əxlaqlı müsəlmandır.” “Qadınlara ancaq alicənab və şərəf sahibi kişi dəyər verər. Onları ancaq pis və alçaq kişi xor görər.” “Ən yaxşı müsəlman, xanımı ilə ən yaxşı davranandır.” “İçinizdə xanımı ilə ən yaxşı davrananınız mənəm.”

**İslam dini qadınlara varislik hüququ vermişdir.**
Hz. Muhəmməd ﷺ Allah qatından ədalətli bir miras qanunu gətirmişdir. O, cahiliyyət cəmiyyətində qadına vərəsəlik hüququ verməklə köklü və mədəni bir dəyişiklik etmişdir. Halbuki o dövrdə qadın kişinin malı sayılır və bir əşya kimi ərinin ailəsinə miras olaraq buraxılırdı. İslam miras hüququ, bu baxımdan dünyanın bir çox ölkələrində hüquqşünaslar üçün mənbə təşkil etmişdir.

Lövhədə Hz. "Muhəmməd"in ﷺ adı, birinci yarısı ikinci yarısına bənzəyəcək şəkildə bədii və simmetrik işlənmişdir. Küveytli xəttat Fərid əl-Əlinin əsəri.




**İslam dini qadınlara müstəqil status vermişdir:** İslam dini, qadına azad və özünə məxsus təbiətə malik müstəqil insan kimi baxır. Ona görə də qərb cəmiyyətlərində olduğu kimi, evli qadının soyadını dəyişməsi, ərinin soyadını götürməsi İslama görə caiz deyil. Qadın öz soyuna mənsub edilərək soyadı ilə çağırılır.

İslamda qadınlar da kişilər kimi qanun qarşısında məsuliyyət daşıyırlar. Onların hüquqları olduğu kimi vəzifələri də var. Lakin bunlar kişilərin hüquq və vəzifələrindən bir qədər fərqlidir.

**İslam cəmiyyətində qadınların yeri böyükdür:** İslam dini qadına böyük dəyər vermişdir. İslam, cəmiyyət quruculuğunda qadın və kişinin vəzifələrini bir - birinin qarşısında və ya müxalifətində deyil, əksinə bir-birini tamamlayan şəkildə müəyyən etmişdir. Qadınların əsas vəzifəsi balanslı cəmiyyət yaratmağa qadir nəsil yetişdirməkdir. Bundan əlavə, müsəlman qadınların üzərinə mühüm ictimai-siyasi vəzifələr də düşməkdədir.

Həftənin müəyyən günlərində qadınları maarifləndirən Hz. Muhəmməd ﷺ qadınları bayram namazında iştirak etməyə, beyətə gəlib fikirlərini bildirməyə dəvət etmişdir.

Hz. Muhəmməd ﷺ dünya işlərində səhabələri ilə məşvərət etdiyi kimi, öz zövcələri ilə də məşvərət edirdi. O, qadınların, o cümlədən kölə və xidmətçilərinin məsləhətləşmələrinə qulaq asır və onların ehtiyaclarını qarşılayırdı. İslam dini qadınları, cəmiyyətə fayda verən müəllimlik, tibb bacısı və həkimlik kimi peşələrlə məşğul olmağa təşviq edir.

Xəttat Visam Şövkətin əsərlərindən **"Ey qəlbləri çevirən Allahım! Qəlbimi dinin və itaətin üzərində sabit et!"** yazılan dua lövhəsi.



## Hz. Muhəhəmməd ﷺ qadınlarla yaxşı rəftar etməyə təşviq etmişdir.

Hz. Peyğəmbər ﷺ hər fürsətdə qadınlarla gözəl davranmağa təşviq edir və qadınları zərif şüşəyə bənzədərək onlarla daim yaxşı davranmağı tövsiyə edirdi.

Qız uşaqlarının ən yaxşı şəkildə tərbiyə edilməsini əmr edən Hz. Muhəmməd ﷺ, qızlarına gəlinlik yaşına qədər gözəl tərbiyə verən valideynlərin cənnətə daxil olacağını bildirmişdir.

Yenə Hz. Peyğəmbər ﷺ qız uşaqlarına xüsusi diqqət yetirərək belə demişdir:

> Kimin qız uşaqları olar, onların sıxıntılarına qatlanar, onları yaxşı böyüdər və adətiylə evləndirərsə, bu qız uşaqları onun üçün Cəhənnəmə sipər olar.” (Buxari, Muslim)

## Qadın zövq vasitəsi deyil

Qadın kişilərlə bərabər cəmiyyətin digər yarısıdır. Allah Təala qadınları övlad dünyaya gətirmək və onlara tərbiyə verməklə insan övladının davamını təmin etmək qabiliyyəti ilə yaratmışdır. Bəzi cəmiyyətlərdə qadının bu uca vəzifəsi görməzdən gəlinərək bir zövq vasitəsi kimi görülür. Bu cəmiyyətlərdə zina və cinsi insan alveri çox vaxt iqtisadiyyatı və turizmi inkişaf etdirmək üçün istifadə olunur. İslam dini isə nikahdan kənar cinsi həyatı, maddi qazanc məqsədilə qızların fahişəliyini qəti qadağan edir.

> “Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!”
>
> *(əl-İsra, 32)*

## İslam dini anaya xüsusi qiymət verir və onun məqamını ucaldır

**Uca Allah ata-anaya laqeyd qalmamağı əmr edir və belə buyurur:**

“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”– de.”

*(əl-İsra, 23-24)*

Bir kişi Hz. Muhəmmədin ﷺ yanına gəlib dedi: “Ey Allahın elçisi! Mən kimə qayğı göstərməliyəm?” Dedi: “Anana!” Yenə soruşdular: “Sonra kimə?” Dedi: “Anana!” Bir də soruşdular: “Sonra kimə?” Dedi: “Anana!” (Dördüncü dəfə): “Sonra kimə?”- deyə təkrar edildikdə, dedi: “Atana!”
(Buxari, 5971; Muslim, 2548; Bihər əl-Ənvar, 71/49)



Hədisi təfsir edən alimlər, anaların hamiləlik, doğuş və əmizdirmə kimi üç böyük çətinlik çəkdiklərinə görə üstünlük qazandığını izah etmişlər.

## Qadını Qorumaq



**İslamda Hicab:** İslam dini həddi-büluğa çatmış qızlara hicab taxmağı, uzun və geniş paltar geyinərək örtünməyi əmr etmişdir. Qadın zinətlərini örtməklə özünü pis niyyətli nəfslərin sui-istifadəsindən qoruyur və eyni zamanda kişilərin diqqətini cəlb etmir.

İslam dini, Allahın qadına bəxş etdiyi gözəlliyindən və cazibədarlığından istifadə edərək ticari qazanc əldə etmək üçün foto, film və reklam kimi vasitələrlə qadın bədəninin nümayiş etdirilməsini qadağan etmişdir.

İslamın örtünmə təlimləri, çılpaqlıq, pornoqrafiya, cinsi pozğunluq, qeyri-qanuni əlaqə və qeyri-qanuni uşaq sahibi olmaq, abort, zorlama və yoluxucu cinsi xəstəliklər kimi pisliklərin qarşısını alır.



## İslam nikahdan kənar cinsi həyatı qadağan etmişdir.

Hz. Muhəmməd ﷺ sağlam cəmiyyətin özəyini təşkil etmək üçün evliliyə təşviq etmişdir. Hz. Peyğəmbər ﷺ, müsəlmanlara qadın-kişi münasibətlərinin hüdudlarını və formasını müəyyən edən yüksək dəyərləri və prinsipləri öyrətmiş və beləliklə nikahdan kənar cinsi həyatın qarşısını almışdır.

Nikahsız cinsi həyat olmaz

Allahın elçisi hədislərində belə demişdir: “Qoy evlənməyə imkanı olan (hər kəs) evlənsin. Çünki evlilik, gözləri və cinsiyyət üzvünü (zinadan) qoruyan ən yaxşı (səbəbdir). İmkanı olmayanlar isə oruc tutsunlar. Çünki oruc (insanın) şəhvətini soyudur.” (Buxari, 1905) “Zina edən adam zina etdiyi vaxt mömin sayıla bilməz. Şərab içən adam şərab içdiyi vaxt mömin sayıla bilməz. Oğurluq edən adam oğurluq etdiyi vaxt mömin sayıla bilməz.” (Buxari, 5578; əl-Kafi, 2/204; Təhzib əl-Əhkəm, 6/371)

Qureyşli bir gənc Peyğəmbərin ﷺ yanına gələrək dedi: «Ey Allahın Rəsulu! İzn ver zina edim». Səhabələr ona yaxınlaşıb sus-sus deyərək kənara çəkdilər. Peyğəmbər ﷺ yaxın gəl deyə buyurdu. O, yaxınlaşdıqda Peyğəmbər: «Öz anana rəva bilərsən?» O: « Allah məni sənə fəda etsin, Allaha and olsun ki, yox.» dedi. Peyğəmbər ﷺ: «Həmçinin insanlar da bunu öz analarına rəva bilmirlər. Bunu öz qızına istəyərsən?» O: «Allaha and osun ki, yox» dedi. Peyğəmbər ﷺ: «Həmçinin insanlar da bunu öz qızlarına istəmirlər. Bunu öz bacın üçün istəyərsən?» O: «Allaha and olsun ki, yox» dedi Peyğəmbər ﷺ: «Həmçinin insanlar da bunu öz bacıları üçün istəmirlər. Bunu öz bibin üçün istəyərsən?» O: «Allaha and olsun ki, yox ey Allahın Rəsulu!» dedi. Peyğəmbər ﷺ: «Həmçinin insanlar da bunu öz bibiləri üçün istəməzlər. Bunu öz xalan üçün istəyərsən?» O: «Allaha and olsun ki, yox» dedi Peyğəmbər ﷺ: «Həmçinin insanlar da bunu öz xalaları üçün istəməzlər.» Peyğəmbər ﷺ əlini onun sinəsinə qoyub buyurdu: «Allahım! Onun günahını bağışla, qəlbini təmizlə və ismətini qoru!» (Musnəd Əhməd, 10/5220, 22641, 22642. Əbu Umamənin hədisi)

### İslam dini kişilərə zövcələri ilə gözəl davranmağı əmr edir.

Hz. Muhəmməd ﷺ, Allahın "Onlarla yaxşı davranın." (ən-Nisa surəsi, 19-cu ayə) əmrinə uyğun olaraq hər fürsətdə kişiləri qadınlarla yaxşı rəftar etməyə dəvət etmişdir. Vida xütbəsində isə gözəl əxlaq, həyat yoldaşlarına qarşı gözəl rəftar və iman arasında əlaqə quraraq belə demişdir:

> “Möminlərin iman baxımından ən kamil olanı ən gözəl əxlaqa malik olandır. Sizin ən xeyirliniz isə zövcələri ilə ən yaxşı davrananınızdır”. (Mustədrak Hakim, 1/3, 1; Əbu Davud 4/354, 4682)

### Evlilik uca Allahın böyük nemətidir.

Evlilik, qadın və kişini Allah rizası üçün birləşdirən, sevgi, şəfqət, fədakarlıq və həmrəylik ipləri ilə toxunan müqəddəs bir bağdır. Evlilikdən əsas məqsəd, saleh övladlar dünyaya gətirərək bəşəriyyətin davamını və hər iki tərəfin mənəvi və fiziki rahatlığını təmin etməkdir. Ancaq məqsədin uğurlu olması üçün ər-arvad birlikdə cəhd etməli və fədakarlıq göstərməlidirlər.

> “Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.”
>
> *(ər-Rum, 21)*

### İslamda boşanma.

Digər tərəfdən, ər və arvadın bütün cəhdlərinə baxmayaraq əgər evlilik uğur qazanmasa və sonu dalana dirənsə, İslam dini müəyyən qaydalar çərçivəsində boşanmaya icazə vermişdir. Bununla belə, boşandıqdan sonra qadın və uşaqların hüquqlarının müdafiəsi və tərbiyəsi ilə bağlı bəzi qanunlar qoymuşdur.

> Boşama iki dəfədir. Bundan sonra *qadını şəriətə* müvafiq qayda üzrə saxlamaq, yaxud xoşluqla buraxmaq gərəkdir...”
>
> *(əl-Bəqərə, 229)*

Əbu Davudun rəvayət etdiyi hədisdə Hz. Muhəmməd ﷺ boşanma ilə əlaqədar olaraq, "Allahın ən çox xoşuna gəməyən halal əməl talaqdır!" buyurmuşdur. Ona görə də, ər-arvad arasıında yaranan problemlərin dərhal həll olunmasına çalışılmalıdır ki, böyüyüb boşanmalara səbəb olmasın. Bununla bərabər cütlüklər, evliliyin icrasında bütün vasitələrə əl atsalar da heç bir nəticə əldə edə bilməsələr, o zaman boşanma qərarı verə bilərlər.

### Hz. Muhəmməd ﷺ zövcəsinə qarşı mehriban və sadiq bir ər idi

Hz. Peyğəmbər ﷺ zövcələrinə olan dərin məhəbbəti və sədaqəti ilə xoşbəxt ailə həyatında səhabələrinə ən gözəl nümunə olmuşdur. Hz. Muhəmməd ﷺ həyat yoldaşı Hz. Xədicə رضي الله عنها ilə 25 il evli olub. Hz. Muhəmməd ﷺ, Hz. Xədicə رضي الله عنها vəfat edəndən sonra həmişə onu gözəl xatırlayır və onun dostlarına ikramlar edirdi. Hz. Aişə رضي الله عنها ilə evliliyində isə o, həyat yoldaşı ilə zarafatlaşır, oyun oynayır, yarışır və onun xoşuna gələn söhbətlər edirdi.

### Hz. Muhəmməd ﷺ zövcələrinə olan sevgisini açıq şəkildə ifadə etmişdir

Aişə رضي الله عنها rəvayət edir ki, bir gün bir qrup qadın oturub aralarında ərlərindən danışırdılar. Ummu Zəra رضي الله عنها adlı qadın ərini çox tərifləyir və ondan aldığı sevgi və mehribanlıqla öyünürdü. Mən bundan Hz. Peyğəmbərə ﷺ bəhs edəndə o belə dedi: “Əbu Zəra (Ummu Zəranın əri) Ummu Zəra رضي الله عنها üçün necədirsə mən də sizin üçün eləyəm.”



Bir gün Hz. Muhəmməddən ﷺ soruşdular: "Ey Allahın Rəsulu! Sənin üçün insanların ən sevimlisi kimdir?" Hz. Muhəmməd ﷺ “Aişədir” dedi. Bu dəfə "Bəs ondan sonra kim?" deyə soruşdular. Rəsulullah ﷺ: “Onun atası” deyə cavab verdi.



*Küveytli xəttat Fərid əl-Əli bu yazıda mim hərfindən istifadə edərək ərəbcə “Muhəmməd” adını qızılgül şəklində işləyib. Birinci mim qızılgül, ikinci mim isə yarpaq şəklində yazılmışdır.*

Yəhudi qəbilələrindən Bəni Nadirin başçısı Huyeyin qızı Safiyyə رضي الله عنها, Həzrət Muhəmməd ﷺ ilə evləndiyi zaman insanlar onun haqqında “yəhudi qızı” deyə danışmağa başladılar. Həyat yoldaşının bu sözə üzüldüyünü görən Hz. Muhəmməd ﷺ ona: “Sən peyğəmbərin (Hz. Musanın عليه السلام) qızısan, əmin (Hz. Harun عليه السلام) da peyğəmbərdir, zövcən də peyğəmbərdir” deyərək könlünü almışdır. (Tirmizi, 6/177, 3899; Musnəd Əhməd, 5/2609, 12587)



Hz. Muhəmməd ﷺ vəfat etdikdən sonra Hz. Səfiyyə رضي الله عنها, Xatəmü'l Ənbiya olan ərindən duyduğu sevgini ətrafdakı insanlara danışmışdır.

## İslamda Çoxevlilik

### Çoxevlilik İslamdan əvvəl adi hal idi

İslamdan əvvəlki cəmiyyətlərdə çoxarvadlılıq ümumi və qəbul edilən bir adət idi. Kişi birdən çox (azad) qadın və cariyə ilə evlənə bilərdi. Hz. İbrahimin عليه السلام Sara və Həcər adlı iki arvadı olması buna sübutdur. İncildəki rəvayətlərə görə də, Yaqub peyğəmbərin عليه السلام iki arvadı və iki cariyəsi var idi. İslam heç vaxt çoxarvadlılığı əmr etməmiş və təşviq etməmişdir. Əksinə İslam, çoxarvadlılıqla bağlı qadınların, kişilərin və cəmiyyətin xeyrinə məhdudiyyətlər gətirmişdir. Belə ki İslam dininə görə bir kişi nikahı altında dörtdən artıq arvad saxlaya bilməz.

İslam dini çoxarvadlılıqda ədalətə üstünlük verir. Buna görə kişi gecələmə, aliment və yaşayış (ev) baxımından arvadları arasında ədalətli olmağa borcludur. Əgər ədalət təmin olunmayacaqsa, kişi üçün tək nikah daha yaxşıdır.

> “Əgər *o qadınlarla* ədalətlə dolanmayacağınızdan qorxarsınızsa, onda *onlardan* biri ilə evlənin...”
>
> *(ən-Nisa, 3)*

> “Siz nə qədər çalışsanız da, qadınlar arasında ədalətlə davrana bilməzsiniz.”
>
> *(ən-Nisa, 129)*

İslam dini çoxarvadlılığı nə əmr edir, nə də qadağan edir. Bunda bir çox hikmətlər var.

Əgər qadın xəstəliyə və ya əlilliyə görə uşaq dünyaya gətirə bilmirsə və ya ərinə qarşı müəyyən vəzifələrini yerinə yetirə bilmirsə, bu halda qadının əri, arvadını boşamaq əvəzinə ikinci qadınla evlənə bilər. Beləcə nəslinin davamını və bioloji ehtiyaclarını Allahın razı qalacağı şəkildə təmin edər.

Çoxarvadlılıq həm də evlənmək imkanı tapa bilməyən yaşlı qızlar, habelə boşanaraq və ya ölüm səbəbiylə dul qalan qadınlar üçün tənhalıqdan xilas edən ümid qapısıdır.

İkinci dünya müharibəsindən sonrakı Alman cəmiyyətində olduğu kimi, kişilər müharibələrdə öləndə cəmiyyətdə qadınların sayı həddindən artıq artmışdı. Bu da öz növbəsində insanlar arasında zina və cinsi xəstəliklərin yayılmasına səbəb olmuşdu. Belə hallarda cəmiyyətin sosial çöküşünün qarşısını almaq və insan nəslinin davamlılığını təmiz şəkildə təmin etmək və qorumaq üçün çoxarvadlılıq tətbiq oluna bilər.

## Hz. Muhəmməd ﷺ çoxarvadlılıq prinsipini qəbul etdimi?

Ərəb cəmiyyətində çoxlu nikah və cariyəyə sahib olmaq adi bir adət idi. Buna baxmayaraq Hz. Muhəmməd ﷺ 25 yaşında gənc ikən 40 yaşlı dul qadın olan Xədicə رضي الله عنها ilə evləndi. 25 il davam edən bu evlilikdən 4 qız və 2 oğlu oldu. Hz. Xədicə رضي الله عنها vəfat etdikdən sonra Peyğəmbər ﷺ yaşlı dul qadın olan "Sevda binti Zəm'a رضي الله عنها" ilə evləndi. Bu evlilikdəki hikmətə gəlincə, Hz. Muhəmməd ﷺ səhabə qadınların şəxsi suallarını zövcələri vasitəsilə cavablandırdığı üçün onun evli olması lazım idi.

Digər tərəfdən, Hz. Sevda binti Zəm'a رضي الله عنها İslam dini uğrunda çox əziyyət çəkmişdi. O, həyat yoldaşı ilə birlikdə Həbəşistana hicrət edənlərdən idi. Hz. Muhəmməd ﷺ, dini uğrunda zülmlərə dözən, məcburi köçkün həyatı yaşayan və ən sonda həyat yoldaşını itirən Sevda رضي الله عنها ilə ailə quraraq ona mənəvi dəstək olmuşdu.

**Hz. Muhəmməd ﷺ sadiq dostu Əbu Bəkrin رضي الله عنه qızı ilə evlənir:** Hz. Muhəmmədin ﷺ, sevimli həyat yoldaşı Hz. Xədicə رضي الله عنها vəfat etdikdən iki il sonra Allahın əmri ilə Əbu Bəkri رضي الله عنه götürərək Mədinəyə hicrət etdi.
Qısa müddətdən sonra isə həm ən yaxın dostu, həm də kişilər arasında ilk müsəlman olan Hz. Əbu Bəkrin رضي الله عنه, İslam uğrunda etdikləri fədakarlıqlarına qarşılıq olaraq onu şərəfləndirmək üçün qızı Aişə رضي الله عنها ilə evləndi.

**Muhəmməd ﷺ dostu Ömərin رضي الله عنه qızı ilə evlənir:** Hicrətin 2-ci ilində baş verən Uhud döyüşündə Həfsənin رضي الله عنها həyat yoldaşı Huneys bin Huzafə رضي الله عنه şəhid olmuşdu. Qızının gənc yaşında dul qalmasına çox üzülən Ömər رضي الله عنه, Osman رضي الله عنه və Əbu Bəkirə رضي الله عنه qızı ilə evlənmə təklif etdi. Lakin onlar Ömərin رضي الله عنه təklifinə cavab verməyərək susdular. Sonra Ömər رضي الله عنه qızının vəziyyətindən Rəsulullaha ﷺ danışdı. Dostunun üzüldüyünü görən Hz. Muhəmməd ﷺ "Ey Ömər! Həfsə Osmandan, Osman da Həfsədən daha xeyirlisi ilə evlənəcək" dedi. Peyğəm- bər ﷺ, Həfsə رضي الله عنها ilə evlənmək niyyətində olduğunu bildirməklə dostunun könlünü almışdı.

**Muhəmməd Peyğəmbər ﷺ "yoxsulların anası" ilə evlənir:** Hz. Muhəmməd ﷺ Həfsə رضي الله عنها ilə evləndikdən sonra çox keçmədi ki, əri Uhud döyüşündə (bəzi rəvayətlərdə Bədr) ölən Zeynəb binti Xuzeymə رضي الله عنها ilə evləndi. Zeynəb binti Xuzeymə رضي الله عنها yoxsullara qarşı çox şəfqətli və mərhəmətli olduğu, onları daima yedizdirdiyi və onlara sədəqə verdiyi üçün “Ummul məsakin” (yoxsulların anası) ləqəbi ilə tanınırdı. Zeynəb رضي الله عنها Rəsulullahla ﷺ evləndikdən az sonra vəfat etmişdir.

**Hz. Muhəmməd ﷺ, Həbəşistana ilk hicrət edənlərdən biri olan Ummu Sələmə رضي الله عنها ilə evlənir.**
Hind bint Umeyyə (Ummü Sələmə) رضي الله عنها, Hz. Muhəmmədin ﷺ süd qardaşı və eyni zamanda bibisi oğlu olan Bərra ilə evlənmişdi. O və həyat yoldaşı Həbəşistana getməyə qərar verən birinci qrupda idi. Ummu Sələmənin رضي الله عنها həyat yoldaşı xəstələnərək vəfat etmişdi. Hz. Peyğəmbər ﷺ, dörd uşağı ilə birlikdə dul qalan Ummu

Sələməni رضي الله عنها himayəsinə almaq üçün ona evlilik təklif etdi. O da bu təklifi tərəddüd etmədən qəbul etdi. Ummu Sələmə رضي الله عنها hikməti və sağlam düşüncəsi ilə tanınırdı. Buna görə də Hz. Peyğəmbər ﷺ müxtəlif məsələlərdə onunla məsləhətləşmişdir.

**Hz. Muhəmməd ﷺ, oğulluğun həqiqi övlad kimi qəbul olunduğu anlayışını ləğv etmək üçün Allahın əmri ilə bibisi qızı ilə evlənir.**

Zeynəb bint Cəhş رضي الله عنها, Hz. Muhəmmədin ﷺ bibisi Umeymənin qızıdır. O, Hz. Muhəmmədin ﷺ məsləhəti ilə Peyğəmbərin ﷺ övladlığa götürdüyü Zeyd bin Harisə ilə رضي الله عنه evlənmişdi. Zeyd bin Harisəni رضي الله عنه uşaqlıqdan Peyğəmbər ﷺ böyütdüyü üçün onu Zeyd ibn Muhəmməd (Muhəmmədin oğlun Zeyd) deyə çağırırdılar. Lakin bir müddət sonra müəyyən problemlər səbəbiylə onlar boşanmağa qərar verdilər. Hz. Muhəmməd ﷺ onların boşanma qərarından çox məyus oldu. Çünki bu evliliyi şəxsən özü arzu etmiş və həyata keçirmişdi. Boşanandan bir müddət sonra Rəsulullah ﷺ Allahın əmri ilə Zeynəblə رضي الله عنها evləndi.

O dövrdə ərəblər arasında oğulluğa götürülənlər həqiqi övlad qəbul edilirdi. Allahın göstərişiylə oğulluğunun boşadığı xanımla evlənən Rəsulullah ﷺ, cahiliyyə dövründən qalmış bu hökmü və adəti də dəyişmiş oldu. Allah Təala bir ayə (Əhzab surəsinin 37-ci ayəsi) nazil etməklə bu cür yanlış düşüncə tərzini yəni övladlığa götürülmüş şəxsin əsl övlad olduğu anlayışını birdəfəlik aradan qaldırdı.

**Hz. Muhəmməd ﷺ, Cuveyriyyə binti Haris رضي الله عنها ilə evlənir.**

Müsəlmanlarla "Bəni Müstələq" qəbiləsi arasında gedən döyüşdə əsir düşənlər arasında qəbilə başçısının qızı Bərra binti əl-Haris رضي الله عنها də var idi. Hz. Muhəmməd ﷺ onu azad etdi, onunla evləndi və adını "Cuveyriyyə" qoydu. Bu mübarək evliliyə hörmət olaraq səhabələr götürdükləri əsirlərin çoxunu azad etdilər.

**Hz. Muhəmməd ﷺ, Safiyyə رضي الله عنها adında yahudi bir qızla evlənir.**

Mədinə şəhərində məskunlaşan 3 yəhudi qəbiləsindən biri də Bənu Nədir qəbiləsi idi. Bu qəbilə müşriklərin Mədinəyə hücum edəcəyi təqdirdə şəhəri qorumaq üçün Hz. Peyğəmbərlə ﷺ müttəfiqlik müqaviləsi bağladılar. Amma onlar verdikləri sözə xəyanət edərək

düşmənlərlə əməkdaşlıq edərək bu ittifaqı pozdular. Hətta Hz. Muhəmmədi ﷺ hiyləgar bir planla qətlə yetirməyə də cəhd etdilər.
Bu xəyanətlərə görə Hz. Peyğəmbər ﷺ hicrətin 4-cü ilində Bənu Nədirə qarşı müharibəyə başladı. Nəticədə Bənu Nədir təslim oldu və bəziləri müsəlmanlara əsir düşdü. Əsirlər arasında qəbilə başçısının qızı Safiyyə رضي الله عنها də var idi. Hz. Muhəmməd ﷺ, səhabələrin məsləhəti ilə müsəlmanlığı qəbul etmiş Safiyəni رضي الله عنها azad edərək onunla evləndi.
Hz. Muhəmmədin ﷺ yəhudi qızı ilə evlənməsi İslamın heç bir millətə nifrət edən irqçi bir din olmadığını göstərir. Səfiyyə رضي الله عنها daim, Hz. Muhəmmədin ﷺ mehriban, sadiq və vəfakar bir ər olduğunu söyləyirdi.



### Hz. Muhəmməd ﷺ qatı düşməni Əbu Sufyanın dul qalmış qızı Ummu Həbibə رضي الله عنها ilə evlənir

Əsl adı Ramlə olan Ummu Həbibə رضي الله عنها Məkkənin görkəmli simalarından Əbu Sufyanın qızıdır. Ummu Həbibə رضي الله عنها, İslamın qatı düşmənlərindən birinin qızı olmasına baxmayaraq, İslamı qəbul edərək əri ilə birlikdə Həbəşistana hicrət etmişdi.
Amma Ummu Həbibənin رضي الله عنها əri Həbəşistanda İslamı tərk edərək xristian oldu və bir müddət sonra öldü. Dini yolunda hicrət edən Ummu Həbibə رضي الله عنها sürgündə tək qaldı. Peyğəmbər ﷺ Həbəşistana Ummu Həbibə رضي الله عنها ilə evlənmək istədiyi xəbərini göndərdi və o da bu təklifi böyük məmnuniyyətlə qəbul etdi.

### Hz. Peyğəmbər ﷺ Meymunə binti Harislə رضي الله عنها evlənir

Meymunə binti Haris رضي الله عنها Abbasın رضي الله عنه baldızı və Abdullah bin Abbasın رضي الله عنهما xalasıdır. Meymunənin رضي الله عنها həyat yoldaşı vəfat etdiyi zaman Hz. Muhəmməd ﷺ onunla evlənmək üçün xəbər göndərdi. O, “Canım Allah Rəsuluna fəda olsun” deyərək bu təklifi sevinclə qəbul etdi.
Hz. Muhəmməd ﷺ qəza ümrəsini yerinə yetirdikdən sonra toy münasibəti ilə Məkkə yaxınlığında ziyafət verdi. Bu mübarək nigah və yeməkdən sonra Qureşlilər “Muhəmməd bizə quda oldu” deyərək müsəlmanlara qarşı sərt və radikal mövqelərini yumşaltdılar.

## Hz. Muhəmməd ﷺ Misirli Mariya əl-Qipti ilə evlənir

Hudeybiyyə sülhü imzalandıqdan sonra Hz. Muhəmməd ﷺ dövrün böyük dövlətlərinin başında duran sultan və imperatorlara İslama dəvət məktubları göndərdi. Rəsulullahın ﷺ məktub göndərdiyi padşahlar arasında Misir hökmdarı Muqəvqis də var idi. Muqəvqis Peyğəmbərimizin ﷺ elçisini çox yaxşı qarşılamış, lakin səltənətinin əlindən çıxmasından qorxduğu üçün müsəlmanlığı qəbul etməmişdi. Muqəvqis Peyğəmbərimizə ﷺ çox dəyərli hədiyyələr göndərmişdi. O, bu hədiyyələrlə birlikdə dövrün adət-ənənələrinə uyğun olaraq Mariya və Şirin adlı iki kəniz də hədiyyə etmişdi.

Peyğəmbərimiz ﷺ hökmdarın hədiyyəsini rədd etməyi düzgün hesab etməmişdi. Həmçinin onun Müqəvqisə və Misir xalqına göstərdiyi bu maraq Misir qapılarının İslam ordularının üzünə açılmasının səbəblərindən biri olacaqdı. Peyğəmbərimiz ﷺ, müsəlman olmağı qəbul edən Mariya ilə evləndi. Mariyadan Peyğəmbərimizin ﷺ bir oğlu dünyaya gəldi. Amma İbrahim adlı bu uşaq 2 yaşına çatmamış dünyasını dəyişdi. Hz. Muhəmməd ﷺ oğlu İbrahimin vəfatından çox kədərlənmişdi.



### Uca Allah bir çox evliliklərə məhdudiyyətlər qoyub.

İslamdan əvvəlki cahiliyyə dövründə ərəblər say məhdudiyyəti olmadan birdən çox qadınla evlənirdilər və ümumiyyətlə bu evliliklərdə ər-arvad bərabərliyi kimi hüquqlar yox idi. Çoxarvadlılığı məhdudlaşdıran və tənzimləyən İslam dini nikaha maksimum 4 qadının daxil edilməsini və qadın hüquqları baxımından bərabərlik və ədalətə riayət olunmasını şərt qoymuşdur.

Muhəmməd ﷺ, çoxarvadlılığın sayını məhdudlaşdıran əmrdən əvvəl dörddən çox qadınla evlənmişdi. Digər insanlardan fərqli olaraq Hz. Muhəmməd ﷺ Allah tərəfindən seçilmiş və vəhyin nazil olduğu xüsusi bir şəxsiyyət idi.

Buna görə də onun evliliyi də xüsusi müddəalara tabe olmalı idi. Məhz bu özəlliyinə görə Hz. Muhəmməd ﷺ ilə evlənmək şərəfinə nail olan qadınlar möminlərə dinlərini öyrədən “möminlərin anası” tituluna sahib idilər.

### Hz. Muhəmməd ﷺ və onun zövcələri üzərinə düşən çətinliklər.

Uca Allah nazil etdiyi ayədə, Hz. Muhəmmədə ﷺ zövcələrini nikahda saxlamasına xüsusi icazə vermiş və onlar üçün bəzi xüsusi qadağalar qoymuşdur. Buna görə də həm Peyğəmbərə ﷺ, həm də onun zövcələrinə hörmət əlaməti olaraq Peyğəmbər ﷺ vəfat etdikdən sonra onun zövcələri heç vaxt başqa bir kişi ilə evlənə bilməyəcək. Belə ki onlar artıq müsəlmanların anaları yerindədir.

Quranda buyurulur ki, Rəsulullahın ﷺ zövcələri digər qadınlar kimi deyillər. Uca Allah onlara qulluqları və gözəl əxlaqları ilə mömin qadınlara nümunə olmalarını əmr etmişdir. Buna görə, onlardan biri günah iş görərsə (digər qadınlarla müqayisədə) cəzası ikiqat olar. Əgər savab iş görsə, bu halda savabı da ikiqat olar.

“Ey Peyğəmbər! Zövcələrinə de: “Əgər siz dünya həyatını və onun bərbəzəyini istəyirsinizsə, gəlin sizi *dünya malıyla* məmnun edib gözəl tərzdə sərbəst buraxım. Yox, əgər Allahı, Onun Rəsulunu və Axirət yurdunu istəyirsinizsə, *bilin ki*, Allah aranızdan yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır.” Ey Peyğəmbərin zövcələri! Sizlərdən hər kim açıq-aşkar bir çirkin iş görsə, onun əzabı ikiqat artar. Bu, Allah üçün asandır. Sizlərdən hər kim Allaha və Onun Rəsuluna itaət edib yaxşı işlər görsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün bol ruzi hazırlamışıq. Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər *Allahdan* qorxursunuzsa, *yad kişilərlə* nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan kəs tamaha düşər. *Şəriətə* müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Rəsuluna itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah lütfkardır, *hər şeydən* xəbərdardır.

*(əl-Əhzab, 28-34)*

**Allah Peyğəmbərin ﷺ zövcələrinə “seçmə haqqı” verir.** Uca Allah Hz. Muhəmmədin ﷺ qadınlarına onun vəfatından sonra başqa kişi ilə evlənməyi qadağan etmişdir. Ona görə də bu qadağa ayəsi nazil olduqda uca Allah Peyğəmbərin ﷺ zövcələrinə, boşanaraq “möminlərin anası” titulu məsuliyyətindən qurtulmaq və ya Peyğəmbərlə ﷺ birlikdə qalaraq “möminlərə dinlərini öyrətmək” arasında seçim etmək hüququ vermişdir. Onlara belə bir seçim verilsə də, hamısı Hz. Muhəmmədin ﷺ yanında qalmağı seçdi və onların heç biri Peyğəmbərin ﷺ vəfatından sonra heç bir kişi ilə evlənmədi.

## QEYDLƏR

1. “Yaqub o gecə qalxıb iki arvadını, iki cariyəsi və on bir oğlunu özü ilə götürüb Yabbuk çayının dayaz yerlərindən keçdi”. Kitabı Müqəddəs, Yaradılış, 22
2. İslam dini qadınlara boşanma haqqı (xulu) vermişdir. Əri ilə anlaşa bilməyən qadın aldığı mehrini qaytararsa, boşanma tələb edə bilər: “Əgər siz onların Allahın hüdudlarını yerinə yetirməyəcəklərindən qorxsanız, qadının boşanmaq üçün bir şey əvəz verməsində ikisinə də heç bir günah yoxdur. Bunlar Allahın hüdudlarıdır, onları aşmayın! Allahın hüdudlarını aşanlar – məhz onlar zalımlardır.” (əl-Bəqərə, 229)
3. Uca Allah, ölüm və ya boşanma səbəbi ilə həyat yoldaşından ayrılan qadına “iddə”ni vacib etmişdir. İddə, qadının hamilə olub-olmadığını anlamaq üçündür. Bu hökm, Allahın evlilik bağına və nəslin qorumasına verdiyi dəyəri göstərir. İslam hüquq terminologiyasında “iddə”, ərindən ayrılan qadının başqası ilə evlənməsi üçün gözləmə müddəti deməkdir.

| “İddə”nin hökmləri: | Boşanma səbəbi ilə dul qalan qadın: | Ərinin ölməsi səbəbi ilə dul qalan qadın: |
|---|---|---|
| Cinsi əlaqə olmadan ayrılıq olarsa | İddə (gözləmə müddəti) tələb olunmur. | İddə müddəti əl-Bəqərə surəsinin 234–cü ayəsinə əsasən 4 ay 10 gündür. |
| Qadın hamilə olduğu halda ayrılıq olarsa | İddəsi uşaq dünyaya gələnə qədərdir. | İddə müddəti uşaq dünyaya gələnə qədərdir. |
| Qadın hamilə qalmadan əvvəl ayrılıq olarsa | İddəsi 3 heyz (təmizlənmə) və ya 3 aydır. | İddə müddəti 4 ay 10 gündür. |

*Son olaraq xatırladaq ki, Cahiliyyət dövründə dul qalmış qadınlar 1 il başqa kişi ilə evlənə bilməzdilər və bu müddətdə yas içində olduqlarını göstərmək üçün qara geyinirdilər. Qədim hind adətlərində əri ölən qadın özünü yandırar, külü isə əri ilə birlikdə basdırılırdı. İslam dininə gəlincə, İslam nikah bağını ucaltmışdır.

Fəsil

7

# İnsan hüquqları

## BMT Ümumdünya İnsan Hüquqları Bəyannaməsi:

İnsan hüquqları əsas etibarilə təbii hüquqlardır və bu hüquqlar olmadan insan insan kimi yaşaya bilməz. İnsan hüquqları baxımından qadın və kişi arasında heç bir fərq yoxdur. Hər ikisi qanun və Allah qarşısında bərabərdir. Yaşamaq hüququ, təhlükəsizlik hüququ, azadlıq hüququ, şərəf hüququ və ədalətli mühakimə hüququ insan hüquqlarının ən təbii hüquqlarındandır.



# İNSAN HÜQUQLARI



## İslamda azadlıq, bərabərlik, ədalət və şəxsi hüquqların müdafiəsia

> "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır. Həqiqətən, Allah *hər şeyi* biləndir, *hər şeydən* xəbərdardır."
>
> *(əl-Hucurat, 13)*



**Köləliyin ləğvi, insan ləyaqətinin və azadlığının qorunması:** İslamdan əvvəl kölәlik sistemi təkcə Ərəbistan yarımadasında deyil, dünyanın bir çox yerlərində geniş yayılmışdı və cəmiyyətlərin sosial-iqtisadi strukturunun bir hissəsi idi. Bir çox cəmiyyətlərdə qullar bəzi insanların sərvətləri və malları arasında sayılırdı.

İslam dini isə köləliyə son qoymağa çalışmış və bu mövzuda təşviq edici amillər müəyyən etmişdir. Məsələn bu təşviqlərdən biri, günahların və bəzi dini pozuntuların kəffarəsini vermək və ya səbəbsiz yerə qula işgəncə verilməsinə qarşılıq olaraq, Allah rizası üçün bir qulun satın alınaraq azad edilməsinin tələb olunmasıdır. İslam dininin köləliyə son qoymaq üçün etdiyi bu təşviqlər, zamanla kölәlik sistemi ləğv olunana qədər davam etmişdir.



Rəvayət olunur ki, bir dəfə səhabədən Əbu Məsud əl-Bədri رضي الله عنه qulunu qamçı ilə döydü. Hz. Muhəmməd ﷺ onu görüb dedi: “Ey Əbu Məsud! Bilməlisən ki, Allahın sənin üzərində olan qüdrəti, sənin bu qul üzərində olan qüdrətindən daha böyükdür.” Bunun üzərinə Əbu Məsud رضي الله عنه sakitləşdi və üzrxahlıq etdi. Sonra o: “Mən bir daha heç bir qula əl qaldırmayacağam və bu qulu da Allah rizası üçün azad edəcəyəm” dedi. Hz. Muhəmməd ﷺ: “Əgər bunu etməsəydin, Cəhənnəm odu sənin üzünü yandırardı” dedi.

(Müslim, 1659; Bihər əl-Ənvar, 71/142)

**“Dində məcburiyyət yoxdur”** Hz. Muhəmməd ﷺ Rəbbinin risalətini təbliğ etmiş və heç bir məcburiyyət olmadan insanları tək olan Allaha iman gətirməyə, onun buyurduqlarına tabe olmağa və qadağan etdiklərindən uzaq durmağa çağırmışdır. Belə ki, haqq da, batil də bəllidir. Quran, insanların inanc azadlığı haqqına malik olduğunu təsdiq etmişdir. Allah insanları, varlığına dəlalət edən kainatdakı yaradılış ayələri üzərində düşünməyə və dərin təfəkkür etməyə dəvət etmiş və öz şəxsi qənaətləri nəticəsində Allahın hidayətini qəbul etməyə çağırmışdır.



“Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?”

*(Yunus, 99)*

“Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah *hər şeyi* eşidəndir, *hər şeyi* biləndir.”

*(əl-Bəqərə, 256)*

## İslamda bərabərlik və hüquqların qorunması

Hz. Muhəmməd ﷺ, miladi 632 ci ildə Məkkədə həcc ziyarətində olduğu zaman insanlarla vidalaşmağın və Rəbbinə qovuşmağın vaxtının yaxınlaşdığını hiss etmiş və bu səbəbdən məşhur "Vida xütbəsi"ni oxumuşdur. Hz. Peyğəmbər ﷺ xütbədə cahiliyyət dövründə yayılmış adət-ənənələrin ləğv edildiyini bildirmiş və müsəlmanların həm Allah, həm də mömin qardaşları qarşısındakı vəzifələrini çatdırmışdır.

Peyğəmbər ﷺ, belə demişdir: "Ey insanlar! Rəbbiniz birdir. Atanız da birdir. Hamınız Adəmin övladlarısınız, Adəm isə torpaqdandır. Ərəbin qeyri ərəb, qeyri ərəbin də ərəb üzərind üstünlüyü olmadigi kimi; qırmızı dərilinin qara dərili, qara dərilinin də qırmızı dərili üzərində bir üstünlüyü yoxdur. Allah qatında ən hörmətliniz Allahdan ən çox qorxanınızdır. Bunu sizə çatdırdımmı? Allahım şahid ol!”



(Musnəd Əhməd, 10/5526, 23972; Bihər əl-Ənvar, 73/350)

**"Ey insanlar!** Sözümü yaxşı dinləyin və yaxşı yadda saxlayın! Müsəlman Müsəlmanın qardaşıdır və beləcə bütün müsəlmanlar qardaşdırlar. Bir müsəlmana qardaşının qanı da, malı da halal olmaz. Lakin malını könül xoşluğu ilə vermişsə o başqadır. Əsla, məndən sonra yolunuzu azmayın və bir-birinizin boynunu vurmayın! Bu vəsiyyətimi, burada olanlar olmayanlara çatdırsın. Ola bilər ki, burada olan kimsə bunları daha yaxşı anlayan birinə çatdırmış olar. Sizə iki əmanət buraxıram, onlara sarılsanız heç yolunuzu azmazsınız. O əmanətlər, Allahın kitabı (Quranı Kərim) və Peyğəmbərin ﷺ sünnəsidir. Bunu sizə çatdırdımmı? Allahım, şahid ol!" (Musnəd Əhməd, 9/4795, 21026; Hakim, 1/93, 317; Beyhəqi “Sunən əl-Kubra”, 6/96, 11640)

## Qadın hüquqlarının qorunması

Vida xütbəsində Hz. Muhəmməd ﷺ qadın hüquqlarına bir daha diqqət çəkərək belə buyurmuşdur:

“Qadınlarla yaxşı davranmanızı və bu xüsusda Allahdan qorxmağınızı tövsiyə edirəm. Onlar sizin köməkçilərinizdir və özlərinə aid bir şeyə sahib deyillər. Siz qadınları, Allahın əmanəti olaraq aldınız və onların namusunu özünüzə Allahın əmriylə halal qıldınız. Qadınlar xüsusunda Allahdan qorxun və qadınlarınıza yaxşılıq edin. Bunu sizə çatdırdımmı? Allahım, şahid ol!” (Buxari, 5185; Muslim, 1468; Mustədrak əl-Vəsail, 14/204)

## Yetim hüquqlarının müdafiəsi



İslam dini, yetimləri böyüyüb öz işlərini qura biləcək yaşa çatana qədər (rəşid) himayə edib və onların hüquqlarını qoruyub. Bununla bağlı Allah təala tərəfindən ayə nazil edilib və ilahi əmrlə yetimlərin malının qoruması əmr edilib. Eyni zamanda ayədə (yetimin malına) pis niyyətlə yaxınlaşanlara ciddi xəbərdar olunub.



"Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və *beləcə*, onlar yandırıb-yaxan atəşə girəcəklər."

*(ən-Nisa, 10)*

Hz. Muhəmməd ﷺ insanları yetimə baxmağa, ona kəfil olmağa və böyüyənə qədər onu tərbiyə etməyə təşviq etmiş və şəhadət və orta barmaqlarını bir birinə yaxınlaşdıraraq belə demişdir:



"Mən və yetimi himayə edən cənnətdə belə (yan-yana) olacağıq." (Buxari, 4035, 5006; Mizan əl-Hikmə, 11/314)

## Varislərin hüquqlarının müdafiəsi... Üçdə biri, amma üçdə biri də çoxdur!



İslam dini varislərin hüquqlarını qoruyub saxlamış və ailədə tutduqları mövqeyə görə kişi və qadına vərəsəlikdən müəyyən pay vermişdir. İslam vərəsəlik sistemi bu mövzuda bir çox bəşəri sistemlərə universal istinad yeri olmuşdur. Çünki heç bir bəşəri və ya ənənəvi sistem İslamın gətirdiyi qədər incə və təfərrüatlı bir miras qanunu gətirməmişdir.

Rəvayət edilir ki, Səd bin Əbi Vəqqas رضي الله عنه zəngin bir adam idi. Xəstələnəndə Hz. Muhəmməd ﷺ onu ziyarət etdi. Səd رضي الله عنه Allah Rəsuluna ﷺ dedi: "Mənim çoxlu malım var və qızımdan başqa da varisim yoxdur. Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?" Rəsulullah ﷺ: “Xeyr” dedi. Səd رضي الله عنه: “Bəs yarısını (verə bilərəmmi)?” deyə soruşdu. Hz. Peyğəmbər ﷺ yenə “Xeyr” dedi. Səd رضي الله عنه: “Üçdə birini (verə bilərəmmi)?” deyə soruşdu. Hz. Peyğəmbər ﷺ ona belə dedi: "Üçdə birini (verə bilərsən). Əslində isə üçdə biri də çoxdur. Şübhəsiz ki, varislərini zəngin qoyub getməyin, onlar üçün onları kasıb və dilənçi vəziyyətində qoyub getməyindən daha xeyirlidir.” (Buxari və Muslim)

## Maddi hüquqların qorunması... Nə istismar, nə də monopoliya



Hz. Muhəmməd ﷺ insanları bu gün “şəxsi sərvətin istismarı” kimi bilinən fəaliyyətə dəvət etmişdir. Var-dövlətin müsəlmanların kiçik bir qrupunun əlində tutulmasına və ya hərəkətsiz saxlanılmasına razı olmayan Hz. Muhəmməd ﷺ, Quranda bildirildiyi kimi müsəlmanları ticarət və mudarəbə[1] ilə məşğul olmağa təşviq etmiş və sələmi qadağan etmişdir. Buna görə, bir şəxs başqa bir şəxsdən borc alırsa, borc verən yalnız əsas borcunu alar. Beləcə nə zülm edər, nə də zülmə məruz qalar. Hz. Muhəmməd ﷺ vida xütbəsində demişdir: "Cahiliyyət adətlərindən olan sələm ləğv olunmuşdur. Bu Allahın hökmüdür. Ancaq maya pulun sənindir". “Siz nə zülm edin nə də zülmə məruz qalın. İlk olaraq ləğv etdiyim sələm isə əmim Abbas ibn Abdulmuttalibin sələmidir.

> “...Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir... Allah sələmi puç edər, sədəqələri isə artırar. Allah küfr və günah işlərdə israr edən kimsələri sevməz.”
>
> *(əl-Bəqərə, 275-276)*



Burada “Muhəmməd” sözü ərəb dilində formativ üslubda və bədii şəkildə işlənmişdir. Xəttat Fərid əl-Əlinin əl işi.

---

[2] Bir tərəfin kapital, digər tərəfin isə işçi qüvvəsi ilə iştirak etdiyi ticarət fəaliyyəti

## Borcları ödəmək məcburiyyəti və əmanətə xəyanət etməmək

Hz. Muhəmməd ﷺ vida xütbəsində belə buyurmuşdur: "Ey insanlar! Şübhəsiz ki, Rəbbinizə qovuşana qədər sizin qanlarınız və mallarınız bu şəhərinizdə, bu ayınızda, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır. Bu əmrləri sizə çatdırdımmı?" Camaat bir ağızdan "Bəli" dedi. Peyğəmbər ﷺ buyurdu: "Allahım, şahid ol ki, mən onlara bu sözləri çatdırdım. Kimin yanında əmanət varsa, onu dərhal sahibinə qaytarsın." (Muslim, 1218; Vəsail əş-Şiyə, 35023)



"Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir."

*(ən-Nisa, 58)*

Səhabədən Sələmə bən Əkva رضي الله عنه rəvayəd edir ki, bir dəfə Peyğəmbərin ﷺ yanına bir cənazə gətirdilər ki onun cənazə namazını qıldırsın. Hz. Peyğəmbər ﷺ namazı qıldırmadan əvvəl soruşdu: "Onun borcu qalıbmı?" Səhabələr yox cavabını verdilər. Sonra Peyğəmbər ﷺ onun cənazə namazını qıldırdı. Bir müddət sonra daha bir cənazə gətirildi. Hz. Peyğəmbər ﷺ yenə soruşdu ki, onun borcu qalıbmı? Kimsə "bəli iki dinar" dedi. Buna görə Hz. Peyğəmbər ﷺ özü onun cənazə namazını qıldırmaqdan imtina etdi və səhabələrə: "Siz qardaşınızın namazını qılın" dedi. Camaatın arasından Əbu Qətadə رضي الله عنه, mərhumun borclarını ödəyəcəyini söylədi. Yalnız bundan sonra Peyğəmbər ﷺ onun cənazə namazını qıldırmağa razı oldu. (Buxari, Fəraiz, 15; Mustədrak əl-Vəsail, 13/345)

## İnsanlar qanun və məhkəmə qarşısında bərabərdirlər

Hz. Muhəmməd ﷺ insanların Allahın qanunu qarşısında bərabər olduğunu vurğulamışdır. Buna görə də cinayət törədən şəxs nəslindən, əslindən və cəmiyyətdəki mövqeyindən asılı olmayaraq cəzalandırılır. O, Əhli Beyt (Muhəmməd Peyğəmbərin ﷺ ailəsi) olsa belə, onun qanun qarşısında üstünlüyü yoxdur demişdir. Çünki qanunun tətbiqi insanlar arasında ədaləti, sabitliyi və ictimai asayişi təmin edir.

Bir dəfə Məxzum qəbiləsindən olan zadəgan bir qadın oğurluq etmişdi. Qureyşin ziyalıları bu hadisə ilə yaxından maraqlanır və qadının zadəgan olduğu üçün cəzalandırılmamasını istəyirdilər. Onlar belə qərara gəlirlər ki, Allah Rəsulunun ﷺ çox sevdiyi Usamə bin Zeyddən رضي الله عنه başqa heç kəs bu məsələdə həmin qadın üçün şəfaətçi olmağa cürət etməz. Usamənin رضي الله عنه Məxzumlu qadının cəzalandırılmaması ilə bağlı vasitəçiliyinə şiddətlə qarşı çıxan Peyğəmbər ﷺ belə deyir: “Allahın qoyduğu qanunların pozulması üçün məndən şəfaətmi istəyirsən?” Sonra ayağa qalxır və sözünə belə davam edir:

> "Ey insanlar! Sizdən əvvəlkilərin həlak olmasının səbəbi budur ki, əyanlardan biri oğurluq etdikdə cəzalandırılmaz, yoxsul və zəyif insanlar oğurluq etdikdə onlara əzab verərdilər. Allaha and olsun ki, əgər (qızım) Fatimə binti Muhəmməd oğurluq etsəydi, mütləq onun əlini kəsərdim”. (Buxari, Ənbiya, 54)



Xəttat İsam bin Abdulfəttahın əl işlərindən biri

> *(Heç bir günahkar başqasının günahını daşımaz. )*
> *(Fatir, 18)*

## Qərəzsiz məhkəmə, hökmdə ədalət... Tu'mə və yəhudi hekayəsi

Bir dəfə Tu'mə bin Ubeyrik adlı bir şəxs zireh oğurlayır. Zireh sahibi hadisəni aşkar etdikdə Tu'mə zirehləri götürüb yəhudi dostunun evində gizlədir və onu oğurlamadığına and içir. İnsanlar hər yerdə zirehi axtarırlar. Nəhayət, yəhudinin evində zireh tapılır və buna görə də o oğurluqda ittiham edilir. Yəhudi özünü müdafiə edir və zirehləri ona Tu'mə bin Ubeyrikin verdiyini deyir. Zəfəroğulları (Tu'mənin qəbiləsi) zireh yəhudinin evində tapıldığı üçün, Hz. Muhəmməddən ﷺ Tu'məni oğurluqda ittiham etməməsini istəyirlər. Bunun üzərinə ədaləti təmin etmək, haqqı aşkar etmək və insanlara ibrət olması üçün vəhy nazil olur. Uca Allah Öz Peyğəmbərinə ﷺ göndərdiyi ayə ilə yəhudinin bəraətini və Tu'mənin oğru olduğunu xəbər verərək həqiqəti ortaya çıxarır. (Tirmizi, 5/128, 3036; Hakim, Mustədrak, 4/385, 8256; əl-Burhan fi Təfsir əl-Quran, 4/246)

*"Doğrusu, Allahın sənə göstərdiyi kimi insanlar arasında hökm verəsən deyə, Biz sənə Kitabı haqq olaraq nazil etdik. Odur ki, xainlərin tərəfini tutma."*

*(ən-Nisa, 105)*



Türk Xəttat Həsən Çələbinin sülüs xətti ilə yazdığı lövhə

Uca Allah belə buyurur:

"İnsanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir."

(ən-Nisa, 58)

## İnsan həyatı müqəddəsdir və ona zərər vermək haramdır.

Şübhəsiz ki, canlılara öz ruhunu üfürməklə həyat bəxş edən və onları uca məqsədlər üçün yaradan Allah Təaladır. Allah heç bir canlını boş yerə yaratmamışdır. Kainatdakı hər bir məxluqun yaradılış məqsədinə uyğun bir vəzifəsi vardır və bu vəzifəni yerinə yetirir. İnsan isə Allahın əmr etdiyi kimi yer üzünü qurmaq və idarə etmək üçün bütün canlı və cansız varlıqların içindən xəlifə seçilmişdir.

Yaradılış möcüzəsi olan insan həyatını qorumaq, Allah dərgahında təqva və qorxu ölçüsünü göstərir. Buna görə uca Allah, məxluqatın şərəflisi və sultanı sayılan insanın haqsız yerə öldürülməsini böyük cinayət hesab etmişdir. Bu səbəbdən də yer üzündə törədilən ilk cinayət (Adəm peyğəmbərin oğlu Qabil, qardaşı Habili öldürmüşdür) hekayəsi Quranda belə yer alır:

"Buna görə də İsrail oğullarına yazıb buyurduq ki, kim bir cana qəsd etməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, bütün insanları öldürmüş kimi olar. Kim də onu *ölümdən* xilas edərsə, sanki bütün insanları xilas etmiş kimi olar. Peyğəmbərlərimiz onlara aydın dəlillər gətirmişdilər. Amma bun¬dan sonra da onların çoxu yer üzündə həddi aşdılar."

*(əl-Maidə, 32)*

*Yaradan Allahın izni və hökmü olmadan heç bir məxluqun başqa bir məxluqun canını almağa haqqı yoxdur.*



**İslamda qisas və intiqam üçün adam öldürmək haramdır.** İslam hər cür adam öldürməyi, o cümlədən qisas və intiqam məqsədi ilə adam öldürməyi haram etmişdir. Hz. Muhəmməd ﷺ vida xütbəsində bu məsələni açıqlamış və belə buyurmuşdur:

"Cahiliyyətdəki qan davaları ləğv edilmişdir. Mənim ləğv etdiyim ilk qan davası isə Amir bin Rəbiə bin əl-Haris bin Abdulmuttalibin qan davasıdır." (Tirmizi, 5/761, 7803; İbn Macə, 4/342, 5503)

Göründüyü kimi, Hz. Muhəmmədin ﷺ qan davasının ləğvinə ilk olaraq öz nəslindən birinin qan davası ilə başlaması olduqca diqqət çəkicidir.

**Qəsdən və ya səhvən öldürmənin hökmü:** İslamda qəsdən adam öldürməyin cəzası eyni əməllə cəzalandırılır. Yəni qəsdən adam öldürən edam edilir. Lakin qətl səhvən törədilibsə, o zaman qatil öldürdüyü şəxsin yaxınlarına "diyət" verir. Hz. Muhəmməd peyğəmbərin ﷺ dövründə diyət 100 dəvə idi. Bundan artığının diyət olaraq tələb olunmasını, Hz. Muhəmməd ﷺ cahiliyyət ənənələrinə qayıdış kimi qiymətləndirmişdir.

**"Öldürmək olmaz!"**

## Sizinlə döyüşənlərlə vuruşun, amma heç vaxt ifrata varmayın!

Hz. Muhəmməd ﷺ düşmən və əsirlərlə rəftarla bağlı bir sıra insani və əxlaqi qaydalar müəyyən etmişdir. Ordusuna bu qaydalara əməl etməyi əmr edən Hz. Muhəmməd ﷺ, Allahın ifratçıları və həddi aşanları sevmədiyini dəfələrlə xatırlatmışdır.

Əbu Davudun Ənəs ibn Malikdən رضي الله عنه rəvayət etdiyi səhih hədisdə deyilir ki, Muhəmməd peyğəmbər ﷺ ordunu döyüşə göndərdiyi zaman belə demişdir: "Allahın adı ilə yola çıxın. Qocaları, uşağları və qadınları öldürməyin. Heç vaxt ifratçılıq etməyin. Qənimətinizi toplayın. İslah edin və yaxşılıq edin. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər."

**"Mülki insanları, qadınları, qocaları və uşaqları öldürməyin!"**

**"Xurma və meyvə ağaclarını məhv etməyin!"**

> "Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevməz."
>
> *(əl-Bəqərə, 190)*

**İntihar böyük bir cinayətdir.** Hz. Muhəmməd ﷺ intiharın böyük bir cinayət olduğunu və intihar edən hər kəsin Allah tərəfindən şiddətlə cəzalandırılacağını açıq şəkildə bildirmişdir:




> “Kim özünü dəmir parçası ilə öldürərsə, cəhənnəmdə də davamli o dəmiri qarnına soxar və həmişəlik orada qalar. Kim zəhər içərək özünü öldürərsə, cəhənnəmdə də daim o zəhər içər və əbədi olaraq orada qalar. Kim özünü dağdan ataraq öldürsə, cəhənnəmdə də dağdan atılar və əbədi olaraq orada qalar.” (Buxari və Muslim; Vəsail əş-Şiyə, 24800)

## Hikmətlə gözəl öyüd-nəsihət:

Hz.Muhəmməd ﷺ insanlarla rəftarında yumşaq və nəzakətli olub və bu məsələdə həmişə fərqlənib. İki şey arasında seçim etmək məcburiyyətində qaldıqda həmişə asan olanı seçərdi. İslamın yayılmasında heç vaxt zorakılığa əl atmamışdır; O, bu məsələdə Allahın bu əmrlərini tətbiq etmişdir:

"De: “Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın...” (əl-Kəhf, 29)



"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et..." (ən-Nəhl, 125)

Hz. Muhəmməd ﷺ həlimlik/mülayimlik haqqında belə buyurmuşdur:

"Hansı bir işdə mülayimlik varsa o, mütləq onu gözəlləşdirər." Başqa bir rəvayətdə isə belə buyurmuşdur: (hansı) nir işdən mülayimlik götürülərsə, mütləq onu pis edər. Həqiqətən Allah mülayimdir və mülayimliyi də sevir. Sərtliyə görə vermədiyini mülayimliyə görə verir." (Muslim, Vəsail əş-Şiyə, 20478)





## SON QEYDLƏR



1. Nelson Mandela (demokratik Cənubi Afrikanın ilk prezidenti) müxtəlif irqlərdən olan insanlar arasında aparteid və ayrı-seçkiliyə qarşı mübarizə üçün gözəl nümunədir. Onun sayəsində Cənubi Afrika bütün insanların müxtəlifliyi ilə bir millət kimi birlikdə yaşamağı bacaran bir ölkə oldu.

   Quran təlimləri təsdiq edir ki, Allah insanları bir-birini tanımaq üçün müxtəlif millət və qəbilələrdən yaratmışdır. Ağdərili adamın qaradəriliyə, qaradərilinin də ağdəriliyə heç bir üstünlüyü yoxdur. Allah qatında üstünlük ancaq təqvadadır. “Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır.” (əl-Hucurat, 13)
2. Riyazu’s-Sâlihin, (1603/4), (1605/6)
3. İslam hüququ haqqında ətraflı məlumat üçün bax:

http://www.islamreligion.com/category/110/

http://www.islamhouse.com

4. Səhih əl-Buxari (34/8)
5. Səhih əl-Buxari (5778) və Səhih Muslim (109)



*Ərəbcə “Muhəmməd” sözündən bədii dizaynı. Fərid əl-Əlinin əl işi.*

Fəsil

8

# ətraf mühit



# HZ. MUHƏMMƏDİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA TƏLİMLƏRİ

Hz. Muhəmməd ﷺ Allaha imanla ətraf mühiti qorumaq arasında bir əlaqə qurmuşdur. Bütün kainatı yaradan uca Allah mülkün sahibidir. Yer də bu kainatın bir hissəsidir. Deməli, yer də Allahın mülklərindəndir. Onun üzərində yaşayanlar fanidir və ölməyə məhkumdur. Yerin və onun üzərində olanların hamısının tək sahibi yalnız Allahdır.

İnsan Allahın xəlifəsidir və yer üzü ona əmanət edilmişdir. Buna görə də insan, Allahın ona əmanət etdiyi bu evin (yerin) torpağına, bitkisinə, heyvanına, havasına, suyuna və ya hər hansı təbii sərvətinə necə zərər verə bilər?

Hz. Muhəmməd ﷺ ətraf mühitin qorunması ilə bağlı ümumi qaydalar qoymuşdur. Təbiət mövzusunda Hz. Peyğəmbərin ﷺ təlimlərini öyrənənlər bu təlimlərin elmi əsaslara söykəndiyini görəcəklər.





**Peyğəmbər ﷺ demişdir: “Bir müsəlman bir ağac və ya bitki əkər və ondan bir insan, heyvan yaxud quş yeyərsə qiyamət gününə qədər həmin adam üçün sədəqə olar.”**

**(Buxari və Muslim; Mustədrak əl-Vəsail, 13/18)**

## Bu təlimlərin bəziləri bunlardır:

- Ətraf mühitə və təbii sərvətlərə zərər verməmək
- Təbii ehtiyatlardan istifadə edərkən israf etməmək
- Ətraf mühitin təmiz saxlanmasına və çirkləndirilməməsinə diqqət yetirmək
- Təbii ehtiyatlardan istifadə edərkən şüurlu davranmaq və onların fayda və səmərəliliyini artıracaq şəkildə istifadə etməyə diqqət yetirmək.
- Əkinçilik, abadlıq və yenidənqurma ilə ətraf mühitin gözəlləşdirilməsinə töhfə vermək və əldə edilən xeyrləri yer üzündə yaşayanların istifadəsinə vermək.

**Təbiətdə daimi tarazlığın olması:**

Təbiət elementlərini (ünsürlərini) yaradan Uca Allah, onları həmişə mükəmməl tarazlıqda saxlamışdır. Yer üzündəki ruzi və yeməyin qədrini bilən, küləyin hərəkətinə və yağışın yağmasına nəzarət edən və buna görə bitkiləri cücərən və yaşıllaşdıran uca Allahdır. Uca Allah belə buyurur:

"*Bu*, hər şeyi kamil şəkildə edən Allahın işidir."

(ən-Nəhl,88)

"Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq."

(əl-Qəmər, 49)

"Onun yanında hər şeyin müəyyən ölçüsü var."

(ər-Rəd, 8)

**Təbii sərvətlərdən istifadədə insanlar bərabərdir.**

Təbii sərvətlər Allahın bəşəriyyətə bəxş etdiyi bir nemətdir. Bu sərvətlər şəxsi mülkiyyət deyilsə, inhisara alınması caiz deyildir. Hz. Muhəmməd ﷺ suy, örüş yeri və odun üçün istifadə olunan ağaclar kimi təbii sərvətlərdən istifadə etmək xüsusunda hamının şərikli olduğunu bildirmiş və bu sərvətlərdən istifadə edərkən bir-birilərinə mane olmamağı demişdir. Uca Allah buyurur:

"İçdiyiniz suyu gördünüzmü?! Onu buluddan siz endirirsiniz, yoxsa Biz?! Əgər istəsəydik, onu acı edərdik. Bəs nə üçün şükür etmirsiniz?! Yandırdığınız odu gördünüzmü?! Onun ağacını siz yaradırsınız, yoxsa Biz?!"

*(əl-Vaqiə, 68-72)*



"Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli*, xeyiri və bərəkəti bol olandır!"
(əl-Muminun, 14)

> "*Bütlər yaxşıdır,* yoxsa göyləri və yeri yaradan, sizin üçün göydən yağmur endirən *Allah*?! Biz o yağmurla gözəl bağçalar saldıq. Halbuki siz onların ağaclarını da böyüdə bilməzdiniz. Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onlar *haqdan* yayınan qövmdürlər."
>
> *(ən-Nəml, 60)*

## Zərər vermək də olmaz, zərər qarşı zərər vermək də olmaz!

Hz. Muhəmməd ﷺ ümumi bir qayda qoymuş və bildirmişdir ki, istər qəsdən olsun, istər də qəsdsiz insan ətrafındakılara, o cümlədən cansızlara, bitkilərə və heyvanlara zərər verməməlidir. Çünki İslam dini "fayda əldə etmək və zərəri dəf etmək" prinsipi üzərində qurulmuşdur. Odur ki insan, başqalarına zərər verməməli, habelə başqalarından da zərər görməməlidir.

**Ətraf mühitə zərər vermək olmaz!**

> Rəsulullah ﷺ buyurur: "Zərər vermək də, zərərə qarşılıq zərər vermək də olmaz!". Başqa bir rəvayətdə isə "Zərər vermək yoxdur, zərərə qarşılıq zərər vermək də olmaz. Kim zərər versə, Allah ona zərər verər. Kim (insanları) çətinliyə salsa, Allah da onu çətinliyə salar". (Malik; Hakim; Təbarani)



*Küveytli Xəttat Fərid Əli tərəfindən yarpaq şəklində yazılmış "Muhəmməd" lövhəsi*

"İman yetmiş və bir neçə dərəcədən ibarətdir. Ən üstün dərəcəsi "Lə iləhə illəllah" kəlməsini deməkdir. Ən aşağı dərəcəsi isə, insanlara əziyyət verən bir şeyi yoldan götürməkdir. (Buxari, 9; Muslim, 35; Dəaim əl-İslam, 2/396)

## İsrafçılıq və malı hədər etmək olmaz!



İslam dini təmizliyi və paklığı əmr edir, israfı isə qadağan edir. Bir çox hədisdə Hz. Muhəmməd ﷺ ümumiyyətlə israfçılıqdan çəkinməyi vurğulamışdır. Hətta dəstəmazı axar çayın yanında alsanız belə, israf etməyin deyə buyurmuşdur. Həmçinin suyu sidik kimi nəcis şeylərlə çirkləndirməyi də qadağan etmişdir. Çünki su həyatın əsasını təşkil edən və bədəni xəstəliklərdən qoruyan bir elementdir. Buna görə də suyun təmiz saxlanması böyük əhəmiyyət kəsb edir.



"...Hər bir canlını sudan yaratdığımızı görmürlərmi?"

*(əl-Ənbiya, 30)*

"Biz göydən tərtəmiz su endirdik."

*(əl-Furqan, 48)*

"Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, *Allah* israf edənləri sevmir."

*(əl-Əraf, 31)*

"Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur."

*(əl-İsra, 27)*

**Təbiətdə müsbət izlər buraxmaq:** İslamda ibadət anlayışı yalnız namaz və dua kimi mənəvi ibadətlərlə məhdudlaşmır. Allahın qoyduğu qaydalar çərçivəsində işləmək, yer üzünü abadlaşdırmaq, məxluqat qarşısında məsul olmaq və onlara faydalı olmaq da ibadət sayılır.

Allahın rizasını qazanmaq niyyəti ilə, təbiətdə davamlı bir şəkildə müsbət iz buraxmağın əhəmiyyətinə işarə edən Peyğəmbərimiz ﷺ, bunun üçün mühüm təşviqlər bildirmişdir: Hz. Peyğəmbər buyurdu ki: "Yolda insanlara əziyyət verən bir şeyi kənara atmaq kimi sadə işdən tutmuş, ətraf mühitin yaşıllaşdırılmasına qədər hər bir müsbət davranış "sədəqə" sayılır.





**Təbiətə dəyər ver!**

Hz.Muhəmməd ﷺ müsəlmanları təbiətə qarşı həssas olmağa təşviq edərək belə demişdir:

“Əgər birinizin əlində əkmək istədiyi bir ağac varsa, Qiyamət qopacağını bilsə də o ağacı əkməkdən imtina etməsin və tez bir zamanda əksin." (Musnəd Əhməd, 6/2727, 13100; Mizan əl-Hikmə, 5/11)

“Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də *başqalarına* yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir.”

*(əl-Qəsəs, 77)*



*Yarpaq şəklində yazılmış “Muhəmmədun rəsulullah” (Muhəmməd ﷺ Allahın elçisidir) yazısı. Lövhə, rəssam Mahmud əl-Hac Yunusun əl işidir.*

# Heyvanlara qarşı mehriban və mədəni rəftar

## Yeriyen heyvanlar, sürünənlər və quşlar da bizim kimi topluluqdur:

Topluluq deyəndə əsasən ağıla ortaq dil, adət-ənənə və xüsusiyyətlərə malik insan qrupları gəlir. Bununla belə müasir elm, arı və qarışqa kimi bir çox canlı qrupunun inanılmaz bir ictimai nizam və intizam içində yaşadığını kəşf etmişdir. Müasir elmin yenicə kəşf etdiyi bu həqiqəti Allah on dört əsr əvvəl quranda bildirmişdir. Quran, digər məxluqların da bizim kimi "ümmət/topluluq" olduğunu və onların yaradılış məqsədlərinə uyğun olan öz qanunları və dilləri olduğunu bəyan etmişdir.

> "Yer üzündə gəzən heyvanların və *göydə* iki qanadı ilə uçan quşların hamısı sizin kimi ümmətlərdir. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanacaqlar."
>
> *(əl-Ənam, 38)*



## İslamda halal ət anlayışı

Halal ət!

İslam dini Allahın əmri olmadan heyvanların öldürülməsini qadağan edir. Allahın izni ilə və qoyun, inək, camış, dəvə, toyuq, quş və Alahın, yeyilməsini halal buyurduğu ət yeməyən digər heyvanları Allahın adını çəkərək (Bismilləh deyərək) kəsib yemək icazəlidir. Müsəlmanlar, ot yeyən təmiz heyvanların ətini yeyir. Donuz və yırtıcı heyvanların ətini isə yemirlər. Məsələn, göyərçin əti yeyirlər, şahin əti yox. Qoyun əti yeyirlər, amma pişik ətini yox.

## Halal ət kəsimi mədəniyyəti:

İslamda halal ət kəsimi "Təzkiyə" üsulu ilə edilir. Bu üsul, Allahın adını çəkərək heyvanın nəfəs borusu ilə yemək borusunu və onların yanındakı iki damarı iti alətlə (bıçaq, kəsici alət, ülgüc vs.) sürətlə kəsilib qanın axıdılmasıdır.

Heyvan kəsməyin də öz ədəbi və əxlaqı var. Kəsiləcək heyvan başqa heyvanların yanında kəsilməməlidir. Bir gün bir nəfər başqa heyvanların gözünün qabağında bir qoyun kəsməyə hazırlaşırdı. Bunu görən Hz. Muhəmməd ﷺ dərin mənaları olan bu sözləri dedi: "Onu dəfələrlə öldürmək istəyirsən!?" (Yəni, digər heyvanları onun yanında kəsərək ona dəfələrlə ölüm qorxusu yaşadırsan). Başqa bir rəvayətdə Hz. Muhəmməd ﷺ buyurur: "Allah hər bir şeylə gözəl davranmağı əmr etmişdir. Elə isə birisini öldürdükdə, onu gözəl şəkildə öldürün. Habelə heyvan kəsdikdə onu gözəl tərzə kəsin. Sizdən biriniz bıçağını itiləsin və kəsdiyi heyvanı rahatlasın." (Hakim, Mustədrək, 4/231, 7658; Mizan əl-Hikmə, 3277)

Balığa gəlincə: İslam dininə görə; Ovla əldə edilən balıqları başını kəsmədən də yemək halaldır. Hz. Muhəmməd ﷺ dəniz və onun içindəkilər haqqında belə buyurmuşdur: "Dənizin suyu pak, ölmüş heyvanları isə halaldır" (Buxari və Muslim; Dəaim əl-İslam, 1/108)






## Hz. Muhəmmədin ﷺ heyvanlara mehriban rəftarla bağlı təlimləri:



Heyvanları yaradan Allah, at, dəvə, inək, qoyun kimi bir çox heyvanı insanın xidmətinə vermişdir. Buna görə: İslam dini heyvanlara işgəncə və əziyyət edilməməsini əmr edir. Hz. Muhəmməd ﷺ heç bir səbəb olmadan heyvanların zəncirlənməsini və həbs edilməsini, üzünə vurulmasını, zorla balasının salınmasını, lazımsız yerə yormağı, həddindən artıq ağır yük yüklənməsini, cahiliyyət dövründə olduğu kimi diri ikən bədəninin bir hissəsinin kəsilməsini və səbəbsiz yerə öldürülməsini qadağan etmişdir. Bir rəvayətə görə, Peyğəmbər ﷺ ağır yük altında bir dəvənin inildədiyini görərək dəvə sahibinə heyvanlara qarşı necə davranacağını öyrətmişdir.

Səhabədən Abdullah ibn Cəfər رضي الله عنه rəvayət edir ki: Bir gün Rəsulullah ﷺ Ənsar bağlarından birinə daxil oldu. Qarşısında bir dəvə çıxdı. Rəsulullah ﷺ onun inlədiyini və göz yaşı tökdüyünü gördü. Hz. Peyğəmbər ﷺ boynunu və qulağına sığal çəkdikdən sonra dəvə sakitləşdi. Rəsulullah ﷺ: "Dəvənin sahibi kimdir?" dedi. Ənsardan bir gənc gəlib dedi: “O dəvə mənimdir, ey Allahın Rəsulu!” Rəsulullah ﷺ: dedi: "Sənə əmanət verilən bu heyvan haqqında Allahdan qorxmursanmı? O, mənə şikayət edir ki, sən onu ac qoyursan və onunla sərt davranırsan." (Əbu Davud, 2/328, 2549; Musnəd Əhməd, 1/446, 1779)

## Hz. Muhəmməd ﷺ heyvanlara şəfqətlə davranmaq mövzusunda praktiki dərslər verirdi:

Abdullah ibn Məsudun رضي الله عنه rəvayət etdiyi bir hədisdə belə buyurulur: “Rəsulullah ﷺ bir qrup səhabə ilə birlikdə səfərə çıxmışdı. Yolda üstündə quş yuvası olan bir ağaca rast gəldilər. Yuvada bir neçə dənə quş balası var idi. Səhabələrdən biri “əl-həmra” (bir növ göyərçin) adı ilə tanınan quşun balalarını yuvadan götürdü. Bunu görən ana quş fəryad etməyə başladı. Quşa yazığı gələn Hz. Muhəmməd ﷺ, səhabələrinə quş balalarını analarının yanına qoymağı əmr etdi. (Əbu davud, 3/8, 2675)

## Heyvanlarla mehriban davranmaq mədəniyyətdir... Heyvanlarla yaxşı davrananı Allah mükafatlandırar.

Heyvanlara mərhəmət göstərilməsinə dair ibrətamiz və konkret misallar verən Hz. Muhəmməd ﷺ bir hədisində belə demişdir: "Bir dəfə bir kişi yolda gedirdi. Bu adam bərk susamışdı. Birdən qarşısına su quyusu çıxır və quyuya düşüb su içir. Çıxanda quyunun başında bir it gördü. İt quyunun başında, susuzluqdan dilini sallayıb ləhləyirdi. Kişi itin bu halını görüb dedi: "Yəqin bu it də mənim kimi susuzdur." Sonra yenə quyuya endi ayaqqabısını çıxarıb su ilə doldurdu və itə su verdi.  Onun itə yaxşılığı Allahın çox xoşuna gəldi və onu bağışladı.” (Buxari, 2466, 6009; Muslim, 2244)

Allah Rəsulu ﷺ buna əks nümunəni də verir: “Bir qadın bir pişik üzündən Cəhənnəmə girdi. Qadın pişiyi həbs elədi, nə o pişiyə yemək, su verdi, nə də onu buraxdı. Və pişik acından öldü. O qadın da buna görə Cəhənnəmə girdi.” (Buxari, Müsaqat, 9)



Fəsil

# 9

# MÖCÜZƏ

“Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən *nazil edilmiş*, içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir. Yoxsa: “*Muhəmməd* onu özündən uydurdu?!”– deyirlər. De: “Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, *köməyə* çağırın!”
(Yunus, 37-38)





# Hz. Muhəmmədi ﷺ təsdiq edən möcüzə: Qurani Kərim



Hz. Muhəmməd ﷺ, insanların Rəbbindən bütün insanlara səmavi bir mesajla gəldi. Bu mesaj Allah tərəfindən Cəbrayıl vasitəsilə Muhəmmədə ﷺ göndərilən, ərəb dilində olan aydın və bəlağətli Quran ayələri idi. Tədricən enən bu ayələr 23 ildə tamamlanmış və Qiyamətə qədər dəyişməyəcək son və tam şəklini almışdır. Bu, əlimizdə olan Qurani Kərimdir. Muhəmmədin ﷺ çağırışı ümumbəşəri idi. O sadəcə öz qövmünə deyil, bütün bəşəriyyətə peyğəmbər olaraq göndərilmişdi. Ona görə də Hz. Muhəmməd ﷺ, Misir, Həbəşistan, Sasani və Bizans kimi Ərəbistan yarımadasının hüdudlarından kənarda yerləşən ölkələrin krallarına məktublar və elçilər göndərərək onları İslama dəvət edirdi. İslama dəvət olunanlar müxtəlif dillərdə danışan, müxtəlif irq və mədəniyyətlərə mənsub olan xalqlar və millətlər idi. Muhəmməd peyğəmbərin ﷺ, ərəb olmayan xalqları ərəbdilli səmavi risalətə inandırması asan olacaqdımı?

> "Onlar Quran barəsində düşünmürlərmi?! Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar."
>
> *(ən-Nisa, 82)*

## Quran niyə əbədi möcüzə sayılır?

Müsəlmanlar Quranın əbədi bir möcüzə olduğuna inanırlar. Çünkü Qurani Kərim uca Allahın bəşəriyyəti doğru yola istiqamətləndirmək üçün Öz əziz peyğəmbərlərinə göndərdiyi möcüzələr içərisində əbədilik sifəti ilə vəsf edilən yeganə möcüzədir. Uca Allah Özünün bu müqəddəs və əbədi olan səmavi kitabının təhrifdən və bəşəriyyətin müdaxiləsindən salamat qalmasını istəyib və onu qoruyub. Buna görə də, Qurani Kərim insanların əlində olan yeganə müqəddəs ilahi kitabdır. Qurani Kərim təhrifdən uzaq olduğu üçün misilsiz etibar və dəyərə malik olaraq ən yüksək yerdə durur.



Quran, insanların asanlıqla oxuya, başa düşə, toxuna və nəsildən-nəslə ötürə bildiyi, içində Allahın kəlamı və hidayəti olan bir kitabdır. Quranın müəllifi yoxdur. Çünki o Allahın kəlamıdır. Müsəlmanlar 23 il ərzində Quranı Hz. Muhəmmədin ﷺ ağzından dinlədilər və əzbərlədilər sonra da Hz. Peyğəmbərin ﷺ nəzarətində (göydən endiyi kimi, əskiksiz və hər hansı bir şey əlavə etmədən) yazdılar.



> "De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər."
>
> *(əl-İsra, 88)*

## Quranın qorunub saxlanması möcüzədir.

Hz. Muhəmməd ﷺ Əli bin Əbi Talib رضي الله عنه, Ubey ibn Kəb رضي الله عنه və Zeyd bin Sabit رضي الله عنه kimi bəzi səhabələrini vəhy katibləri təyin etmişdi. Lakin Quran ayələrinin yazıldığı vərəqlər hələ kitab halına gətirilməmişdi. Peyğəmbərin ﷺ vəfatından sonra Yəmamə müharibəsində Quran hafizlərinin kütləvi şəkildə şəhid olması Quranın kitab kimi gələcək nəsillərə ötürmək zərurətini gündəmə gətirdi. Bu səbəbdən Hz. Əbu Bəkr رضي الله عنه Hz. Ömərin رضي الله عنه təklifiylə Quran səhifələrini bir kitabda toplamağa qərar verdi. Hz. Osman رضي الله عنه, isə öz hakimiyyəti dövründə Quran nüsxələrini çoxaltdı.

İslam dövləti gücləndikcə şərqdə və qərbdə qısa müddətdə bir çox yerlər fəth edilmiş ərəb olmayan xalqlar da İslam dini ilə şərəflənmişdilər. Buna nəzərə alan Hz. Osman رضي الله عنه, yeni müsəlmanların dinlərini öyrənmələri üçün Quranı çoxaldıb hafizlərin müşayiəti ilə fəth edilmiş yerlərə göndərdi.



*Bu lövhədə Ğafir surəsinin 60-cı ayəsi olan, **"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər." ayəsinin bir hissəsi yazılıb.***

Bu gün müsəlmanların əlində olan Quran 14 əsr əvvəl Muhəmməd Peyğəmbərə ﷺ nazil olan Quranla tamamilə eynidir. Çünki Quran əsrlər boyu davamlı olaraq saysız-hesabsız hafizlər vasitəsiylə əzbərləmə yolu ilə nəsildən-nəslə ötürülmüşdür və bunlar arasında qətiyyən heç bir ziddiyyət yoxdur. Əql qəti şəkildə hökm edərək deyir ki, belə bir kitabın təhrif edilməsi, ona bir şeyin artırılıb-azaldılması qeyri-mümkündür.



**Qurani Kərimin Muhəmmədin ﷺ hədislərindən ayrılması və Quranla Sünnənin fərqi.**

Hz. Muhəmmədin ﷺ sözləri, yalnız və yalnız Allahın kəlamını ehtiva edən Qurana əsla qarışmamışdır. Hz. Muhəmmədin ﷺ kəlamları və təlimləri "Peyğəmbərin hədisləri" və ya "Qəvli (şifahi) sünnələr" adı altında ayrıca toplanmışdır.

Peyğəmbərin ﷺ səhabələri, Hz. Muhəmmədin ﷺ ibadətlə bağlı fellərini, məsələn, üsulları ilə namazı necə qıldığını, həccini necə yerinə yetirdiyini diqqətlə izləyib, "Feli hədislər" adı ilə nəqledirdilər. Səhabələr Hz. Peyğəmbərin ﷺ, başqalarının söz və ya hərəkətlərini qəbul etməsini və ya bu şeylərə susmasını isə "Təqriri Sünnə" adı altında toplamışdılar.

Xülasə: Allahın kəlamını ehtiva edən kitaba "Quran", Hz. Peyğəmbərin ﷺ söz və hərəkətlərinə, habelə başqalarından qaynaqlanan söz və hərəkətlərə susmasına və ya onları təsdiq etməsinə isə ümumiyyətlə "Sünnə" deyilir.




**Hz. Peyğəmbərin ﷺ hədisləri ilə digər dinlərin kitablarının müqayisəsi.**

Bəzi tədqiqatçılar; Deyirlər ki, İslamdan başqa dinlərdə də peyğəmbərin sözləri müqəddəs kitaba bərabərdir. Səbəb kimi hər iki kitabın insan sözü və ifadəsi ilə yazıldığını göstərirlər.

Məsələn: Xristianların müqəddəs kitabı Əhdi-Cədidin 4 İncili Matta, Markos, Luka və Yuhanna tərəfindən yazılıb və hər incilə də müəllifinin adı verilib. Əhdi-Ətiq isə eramızdan əvvəl 1400-1800-cü illər arasında 40 katib tərəfindən yazılmışdır.

Hz. Muhəmməd ﷺ, vəhy ilə nazil olan ayələrlə öz sözlərini ayırd etmişdir. Quranda mütəkəllim (danışan) Allah Təala olduğundan, Quran ayələrinin insan kəlamından çox fərqli olduğu açıq şəkildə görünür. Məsələn, Quranda “نحن / Biz” və “إِنَّا /Şübhəsiz ki biz” əvəzlikləri və “قُلْ / (Ey Muhəmməd onlara) de ki”, mənasını verən əmr feli çox tez - tez işlənir.

**Quranın qiraət üslublarının qorunub saxlanması möcüzədir.**
Quran tilavəti “Təcvid” sözü ilə bağlıdır. Təcvid isə hərflərin (məxrəclərin) mənşəyinə və sifətlərinə əməl edərək Quranı asta-asta oxumağı (tərtil) öyrədən elmə verilən addır. İlk müsəlmanlar Quran oxumağı birbaşa Hz. Muhəmməddən ﷺ öyrənmişlər.

Təcvid qaydaları ilk dəfə hicri 154-cü ildə yazılmış və zaman keçdikcə genişlənərək hicri 4-cü ildə özlüyündə bir elm halına gəlmişdir. Ərəb hərflərinin səs quruluşunu öyrədən Təcvid elmi, latın əsaslı Avropa dillərinin (latın, fransız, italyan, ispan, portuqal və rumın) səs quruluşunu öyrənən elm sahəsindən düz min il əvvəl yaranmışdır.



Təcvid elminin bütün rəvayətləri, Quran oxumağı vəhy mələyi Cəbrayıldan öyrənən Hz. Muhəmmədə ﷺ əsaslanır. Səhabələr Quran oxumağı Peyğəmbərdən ﷺ öyrəndilər. Səhabələrdən sonra gələn nəsil olan tabiin də, Quran oxumağı öz üsullarına uyğun olaraq səhabələrdən öyrənmişdir. Beləcə təcvid elmi, Quranı qiraət üsullarına uyğun olaraq oxumağa müvəffəq olmuş şəxslərə sənəd və ya icazət verilməklə etibarlı mənbələr (Qari/Ravilər) tərəfindən nəsildən-nəslə ötürülmüşdür.

Buradan da anlayırıq ki, bu gün əlində icazət olan bir Quran hafizin ilk ustadı Hz. Muhəmməddir ﷺ. Belə ki, Müsəlman alimləri Allahın bütün bəşəriyyətə xitabı olan Quranın böyük bir əmanət olduğunu bilirdilər. Buna görə də, Quranın tilavət üsullarını birinci rəvayətdə olduğu kimi müəllimin ağzından şagirdin qulağına çatdırmaq üçün çox səy göstərirblər. Şübhəsiz ki, nəsillər boyu böyük qayğı ilə görülən bu iş bir möcüzədir və Quranın digər səmavi kitablardan üstün olduğunu ortaya qoyur.

**“Təcvid Quranı Kərimə xas bir elmdir.”**

### Ərəb dili Quran dilidir.

Qurani Kərim, açıq-aydın bir dil olan ərəb dilində nazil olmuşdur. Dillərindən, irqlərindən və millətlərindən asılı olmayaraq bütün müsəlmanlar Quranı səmadan nazil olduğu kimi ərəbcə oxuyur və Qiyamətə qədər də bu şəkildə oxuyacaqlar. Dilçi alimlər müəyyən etmişlər ki, çox zəngin kəlimə xəzinəsinə malik olan ərəb dilinin, dil quruluşundakı genişlik və qanunauyğunluq, sözlərin dərin mənaları və üslubunda xoş səslənən gözəlliyi (bəlağət) ilə digər dillərdən üstündür. Bu təsbit ərəb dilinin Allahın kəlamını ən gözəl şəkildə çatdıra bilən bir dil olduğunu ortaya qoyur.



Ərəb dilində bəzən bir sözdən 100 söz əmələ gəldiyi görülür. Sözə əlavə olunan hər bir əlavə hərf həmin sözün mənasını gücləndirir. Dilçilər, ərəb dilində törəmələri ilə birlikdə 6 milyon kəlimənin olduğunu müəyyən ediblər. Bu rəqəm, dünyada geniş istifadə olunan bir çox dillərdəki sözlərin sayından çoxdur.

Ərəb dilinin başqa bir xüsusiyyəti də başqa dillərdə olmayan “Dâd” kimi hərflərin olmasıdır. Ərəb hərfləri tarix boyu xəttatlıq sənətçilərini ilhamlandırmış və nəticədə füsunkar gözəlliyə malik gözəl xətt lövhələr ortaya çıxmışdır.



# Quranda elmi həqiqətlər

## Böyük partlayış və kainatın yaradılması nəzəriyyəsi.

Hz. Muhəmməd ﷺ dövründə insanların kainatın yaradılması, planetlərin hərəkəti, yerin dairəvi və ya düz olması haqqında heç bir məlumatı yox idi. Müsəlmanlar inanırdılar ki, kainatın yaradıcısı Uca Allahdır və kainatın necə yaradıldığını yalnız O bilir. Quran kainatın yaradılmasını, günəşin və ayın hərəkətini, yerin fırlanmasını, gecə və gündüzün əmələ gəlməsini düz 14 əsr əvvəl möcüzəvi şəkildə xəbər vermişdir.



Digər tərəfdən, müasir elm adamları, apardıqları müşahidə və təcrübələr nəticəsində əldə etdikləri məlumat və hesablamalara əsaslanaraq, kainatın böyük partlayış, "Big Bang" nəticəsində əmələ gəldiyini iddia edirlər. Bu nəzəriyyəyə görə, Partlayışdan əvvəl kainat nəhəng enerji ehtiva edən tək bir kütlə (Big Mass) idi. Böyük partlayış baş verəndə maddənin elementlərini ehtiva edən qara tüstü/isti qaz kütləsi meydana çıxdı. Bu sıx tüstü və ya qaz kütləsi soyuduqdan sonra, planetləri, qalaktikaları, ulduzları və digər göy cisimlərini, o cümlədən yer kürəsini meydana gətirmişdir.







## Kainatın genişlənməsi

Astrologiya alimləri öz nəzəriyyələrini uzun illər apardıqları müşahidələr və təcrübələr nəticəsində əldə etdikləri məlumatlar əsasında qururlar. Amerikalı astronom Edvin Hubble 1925-ci ildə elmi dəlillərlə illər boyu apardığı müşahidələr nəticəsində ulduzların bir-birindən uzaqlaşdığını, yəni kainatın genişləndiyini nümayiş etdirdi. Edvin Hubble sübut etdi ki, öz oxları üzərində fırlanan planetlər də günəş ətrafında elliptik dairələr çəkirlər.

Kainatın yaradılması məsələsində müasir elmin etdiyi kəşflərlə 14 əsr əvvəl Hz. Muhəmmədə ﷺ nazil olan və əsli bu günə qədər qorunub saxlanılan Quran ayələri arasındakı böyük oxşarlığı görəndə insan heyrətə gəlir! Qurani Kərim kainatın yaranması, günəşin və ayın hərəkəti, yerin fırlanması, gecə ilə gündüzün əmələ gəlməsi hekayəsini heyrətamiz şəkildə qeyd etmişdir.

*(Növbəti səhifədəki ayələrə baxın)*



“Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar?”
(əl-Ənbiya, 30)

“Sonra O, tüstü halında olan göyə tərəf yönəlib ona və yerə buyurdu: “Könüllü surətdə və ya məcburi olaraq gəlin *əmrimə boyun əyin!*” Onlar: “Könüllü olaraq gəldik!”– dedilər.”
(Fussilət, 11)



“Gecəni, gündüzü, günəşi və ayı yaradan Odur. Onların hər biri öz orbitində üzür.”
(əl-Ənbiya, 33)

“Biz göyü qüdrətlə yaratdıq və Biz onu genişləndiririk. Yeri də Biz döşədik. Nə gözəl döşəyənlərik Biz!”
(əz-Zariyat, 47-48)



# Hubuk

## Qüvvələr və Maqnit Sahələrinin Kosmik Şəbəkəsi

Kainat nəhəng cazibə və impuls qüvvələri, eləcə də mürəkkəb maqnit sahələri şəbəkəsi tərəfindən bir yerdə saxlanılır. Halbuki, Quran əz-Zariyat surəsi 7-ci ayədə mükəməl toxunmuş və ya bir-birinə qarışmış parça mənasını verən, ərəbcə "Hubuk" sözündən ibarət olan səmanı açıq şəkildə təsvir edir. Müasir elm kainatın cazibə və maqnit qüvvlərindən ibarət olduğunu təsdiqləyit. Kosmik şəbəkə və ya "Hubuk" haqqında daha çox öyrənmək üçün bu videoya baxın.

Watch me!
Hobok: The cosmic web

**İnsanın yaranması və embrionun (dölün) inkişafı:** Quran Kərim insanın yaranması və dölün inkişafı haqqında heyrətamiz şəkildə ətraflı məlumat verir. Belə ki, insanların bu məlumatı 14 əsr əvvəl bilməsi mümkün deyildi. Məsələn, əz-Zümər surəsinin 6-cı ayəsində ana bətnində 3 qaranlıq təbəqənin olduğu bildirilir:

> "O sizi analarınızın bətnində üç zülmət içərisində yaranış ardından yaranışa salaraq yaradır. Bu sizin Rəbbiniz olan Allahdır. Mülk Ona məxsusdur. Ondan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Siz necə də *haqdan* döndərilirsiniz!"
>
> *(əz-Zumər,6)*



Dölün ana bətnində inkişafını araşdıran embriologiya alimi, embrionu əhatə edən 3 qaranlıq bölmənin olduğunu və bu bölmələrin qoruyucu kisə rolunu oynadığını aşkar edib. Bu üç təbəqə: Qarın qatı, uşaqlıq və pərdədir.





Qurani Kərim insanın yaradılış möcüzəsini və onun rüşeym inkişafını belə təsvir edir:




> “Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq; sonra o qandan bir parça ət yaratdıq; sonra o bir parça ətdən sümüklər yaratdıq; sonra da sümükləri ət ilə örtdük; sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli*, xeyiri və bərəkəti bol olandır!”
>
> *(əl-Muminun, 12-14)*



Embriologiya elmi sayəsində inkişaf etmiş tibbi cihazların köməyi ilə, ana bətnində olan dölün inkişaf mərhələləri ilə bağlı əldə olunan biliklərin, Quran ayələri ilə tamamilə üst-üstə düşməsi olduqca heyrətamizdir. Muhəmməd peyğəmbərin ﷺ dövründə heç bir qabaqcıl texnologiyadan söhbət gedə bilməzdi. Buna görə də onun dölün inkişafını izləməsi mümkünsüz idi. Belə olan halda o döl haqqında bu qədər ətraflı və dəqiq məlumatı hardan əldə etmişdir. Bunun yeganə cavabı var, ancaq o dölü yaradan Allah ona bunu xəbər vermişdir.

Quranda bəhs edilən heyrətamiz həqiqətlərdən biri də sümüyün ətdən əvvəl, eşitmə duyğusunun isə görmə duyğusundan əvvəl əmələ gəlməsidir. Bu həqiqəti müasir tibb yalnız 20-ci əsrin ikinci yarısında kəşf etmişdir.

"Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli*, xeyiri və bərəkəti bol olandır!"

*(əl-Muminun,14)*

"Sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz!"

*(əs-Səcdə, 9)*

"Biz insanı qarışıq nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik."

*(əl-İnsan, 2)*

"Sizin üçün qulaq, göz və ürəklər yaradan Odur. Siz çox az şükür edirsiniz."

*(əl-Muminun,78)*

## Quranda bəzi rəqəmlər haqqında Elmi sübutlar var:

309

Quranda, mağaraya sığınan və Allahdan başqasına sitayiş edənlərdən qaçan bir qrup mömin gəncdən bəhs edilir.

əl-Kəhf/Mağara surəsində "Mağara əhli" olaraq təsvir edilən bu gənclər, Allah tərəfindən dərin yuxuya daldırılmış və uzun illər sonra yenidən oyandırılmışdır. Həmin surənin 25-ci ayəsində Allaha iman gətirən bu gənclərin mağarada 309 il dərin yuxuya getdikləri bildirilir.

"Onlar mağarada üç yüz il, üstəlik doqquz *il də* qaldılar."

*(əl-Kəhf, 25)*

Quran nazil olan dövrdə ərəblər günəş təqvimini (Qriqorian və ya Miladi) tanımırdılar. O dövrün ərəbləri günəş təqvimindən 11 gün az olan Ay təqvimindən istifadə edirdilər. Müasir hesablar isə günəş təqvimində 300 ilin ay təqvimində 309 ilə uyğun gəldiyini sübut edir. Bu hesablama 14 əsr əvvəl Quranda "Onlar mağarada üç yüz il, üstəlik doqquz *il də* qaldılar." ifadəsi ilə bildirilmiş və gənclərin mağarada yatdıqları müddət həm günəş, həm də qəməri təqvimə görə bildirmişdir.

**Gələcəkdə baş verəcək bəzi hadisələrlə bağlı Quranda elmi işarələr vardır.**

> “Rumlular məğlub edildilər; ən aşağı *və ya ən yaxın* bir yerdə. Lakin onlar öz məğlubiyyətlərindən sonra qələbə çalacaqlar; bir neçə il ərzində. Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər; Allahın köməyi ilə. O, istədiyinə kömək edir. O, Qüdrətlidir, Rəhmlidir.”
>
> *(ər-Rum, 2-5)*



Quranda gələcəkdə baş verəcək bəzi hadisələrdən qısaca bəhs edilir. Məsələn, sadə qəbilələrdən ibarət ərəblərin, dövrün iki fövqəldövləti arasında qarşıdurmanı proqnozlaşdıra bilmədiyi bir vaxtda, Quranda Rum surəsinin ilk ayələrində Roma (Bizans) və Fars İmperiyaları arasında baş verəcək müharibələrdən və onların nəticələrindən xəbər verilir.



Fars imperiyasının Fələstində Bizans imperiyasını məğlub edərək Qüds şəhərini ələ keçirməsi, bir neçə ildən sonra isə Bizans imperiyasının Ninova (İraq) yaxınlığında Fars imperiyasını məğlub etməsi tarixi faktdır.

ər-Rum surəsinin 3-cü ayəsindəki “ədna” sözü ərəbcə “ən yaxın” mənasına gəlməklə yanaşı, “ən aşağı yer” mənasına da gəlməkdədir. İki fövqəldövlət arasında ilk müharibə Diyar-ı Dəməşq ərazisindən (Suriya, Livan, İordaniya və Fələstini əhatə edən bölgə) Ərəbistan yarımadasına ən yaxın yer olan “Ölü dəniz” ətrafında baş verdi. Dəniz səviyyəsindən 422 metr aşağıda olan ölü dəniz coğrafiyada dünyanın ən alçaq yeri hesab olunur.

**Qeyd:** Quranın elmi icazı haqqında daha geniş məlumat əldə etmək üçün “Quran və Sünnədə Elmi Ecazlar üzrə Beynəlxalq Komitə”nin internet saytına müraciət etmək xahiş olunur. http://www.eajaz.org

---

## QEYDLƏR

1. Quran səhifələrinin sayı: Nəşrlərin əksəriyyətində 604 səhifədir.
2. Quran ayələrinin sayı: Quran 114 surədən ibarətdir. Ayələrin ümumi sayı 6348 dir.
3. Quranın ən uzun surəsi, 286 ayə olan əl-Bəqərə surəsidir. Ən qısa surə 3 ayədən ibarət əl-Kovsər surəsidir.

Fəsil

10

Hədisi Şəriflər



Əbu Musa رضي الله عنه rəvayət edir ki,
Peyğəmbər ﷺ demişdir:
**“Möminlər bir bina kimidirlər, bir-birilərini dəstəkləyirlər”– dedi və barmaqlarını bir-birinə keçirtdi.”**

(Buxari, 481; Muslim, 2585)



“Rəvayət edilir ki, Abdullah (ibn Məsud) رضي الله عنهما demişdir: “(Bir dəfə) Peyğəmbər ﷺ (yerdə) dördbucaq cızdı. (Sonra) onun ortasından xaricinə düz bir xətt çəkdi. (Daha sonra dördbucağın içindəki) həmin düz xəttə kimi qısa-qısa xətlər cızdı. (Bundan sonra belə) buyurdu: “Bu, insandır; bu, onu əhatəsinə almış əcəli, bu çölə çıxan xətt onun arzuları, bu qısa xətlər isə (qədərinə yazılmış) müsibətlərdir. Əgər bu onu haqlamasa, o biri onu yaxalayar, o biri onu haqlamasa, bu biri onu yaxalayar.” (Buxari, 6417)

# HƏDİSİ ŞƏRİFLƏR

Qurani Kərim Hz. Muhəmmədi ﷺ vəhy nazil olan, yalan və ya Allahın kəlamına zidd olan heç bir şey danışmayan bir peyğəmbər kimi təsvir edir.

> "And olsun batmaqda olan ulduza! Sizin yoldaşınız nə *haqdan* azmış, nə də *yoldan* çıxmışdır. O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir."
>
> *(ən-Nəcm, 1-4)*

Hədis alimləri, Hz. Muhəmmədin ﷺ kəlamlarını və təlimlərini toplayaraq onların ravilərini (sənəd zincirlərini) və mətnlərini ciddi bir şəkildə nəzərdən keçirdilər. Bundan sonra hədislər, təmizlik, iman, dua, sosial həyat və ticarət kimi dini və dünyəvi mövzulardan ibarət bölmələrə ayrıldı.

Abdullah ibn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ buyurmuşdur: "Beş şey gəlmədən öncə beş şeyin qədrini bilin: Qocalığından əvvəl gəncliyinin, xəstəliyindən əvvəl sağlamlığının, kasıblığından əvvəl zənginliyinin, məşğuliyyətindən əvvəl boş vaxtının və ölümündən əvvəl həyatının." (Mustədrak Hakim, 7846; Beyhəqinin "Şuab əl-İman" əsəri, 10248)

Ənəs bin Malik رضي الله عنه rəvayət edirki, Rəsulullah ﷺ buyurmuşdur: "Biriniz özü üçün istədiyini (müsəlman) qardaşı üçün istəmədikcə, (tam) iman etmiş olmaz". (Buxari, 13; Muslim, 45)

"Rəvayət edilir ki, Abdullah ibn Amr رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ ədəbsiz və kobud olmamışdır. O deyərdi: "Sizin ən xeyirliniz əxlaqı ən gözəl olanınızdır!"
(Buxari, 3559; Muslim, 2321)

İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İki nemət vardır ki, insanların çoxu onları layiqincə qiymətləndirmir. (Bunlar) sağlamlıq və boş vaxtdır!"
(Buxari, 6412)

Abdullah ibn Məsud رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Yalnız iki nəfərə həsəd aparmaq olar: o adama ki, Allah ona var-dövlət vermiş, o da bu var-dövlətdən haqq yolda xərcləmişdir; bir də o adama ki, Allah ona hikmət bəxş etmiş, o da bununla hökm etmiş və bunu başqalarına öyrətmişdir."
(Buxari, 73; Muslim, 816)

Ənəs رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət oyatmayın."
(Buxari, 69; Muslim, 1734; Avali əl-Ləali, 1/381; Mizan əl-Hikmə, 2/951)

Həkim ibn Hizam رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Alıcı və satıcı bir-birindən ayrılanadək ixtiyar sahibidirlər. Əgər onlar düz danışar və aydınlıq gətirərlərsə, alış-verişləri bərəkətli olar. Əgər (nəyi isə) gizlədər və yalan danışarlarsa, alış-verişlərinin bərəkəti gedər.”

(Buxari, 2079; Muslim, 1532)

Əbu Musa رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Hər bir müsəlman sədəqə verməlidir.” (Səhabələr) soruşdular: “(Sədəqə verməyə bir şey) tapmasa necə?” (Peyğəmbər ﷺ) buyurdu: “Öz əlləri ilə işləyib qazansın və (bu qazancından) həm özü faydalansın, həm də (ehtiyacı olanlara) sədəqə versin.” (Səhabələr) soruşdular: “(Buna) imkanı olmasa yaxud (bunu) bacarmasa necə?” (Peyğəmbər ﷺ) buyurdu: “Ehtiyacı olan çarəsiz adama kömək etsin.” (Səhabələr) soruşdular: “(Bunu da) edə bilməsə necə?” (Peyğəmbər ﷺ) buyurdu: “Qoy xeyirxah işlər görməyi, yaxud yaxşılıq etməyi əmr etsin.” (Səhabələr) soruşdular: “(Bunu da) edə bilməsə necə?” (Peyğəmbər ﷺ) buyurdu: “Qoy yaramaz işlərdən əl çəksin. Həqiqətən, bu onun üçün sədəqə sayılır.”

(Buxari, 1445; Muslim, 1008)

Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Bəndə ölən kimi onun bütün əməlləri dayanır. Yalnız üç şeydən başqa: davamlı sədəqə, yaxud fayda verən elm, yaxud da onun üçün dua edən əməlisaleh övlad.”

(Muslim, 4310; Əbu Davud, 2880; Tirmizi, 1432; Nəsai, 3651; Musnəd Əhməd, 2/372)

Əbu Zər Cundəb ibn Cunadə və Əbu Abdurrəhman Muaz ibn Cəbəl رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ de¬mişdir: “Harada olursan, ol Allahdan qorx! Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Və bir də insanlarla gözəl əxlaqla davran!”
(Tirmizi, 1987)

Rəvayət edilir ki, Nəvvas ibn Səman əl-Ənsari رضي الله عنه Rəsulullahdan ﷺ yaxşılıq və bir də günah barədə soruşdu. Rəsulullah ﷺ dedi: “Yaxşılıq gözəl əxlaqdır. Günah isə o şeydir ki, o, sənin qəlbini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsun.”
(Muslim, 2553)

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “(Hamını) yıxmaq güclü olmaq demək deyildir. Güclü o kəsdir ki, qəzəbləndikdə özünü ələ ala bilsin.”
(Buxari, 6114” Muslim, 2609)

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim Allaha və Axirət gününə inanırsa, qonşusuna əziyyət verməsin. Kim Allaha və Axirət gününə inanırsa, qonağına yaxşı baxsın. Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun.”
(Buxari, 6018; Muslim, 47)

# Hədisi şəriflərin işarə etdiyi tibbi həqiqətlər və qidalanma faktları

## Qorunmaq müalicə olmaqdan daha yaxşıdır:

Hz. Muhəmməd ﷺ həkim olmasa da onun bir çox hədisində, bu gün “xalq təbabəti” və ya “bitkilərlə müalicə” olaraq tanınan sağlam qidalanma üsullarından bəhs edilir. İslam ədəbiyyatında bu hədis-i şəriflərə “Tibbi Nəbəvi/Peyğəmbər təbabəti” deyilir. Hz. Muhəmməd ﷺ, səhabələrinə yemək-içməkdə ifrata varmamağı, köklükdən və piylənmədən çəkinməyi, aktiv olmağı tövsiyə edir və sağlam yaşamağın sirlərini öyrədirdi.

Hz. Muhəmməd ﷺ hər fürsətdə mədənin xəstəliklərin yuvası olduğunu bildirirdi. Allahın Rəsulu ﷺ deyirdi ki, insan ehtiyac duyduğu enerjini təmin etmək üçün gün ərzində az-az yeməlidir.

**Sənin qarnın ən çox şər doldurduğun tuluqdur**

“İnsanın ən çox şər doldurduğu tuluq – onun qarnıdır. Adəm övladına belini dik tutacaq qədər az miqdarda loxmalar yemək bəs edər. Və əgər daha çox yemək istəyərsə, onda mədəsinin üçdə birini yemək üçün, üçdə birini su üçün, üçdə birini də hava üçün ayırsın.” (Musnəd Əhməd 17459; Tirmizi, 2380; Nəsai, 6769; Mustədrak əl-Vəsail, 16/166)

1/3 Yemək
+
1/3 Su
+
1/3 Nəfəs

## Hz. Muhəmməd ﷺ arpa çörəyi yeyir və başqalarına tövsiyə edirdi:



Aparılan araşdırmalar nəticəsində məlum olub ki, tərkibində çox qiymətli təbii fermentlər, dəmir, kalium, kalsium, fosfor və xrom kimi qiymətli vitamin və minerallar olan arpa sağlamlıq üçün çox faydalı qida mənbəyidir. Arpa qanda zərərli xolesterolu azaltmağa kömək edir, qanda şəkəri tənzimləyir, tərkibindəki suda həll olunan liflər sayəsində qanın laxtalanmasının qarşısını alır və həmçinin tərkibindəki suda həll olunmayan liflər sayəsində bağırsaqların hərəkətliliyini təmin edir və beləliklə bağırsaqlarda "xərçəng" riskini azaldır.

Arpa beyində "pineal" vəzinin maddəsi olan milatonin hormonunu daşıdığı üçün alzheimer, parkinson və depressiya xəstəliklərinin riskini azaldır. Arpada "A" və "E" vitaminləri var. Antioksidant funksiyaları olan bu vitaminlər hüceyrə membranlarına hücum edərək xərçəngə səbəb olan sərbəst radikalların yayılmasının qarşısını alır. Hz. Muhəmməd ﷺ buğda unundan hazırlanan çörəkdən çox, kəpəkli arpa unundan hazırlanan çörək yeyərdi.

> Sələmə Bin Dinar رضي الله عنه rəvayət edir ki: "Peyğəmbər ﷺ döyülüb üfürdükdən sonra istifadə olunan kəpəkli arpa unundan hazırlanmış çörək yeyirdi." (Buxari, Ətimə, 23, 27)



## Peyğəmbərin ﷺ qəm və kədəri azaldan resepti: Təlbinə[1] şorbası

**Depressiyaya qarşı arpa**

Təlbinə şorbası Hz. Muhəmmədin ﷺ hədislərindəki elmi möcüzələrdən biridir. Belə ki Allah Rəsulu ﷺ kəpəkli arpa unundan hazırlanan "Təlbinə şorbası"nı xəstələrin və ya yas sahiblərinin kədərini və qəmini azaltmaq üçün tövsiyə edir:

> "Təlbinə, xəstənin qəlbinə təskinlik verir və kədərini azaldır."
> (Buxari, 5417; Muslim, Salam, 90; Bihar əl-Ənvar, 63/96)

Müasir tibbi araşdırmalar müəyyən edib ki, bir növ psixoloji pozğunluq olan depressiya, beyində sinir impulslarını yaradan müəyyən kimyəvi mesajların (neyrotransmitter) itirilməsi nəticəsində yaranır. Antidepressiya dərmanları bu kimyəvi maddələrin səviyyəsini artırır və onların normal işləməsini təmin edərək depressiyanı müalicə edir.

İnsanın əhvalına təsir edən üç mühüm kimyəvi mesaj (hormon) var. Bunlar: Serotonin, Dopomin və Norepinefrindir (Noradrenalin). Qidaların insan sağlamlığına təsirini araşdıran alimlər sübut ediblər ki, arpa "Serotonin" hormonuna[2] müsbət təsir göstərir və kədəri azaldır.



Arpada beyində "Serotonin" istehsalında mühüm rol oynayan "tripophane" amin turşusu ilə yanaşı, stress və depressiya hissini müalicə edən "kalium" və "B" vitaminləri də var. Göründüyü kimi, Peyğəmbərimizin ﷺ 1400 il əvvəl dediyi "Təlbinə qəm və kədəri azaldır" kəlamı tibbi kəşfdən başqa bir şey deyil.

[1] Un və bal, yaxud süd ilə yoğrulub bişirilmiş yemək..
[2] Serotonin hormonu insana xoşbəxtlik, canlılıq verən bir neyrostimulyatordur. Serotonin çatışmazlığında insan özünü yorğun, əzgin, halsız hiss edir. Bu hormon beyin hüceyrələrinin bir-birinə ötürdükləri siqnalların mərkəzə çatmasını tənzimləyir.

## Zəmzəm haqqında hədisi şəriflər:

Zəmzəm Məkkədə Kəbə yaxınlığındakı bulaqdan çıxan mineral suyun adıdır. Min illər boyu eyni mənbədən çağlayan bulaq möcüzəvi şəkildə əmələ gəlib. Bu bulaq min illər əvvəl, İbrahim peyğəmbərin عليه السلام körpə oğlu İsmail عليه السلام susuzluqdan ağladığı vaxt möcüzəvi şəkildə Allah tərəfindən yaradılmışdır.

Belə ki, Həzrəti İbrahim عليه السلام Allahın əmri ilə kiçik yaşlı oğlu İsmaili عليه السلام və onun anası Həcəri Məkkədə, susuz bir yerdə buraxır. Övladının susuzluqdan ölməsindən qorxan Hz. Həcər Səfa və Mərvə təpələri arasında su axtarmağa başlayır. Yeddi dəfə həmin təpələr arasında gedib-gəlir.

Hz. Həcər su axtararkən İsmail عليه السلام ayağını yerə vurmağa başlayır və birdən ayağının dəydiyi yerdən su çıxır.  Hz. Həcər yerdən çıxan su ilə İsmailin عليه السلام oynadığını görür və Süryani dilində zəm-zəm, yəni "dur-dur" deyərək suyun qabağını qumla kəsərək gölməçə formasına salmağa çalışır.

Hz. Muhəmməd ﷺ “Yer üzünün ən xeyirli suyu Zəmzəmdir” buyurmuş və onu “Mübarək” adlandırmışdır. Həmçinin, zəmzəmin hansı niyyətlə içilərsə ona dərman olacağını bildirmişdir. Yəni xəstəlikdən şəfa tapmaq üçün zəmzəm içən şəxs şəfa tapar, susuzluğu üçün zəmzəm içənin susuzluğunu aparar.

Bir litr suyun tərkibində ən azı 250 mq mineral varsa, həmin su mineral su sayılır. Zəmzəm suyu üzərində aparılan laboratoriya analizlərinə görə isə, bir litr zəmzəm suyunun tərkibindəki 800-1000 mq arasında mineralların olduğu müəyyən edilib. Bu nəticə zəmzəm suyunun insan orqanizminə lazım olan minerallarla zəngin olduğnu göstərir.



Zəmzəm Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) içməli su meyarlarına uyğundur. Zəmzəm; Sümüklərin inkişafı, sinirlərin, əzələlərin və ürəyin nizamlı işləməsi üçün lazım olan kalsium, sağlam dişlər üçün lazım olan flüor və qidaların həzm edilməsi üçün lazım olan natrium bikarbonat baxımından çox zəngindir.

Mineral suların çoxsaylı müalicəvi faydaları olduğu və oynaq və əzələ iltihablarının müalicəsində istifadə edildiyi hamıya məlumdur. Zəmzəm bu məqsədlə də istifadə olunur.

Dünyanın məşhur mineral sularından biri olan "Evian"ın bir litrində təxminən 78-80 mq kalsium, "Perrier"də isə 147-150 mq kalsium var. Bir litr zəmzəmdəki kalsium miqdarı isə 190-200 mq - dır.



4-8 yaşlı uşaqların gündəlik kalsiuma ehtiyacı 800 mq-dır. Hamilə qadınların və laktasiya edən anaların gündəlik kalsiuma ehtiyacı isə 1300 mq-dır. Sağlam həyat üçün çox zəruri olan kalsiumu müxtəlif qidalardan əldə etmək olar. Bunun üçün ən vacib qida süddür. Təkcə Zəmzəm suyu isə gündəlik kalsium ehtiyacımızın 15-25%-ni qarşılayır.





*Küveytli xəttat Fərid əl-Əlinin su damlası şəklində yazdığı "Rəsulullah" lövhəsi*

## Kəmə (Trüf / Dombalan göbələyi) gözlər üçün şəfadır

Hz. Peyğəmbər ﷺ buyurmuşdur: “Kəmə/ Dombalan göbələyi `Mannadandır[1] və suyu gözlər üçün şəfalıdır." (Buxari, 4478; Muslim, Əşribə 157; Vəsail əş-Şiyə, 31673)



Agaricaceae ailəsinə aid bir göbələk cinsi olan dombalan göbələyi yeməli göbələkdir. Qumlu və rütubətli yerlərdə torpaqdan 2-50 sm aşağıda böyüyən bu göbələyin kökləri və yarpaqları yoxdur.

Fərqli bir qoxuya malikdir və ağ, qara və qəhvəyi rənglərdə olur. Ərəbistan yarımadasının bəzi ölkələrində "fəqaa" kimi tanınır. Dombalan göbələyinin tərkibinin 77 faizi sudur. Qalanları zülallar, yağlar, karbohidratlar və minerallardan ibarətdir. Tədqiqatlar göstərir ki, bu göbələyin şirəsi bir çox göz xəstəliklərini, o cümlədən yoluxucu olan və müalicə edilmədikdə korluğa səbəb olan buynuz qişa xəstəliyi olan "Traxoma"-nı sağaldır.



[1] *Manna, Musanın ﷺ duası ilə uca Allahın İsrail oğullarına göydən göndərdiyi ruzidir.*

## Xurma sağlamlıq və enerji mənbəyidir



Hz. Muhəmməd ﷺ xurma haqqında belə buyurmuşdur: “Hansı evdəki xurma yoxdur o ev acdır.” (Muslim, 2046) Kim hər səhər yeddi əcva xurması yesə, həmin gün ona nə zəhər, nə də sehr təsir edə bilməz.” (Buxari, 5445; əl-Kafi, 6/498)

Kimyəvi tərkibində sürətlə həzm olunan 70,6% karbohidratlardan ibarət olan xurma, həmçinin dəmir, fosfor, kalium, maqnezium və kalsium kimi bir çox qiymətli mineralları da ehtiva edir. Bir neçə ədəd xurma yemək insanlara toxluq, canlılıq və zehni enerji hissi verir. Çünki xurmanın glisemik indeksi[1] ( GI ) yüzə yaxın olduğu üçün tez sorularaq qana qarışır və qısa zamanda orqanizmdə qlükoza səviyyəsini artırır. Bu gün tez-tez içilən qazlı içkilərlə müqayisədə xurmanın tərkibində olan meyvə şəkəri (fruktoza) qanla daha tez qarışır və toxumalara, hüceyrələrə və əzələlərə güc və enerji verir.

Əzələləri və sinirləri gücləndirən, qocalmanı gecikdirən xurma, tiroid bezlərini aktivləşdirir, anemiyanın qarşısını alır, bağırsaqları aktivləşdirir və bağırsaq iltihabının qarşısını alır. Aç qarına yeyilən xurma bağırsaq qurdlarını öldürür. Xurmanı suda isladaraq yemək öskürəyi və bronxiti sağaldır. Xurmanın tərkibindəki liflər qəbizliyi sağaldır və həmçinin içində olan minerallar qan turşuluğunu tənzimləyir. Bu da böyrək və öd kisəsində daşların əmələ gəlməsinə səbəb olan qan asidini tənzimləyir. Xurma orqanizmdəki zəhərli maddələrdən xilas olmağa kömək edir. O, həmçinin "Podaqra" və Hemorroyu (Basur, Babasil) müalicə edir. Xurmanın tərkibində çoxlu qiymətli vitaminlər var. Bunlardan ən önəmliləri bədənin inkişafını təmin edən, dərini qoruyan və görmə qabiliyyətini artıraraq gecə korluğunun qarşısını alan “A” vitamini və sinir sistemini qoruyan, iştahsızlığın qarşısını alan “B” vitaminləridir.

Xurma doğuş zamanı uşaqlığın əzələlərinin yığılmasını təmin edən və doğuşu asanlaşdıran “oksitosin” hormonunun ifrazına kömək edir. Doğuşdan sonrakı qanaxmanı da dayandırır.

---

[1] *Karbohidratların qandakı qlükoza səviyyəsinə təsirini ölçmək üçün sistem*

## Hz. Muhəmməd ﷺ zeytun yağını tövsiyə etmişdir

Hz. Muhəmməd ﷺ zeytun yağını tərifləmiş və onun mübarək ağacdan alındığını bildirmişdir: "Zeytun yağı yeyin və onunla yağlanın. O, mübarək ağacın meyvəsindəndir". (Tirmizi, Ətimə, 43; əl-Kafi, 6/470)



Müasir tibbi araşdırmalar sübut edir ki, zeytun yağının sağlamlıq üçün çoxlu faydaları var. Laboratoriya nəticələrinə görə, zeytun yağının tərkibindəki yağ turşularının 75-80%-i doymamış yağlardan, 10-20%-i isə doymuş yağlardan ibarətdir.



Zeytun yağı qanda zərərli xolesterini tənzimləyir və faydalı xolesterinin səviyyəsini artırır. Beləliklə ürək xəstəliklərinin inkişaf riskini azaldır. Mədəni rahatlatma xüsusiyyətinə malik olan zeytun yağı xora və qastriti müalicə edir.

Tədqiqatlar göstərir ki, karbohidrat + zeytun yağı pəhrizi (doymuş) az yağlı qidalardan daha yüksək qan şəkərini tənzimləmə qabiliyyətinə malikdir.



“Allah
göylərin və yerin
nurudur. Onun *möminlərin*
*qəlbində olan* nuru, içində çıraq
olan bir taxçaya bənzəyir; o çıraq
şüşənin içindədir, şüşə isə, sanki inci
kimi bir ulduzdur. O *çıraq* təkcə şərqə və ya
təkcə qərbə aid edilməyən *daim günəş şüaları*
*altında qalan* mübarək zeytun ağacından
yandırılır. Onun yağı, özünə od toxunmasa
da, sanki işıq saçır. *Bu,* nur üstündə nurdur.
Allah istədiyini Öz nuruna yönəldir. Allah
insanlar üçün məsəllər çəkir. Allah hər
şeyi biləndir.”
(ən-Nur, 35)

# Muhəmməd peyğəmbərin ﷺ xəstəliklərdən və virus infeksiyalarından qorunmaq üçün təlimləri

İslam qayda - qanunlarına əməl etmək üçün yaradanımızın ilahi risalətinə və onun rəsulunun hikmətli təlimlərinə əsaslanan yüksək səviyyədə şəxsi gigiyenaya riayət etmək lazımdır. Bu kontekstdə Muhəmməd peyğəmbər ﷺ insanları xəstəliklərdən qorumaq, yoluxucu və virus infeksiyalarının yayılmasının qarşısını almaq üçün praktiki olaraq yüksək təmizlik və ictimai sağlamlıq standartlarını müəyyən etmişdir. Bu standartlar və təlimatlar Craig Considine tərəfindən yazılmış məqalədə təsdiq edilmişdir. Amerikalı akademikin məqaləsi COVID-19 pandemiyasının dağılmasından sonra 2020-ci ilin mart ayında "Nyusvik" jurnalında dərc edilmişdir.

**Əllərinizi, üzünüzü, ağzınızı və burnunuzu yuyun:** Daha əvvəl də bəhs edildiyi kimi, müsəlmanların gündəlik beş vaxt namazını qılmazdan əvvəl dəstəmaz alması lazımdır. Muhəmməd peyğəmbər ﷺ ümmətinə dəstəmazı düzgün və tam almağı, o cümlədən əlləri, üzləri, ağızları və burnu yumağı öyrətdi. Viral infeksiyaların əksəriyyəti insan bədəninin bu hissələrindən gəlir.

**Qeyd:**

**Tualetə getmək:** Müsəlmanlar düzgün təmizləmək üçün ilk növbədə sudan (yalnız tualet kağızından deyil) istifadə edirlər. Övrət yerlərini təmizləmək üçün yalnız sol əldən istifadə olunur. Tualetdən istifadə etdikdən sonra əllər mütləq yuyulur.



**Bədəninizə zərər verməyin:** Bundan əlavə, İslam təlimləri xəstəliklərə səbəb ola biləcək və insan orqanizminə zərər verən bütün əməlləri qadağan edir. Məsələn, İslam alkoqol içməyi qadağan edir, çünki o, bədəndəki zərərli maddələri parçalayan qaraciyərə zərər verir. Alkoqol immunitet sistemini zəiflədir və ağ qan hüceyrələrinin effektivliyini azaldır. Həmçinin, İslamda qan, ölü heyvan və ya vəhşi heyvanların istehlakı bir çox səbəblərə görə, xüsusən də bu heyvanlardan və onların qanından insanlara virusların keçməsini dayandırmaq üçün qəti şəkildə qadağan edilmişdir.

Üstəlik, fahişəlik və nikahdankənar hər cür cinsi əlaqə İslamda qəti şəkildə qadağandır. Qanuni və təmiz cinsi əlaqəyə dair İslam qaydaları HİV/AİDS, HPV, Sifilis və Herpes kimi cinsi yolla keçən xəstəliklərin yayılmasının qarşısını almaqda çox kömək edir.

**İnfeksiya və Taunla Mübarizə:** İslamda infeksiyaya nəzarət etmək üçün özünü təcrid və karantin tətbiq edilir. Muhəmməd Peyğəmbər ﷺ ümmətinə xəstəliyin yayıldığı yerlərə getməməyi əmr etmiş, həmçinin xəstəliyə yoluxanlara və xəstəliyin yayılmış yerlərdə yaşayanlara da xəstəliyi daha da yaymamaq üçün yerlərini tərk etməməyi tövsiyə etmişdir.

Muhəmməd peyğəmbər ﷺ asqırma, əsnəmə və öskürməni əhatə edən yüksək səviyyəli İslam ədəb-ərkanı müəyyən etmişdir. O, həmçinin qeyd edib ki, xəstələr (xüsusilə yoluxucu xəstəliklərə yoluxanlar) sağlam insanlarla ünsiyyətdə olmamalıdırlar.

## Bədənin immun sistemi

**Oruc tutmaq immunitet sisteminizi gücləndirir:** Müsəlmanlar hər il Ramazan ayı boyunca bir ay günəş çıxandan gün batana qədər oruc tuturlar. Həmçinin Müsəlmanlara hər ay bir neçə gün könüllü oruc tutmaq da tövsüyə olunur. İndi müasir elm fasiləli tutulan orucun böyük faydalarından danışır. Orucun bədənin immunitet sistemini gücləndirdiyi sübut edilmiş bir həqiqətdir. Bundan əlavə oruc, xolesterolu, qaraciyər yağını, qan insulinini və şəkər səviyyəsini azaltmağa kömək edir və qlükoza nəzarətini və yağ yandırmasını yaxşılaşdırır.

Fasiləli Orucun Qızıl Faydaları

**Dua və mənəvi təfəkkür:** Hz. Muhəmməd ﷺ müsəlmanlara bütün varlıqların yaradanı, ilahı və Rəbbi olan Allaha möhkəm inanmağı öyrətdi. O, ümmətinə imanlarını tətbiq etməyi və gündəlik dualarını və ruhani düşüncələrini qorumağı təlim edirdi. Allah Rəsulu ﷺ nikbinliyi təşviq edən, bədbinliyi sevməyən şən bir insan idi. Bu duanı təkrar edərdi:

"Allahım!" Kədər və qəmdən, zəiflik və tənbəllikdən,

qorxaqlıq  və xəsislikdən sənə sığınıram...".



Tibbi araşdırmalar göstərir ki, xoşbəxtlik və nikbinlik ürək-damar sağlamlığını və immun sisteminin funksiyalarını yaxşılaşdırır. Bundan əlavə, dua və mənəvi təfəkkürün insan səhhətinə böyük müsbət təsiri vardır. Belə ki dua insanın qan təzyiqinin aşağı salınmasına, narahatlığın aradan qaldırılmasına, immunitet sisteminə mənfi təsir göstərən kədər və tənbəllikdən qurtulmağa kömək edir. Stress, narahatlıq, depressiya və qorxu isə bədəninizdə stress hormonlarının (kortizol və ya adrenalin) səviyyəsini artırır və immunitet sisteminizi zəiflədir.




“*O Rəbb ki*, xəstələndiyim zaman mənə şəfa verir.”
(əş-Şuəra, 80)

İbrahim peyğəmbərin Allaha etdiyi duadan bəhs edən ayə.
İndoneziyadan Isep Misbah tərəfindən dizayn edəilmş xəttatlıq sənət əsəri.
Əsər 2020-ci ilin oktyabrında Ərəb Xəttatlığının Birinci Beynəlxalq Virtual Sərgisində təqdim olunub, https://www.callihealing.com



Fəsil

# 11

# SON



Məscidi Nəbəvi  Mədinəi - Munəvvərə

*Bu ərəb dilində “Muhəmməd” sözü formalaşma üslubunda işlənmişdir.*

# SON

## Muhəmməd ﷺ Allahın Rəsuludur

Kinanlı Suraqanın رضي الله عنه hekayəti: Peyğəmbərin ﷺ 20 ildən sonra baş verən möcüzəsi

Hz. Muhəmməd ﷺ miladi 622-ci ildə Hz. Əbu Bəkri رضي الله عنه də özü ilə götürüb  Allahın əmri ilə Məkkədən Mədinəyə hicrət etmək üçün yola düşdü. Xəbəri alan Qureyş liderləri, Hz. Muhəmmədi ﷺ ölü və ya diri gətirənə mükafat olaraq 100 dəvə verəcəklərini vəd etdilər. Hz. Peyğəmbərin ﷺ başına qoyulan bu böyük mükafat, çətin səhra şəraitində yol izləməkdə mahir olan Suraqa ibn Maliki həyəcanlandırmışdı. Dərhal yola çıxan Suraqa, ciddi bir axtarışdan sonra Hz. Muhəmməd ﷺ və dostunun izlərini tapdı. Suraqa bin Malikin onların arxasınca gəldiyini görən Hz.Muhəmməd ﷺ Suraqanın şərrini uzaqlaşdırması üçün Rəbbinə dua etdi. Elə bu anda Allahın izni ilə Suraqanın atı büdrəyib yerə yıxıldı. Atı ilə ayağa qalxmaq istəyən Suraqa çox cəhd etsə də, heç bir nəticə vermədi. Çünki hər dəfə atın ayaqları yenidən qumda batıb qalırdı.



Bunu görən Hz. Muhəmməd ﷺ Suraqadan Məkkəyə qayıtmasını və Məkkəlilərin onların arxasınca gəlməsinə mane olmasını istədi. Daha sonra Hz. Peyğəmbər ﷺ, Suraqaya İslamın bütün dünyaya yayılacağını, müsəlmanların çox güclənərək Fars imperiyasını məğlub edəcəyini, onun da Kisranın qolbaqlarını taxacağını və bunun Qureyşin mükafatından qat-qat üstün olacağını bildirdi. Bəzi rəvayətlərə görə Hz. Muhəmməd ﷺ bu sözləri Suraqaya yazılı şəkildə vermişdi.

*Qeyd: Müsəlmanlar Muhəmməd peyğəmbərin "dinin banisi" kimi təsvir edilməsini bəyənmirlər. Müsəlmanlar onu Allahın Rəsulu hesab edirlər.*



Peyğəmbər ﷺ Suraqaya رضي الله عنه belə demişdir: "Ey Suraqa, Kisranın bilərziklərini necə taxmaq istərdin?" (Beyhəqi, “Sunən -əl-Kubra” 6/357, 13156)

Hz. Muhəmmədin ﷺ sözünə sadiq olduğuna əmin olan Suraqa, təklifi qəbul edib Məkkəyə qayıtdı. Hz. Muhəmməd ﷺ və Hz. Əbu Bəkr رضي الله عنه isə hicrət səfərinə davam edərək Mədinəyə çatdılar.

Peyğəmbər ﷺ vəfat etdikdən iki il sonra (632), Əbu Bəkr رضي الله عنه da dünyasını dəyişdi. Əbu Bəkrin رضي الله عنه vəfatından sonra Ömər رضي الله عنه xəlifə oldu. Ömərin رضي الله عنه xilafəti dövründə böyük fəthlər olmuşdur; 642-ci ildə İran fəth edilərək İslam dövlətinin ərazisinə qoşuldu və imperator Kisra bin Hörmüzün xəzinələri müsəlmanların əlinə keçdi.

Xəzinələri təhvil alan Hz. Ömər رضي الله عنه o vaxt çox qoca olan Suraqanı məscidə dəvət etdi. Müsəlmanlara, Hz. Muhəmmədin ﷺ Suraqaya verdiyi sözdən danışdı sonra ayağa qalxıb Kisranın köynəyini, tacını və qolbaqlarını Suraqaya verdi. Suraqa bu hadisəyə görə duyğulanaraq göz yaşlarını saxlaya bilmədi. Hz. Muhəmmədin ﷺ vəfatından 10 il sonra baş verən bu möcüzəni görən müsəlmanlar çox təsirləndi və onlar da ağladı.







## Muhəmməd ﷺ, Rəhbər

Fransız yazıçısı və siyasətçisi Alfons de Lamartin “Histoire de la Turquie” kitabında Muhəmməd peyğəmbər haqqında obyektiv danışaraq yazır: “Heç vaxt heç bir insan könüllü və ya qeyri-ixtiyari olaraq özü üçün daha ülvi bir məqsəd irəli sürməmişdir, çünki bu məqsəd hədsiz idi: məxluqla Yaradan arasında qoyulmuş xurafatları alt-üst etmək, Allahı insana, insanı isə Allaha qaytarmaq, rasional və qeyri-ixtiyari olanı bərpa etmək. Bu, hökm sürən maddi xaosun və eybəcər bütpərəstlik tanrılarının ortasında müqəddəs ilahilik ideyası. Dünyada heç vaxt bu qədər böyük və uzunömürlü bir inqilabı qısa müddətdə həyata keçirən bir insan olmamışdır”.

> **“Məhz dünyəvi və dini təsirin bu misilsiz kombinasiyasıdır, məncə** Muhəmmədə **bəşər tarixində ən nüfuzlu tək şəxsiyyət kimi baxılmaq hüququ verir.”**
>
> Michael Hart

“Məqsədin əzəməti, vasitələrin kiçikliyi, nəticənin böyüklüyü insanın dühasının üç ölçüsüdürsə, müasir tarixin böyük insanını Muhəmmədlə müqayisə etməyə kim cəsarət edə bilər?”

Lamartine, Muhəmmədin maddi güc yaratmaq üçün silahları və imperiyaları yerindən tərpətmədiyini, əksinə fikirləri, inancları və ruhları hərəkətə gətirdiyini qeyd etdi. O, hər bir hərfi qanuna çevrilən, dünyanın bütün dil və irqlərdən olan insanları əhatə edən bir mənəvi milliyyətə çevrildiyi bir Kitab üzərində quruldu.

## Kəbənin açarının hekayəsi . Günümüzə bir vəsiyyət

630-cu ildə Qüreyş başçılarını məğlub edən və qan tökmədən Məkkəni fəth edən Hz. Muhəmmədin ﷺ ilk gördüyü iş, Beytullanı bütlərdən təmizləmək və onları əvvəlki halına qaytarmaq oldu.

Kəbənin ətrafında olan bütləri bir-bir sındıran Muhəmməd Peyğəmbər ﷺ, Hz. Bilala رضي الله عنه Kəbənin üzərinə çıxıb "Allahu əkbər. Allahu əkbər. Əşhədü ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah" təkbirini deməyi əmr etdi.

Hz. Muhəmmədin ﷺ beşinci ulu babası Qusay Məkkədə söz sahibi olanda böyük oğlunu Kəbənin xidməti vəzifəsinə təyin etdi. Cahiliyyət dövründə Kəbənin açarı Qusayın nəvələrindən olan Şeybani ailəsinin əlində idi.



Məkkənin fəthi zamanı isə Kəbənin açarını əlində tutma vəzifəsini, qısa müddət əvvəl İslamı qəbul etmiş yenə Şeybani ailəsindən olan Osman bin Talhə əş-Şeybani öz üzərinə götürmüşdü. Bu o Osmandır ki, vaxtilə Peyğəmbər ﷺ Kəbədə namaz qılmaq üçün ondan Kəbənin qapısını açmaq istəmiş, o isə bunu etməmişdir.





Məkkənin fəthi günü yenə Hz. Muhəmməd ﷺ açarı Osman bin Talhədən istədi. Peyğəmbərin ﷺ əmrinə tabe olan Osman bin Talhə evə gedərək açarı gətirib Rəsulullaha ﷺ təhvil verdi.

Kəbəyə girən Hz. Muhəmməd ﷺ içərini bütlərdən təmizlədikdən sonra çölə çıxıb açarın kimə veriləcəyi ilə maraqlanan minlərlə insanın hüzurunda Osman ibn Talhəyə xitab edərək dedi:

> "Bu gün xeyir və vəfa günüdür. Ey Talhə oğulları, bu açarı həmişəlik siz götürün. Onu sizdən ancaq zalımlar alar." (Təbərani “Mocəm əl-Kəbir”, 11/120, 11234)




Misirli xəttat İsam Abduləttahın lövhəsi “O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir.”
(ən-Nəcm, 3-4)

## Hz. Muhəmmədin ﷺ xeyir və vəfası davam edir

Kəbənin açarı 14 əsrdir ki, Şeybani ailəsinin əlindədir. Ailə, nəsildən-nəslə miras qalan “Kəbənin xadimi” vəzifəsini şərəflə yerinə yetirir. Hz. Muhəmmədin ﷺ “Onu əlinizdən ancaq zalimlər alır” dedikdən sonra əsrlər boyu heç kim Şeybani ailəsindən açarı almağa cürət etməmişdir.

Səudiyyə Ərəbistanı hakimiyyəti hər il Həcc zamanı Şeybani ailəsini çağıraraq Kəbənin qapısını açdırır. Daha sonra müsəlman ölkələrindən qonaqlarının və Şeybani ailəsinin hüzurunda Beytullanın içi zəmzəm və qızılgül suyu ilə yuyulduqdan sonra divarlarına müşk və ənbərin ən qiymətli qoxuları vurulur.

Bax belə, Müsəlmanlar, liderləri olan Hz. Muhəmmədin ﷺ sözlərinə sanki onların arasında yaşayırmış kimi hörmət edirlər. Bəli, bu nə böyük xeyir və nə böyük vəfakarlıqdır!



## İndiyə qədər davam edən bir sədaqət anı:

Açarın hələ də BƏNİ ŞEYBƏ nəslinin övladları tərəfindən saxlanıldığını bilmək sizi təəccübləndirə bilər! 1400 ildən çox vaxt keçdi və açar hələ də Bəni Şeybə ailəsinin bir nəslindən sonrakı nəslinə verilir.

İndiyə qədər heç kim onlardan bunu almağa cəsarət etmir, əks halda o, Muhəmmədin ﷺ təsvirinə görə “zalım” sayılır.

Bu günlərdə Səudiyyə rəsmiləri Kəbənin illik təmizlik və illik həcc ziyarətinə hazırlaşarkən, Kəbənin qapısını onların üzünə açması üçün Bəni Şeybə ailəsindən (hazırda Səudiyyə ailəsidir) bir şəxslə əlaqə saxlayırlar.





## Dövrümüzün Peyğəmbəri Muhəmməd ﷺ

“Muhəmməd ﷺ: Zəmanəmizin Peyğəmbəri” kitabının müəllifi Karen Armstronq göstərirdi ki, Muhəmməd peyğəmbərin ﷺ mühüm nailiyyətlərini qiymətləndirmək üçün onun həyatına balanslı şəkildə yanaşmaq lazımdır. Onun təkcə müsəlmanlar üçün deyil, Qərb xalqları üçün də mühüm dərsləri var idi.

O, həmçinin qeyd etdi ki, əgər fəlakətdən qaçmaq istəyiriksə, müsəlman və Qərb dünyası sadəcə dözməyi deyil, bir-birini qiymətləndirməyi də öyrənməlidir. Yaxşı bir başlanğıc nöqtəsi üçün Muhəmməd ﷺ bir nümunədir.



Muhəmməd Peyğəmbər məscidindən qızıl örtüklü qapı
(Məscid ən-Nəbəvi), Mədinə, Səudiyyə Ərəbistanı

Fəsil

# 12

# İslam memarlığı və xəttatlığı



*Omanın paytaxtı Masqatdakı Sultan Qamus məscidindən foto*
*Fotograf: Peter Gould*



*Bəhreyndə İslam xəttatlığı və ornamentlərinin nümunəsi. (Foto. Peter Gould)*

**Peter Gould, Avstraliya**

2002-ci ildə müsəlman olan Avstraliyalı qrafika, dizayn və rəqəmsal fotoqraf Peter Gould, İslam ölkələrinə səfərləri zamanı İslam memarlığı və təsviri sənətinin rəqəmsal fotoşəkillərini çəkib. O dünya memarlığına öz təsirini göstərmiş İslam mədəniyyətinin memarlığı və incəsənətinin nəcibliyi və gözəlliyinin tanınması üçün azaan.com.au adlı sayt yaradıb və burada bəzi işlərini sərgiləyib.

## Peter Sanders, Böyük Britaniya



Britaniyalı fotoqraf Peter Sanders 40 müxtəlif ölkəyə səfəri zamanı 250 min foto çəkib. Bu fotoların hamısı İslam binasının və təsviri sənətinin təsvirləridir.

İslam memarlığının və təsviri sənətinin şəkillərinin çəkilişində mütəxəssis sayılan Sanders “İn The Shade of the Tree” adlı foto kitabında İslam sivilizasiyasının müxtəlifliyi, müxtəlif mədəniyyət və irqlərdən olan xalqların İslam sivilizasiyasına təsirindən nümunələr təqdim etmişdir.

Peter Sanders, Mərakeş hökumətinin tələbi ilə, kataloqlaşdırılması üçün Fastadakı tarixi məscidlərin və İslam əsərlərinin fotoşəkillərini də çəkib.







## **Həsən Çələbi**, Türkiyə

Dünya şöhrətli türk Xəttat Həsən Çələbi ən çox tələbə yetişdirən, yaşayan ən böyük xəttat ustası kimi tanınır. Müxtəlif millətlərdən olan 50-dən çox tələbəyə icazət verib. O, ölkə daxilində və xaricdə bir çox mükafatlara layiq görülüb. Mədinədə Məscidün-Nəbəvi və Quba Məscidi, Almaniya Pforzheim Məscidi, Küveyt İslam Tibb Mərkəzi Məscidi, Cənubi Afrika Juhannesburq Cümə Məscidi, Qazaxıstan Almaata məscidi, Bosniyada Mostar Nəzir Ağa məscidi və İstanbul Sultan Əhməd məscidində kitabələri var.











**Mohamed Zakariya, ABŞ**



Amerikalı xəttat Muhəmməd Zəkəriyyə Amerikada xəttatlığın səfiri kimi tanınır. 19 yaşında İslam təsviri sənəti ilə maraqlanmağa başlayan Zəkəriyyə, xüsusilə xəttatlıq sənətinə heyran qalır və bu münasibətlə müsəlman olur. Mərakeşdə xəttatlıq öyrənməyə başlayan Muhəmməd Zəkəriyyə, təhsilini Türkiyədə davam etdirərək 1988-ci ildə Həsən Çələbidən icazət alır. Bir çox görkəmli əsərlərə imza atan sənətkarın ən məşhur əsəri, Amerika hökumətinin müsəlmanların bayramını təbrik etmək üçün çap etdirdiyi Zəkəriyyə qələmi ilə yazılmış “İyd Mubârək / Bayramınız Mübarək” yazısı olan poçt markasıdır.














İslam xəttatlıq sənətini göstərən lövhə.
Lövhədə “Yaxşılığın əvəzi ancaq yaxşılıqdır!” mənasındakı ər-Rahmən surəsi, 60-cı ayəsi yazılıb.

## Nuria Qarsiya Masip, İspaniya

İspaniyanın İbiza şəhərində doğulub böyüyən Nuria Qarsiya Masip, universitet təhsilini Amerika Corc Vaşinqton Universitetində başa vurub. O burada ədəbiyyat fakültəsini bitirib.

Universitet illərində İslam xəttatlığına maraq göstərməyə başlayan sənətkar, Həsən Çələbi və Davut Bektaşla məşq etdikdən sonra 2007-ci ildə  “İslam Tarixi, İncəsənət və Mədəniyyət Mərkəzi”ndən xəttatlıq lisenziyasını alıb.

Beynəlxalq sərgilərə qatılan və bir çox mükafatlar alan rəssam xəttatlıqda “Musənna” və ya “aynalı” adlı simmetrik yazıları ilə tanınır.











## Çinli xəttat Hacı Nuruddin Quangjiang

Hacı Nuruddin 1963-cü ildə Çinin Şanqdonq şəhərində anadan olub. O, Ərəb və Çin yazıları arasında əlaqə yaradan məşhur xəttatlardan biri hesab olunur.





*Bu iki lövhənin üzərində “Lə ilahə illəllah Muhəmmədun Rəsulullah” ifadəsi yazılmışdır.*

*Günbəzşəkilli lövhənin üzərinə isə yüzlərlə dəfə “Muhəmmədun Rəsulullah” yazılıb.*



**Nobuko Saqava: Yaponiya**

Tokio Universiteti İncəsənət fakültəsinin məzunu olan Nobuko Saqava Yaponiyada İslam xəttatlığının qabaqcıllarındandır. Nobuko Saqava Suriyada kufi və sülüs yazılarını öyrənmiş və bu sahədə bir çox beynəlxalq sərgilərdə iştirak etmişdir. O, Yapon "Kana" və Çin "Kanji" yazılarını ərəb hərflərinə birləşdirməkdə olduqca məharətlidir.



*"Yola çıxmadan əvvəl (yaxşı) yol yoldaşı, ev almadan əvvəl isə (yaxşı) qonşu axtar."*



Rəsm İslam xəttatlığının bir növü olan "sülüs" sənətini əks etdirir. Rəsimdə yazılan ayənin mənası belədir: **“Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən *bir peyğəmbər* kimi göndərdik.”** (Səba, 28)



**Fərid əl-Əli, Küveyt**

Fərid əl-Əli, Küveyt İslam İncəsənət Mərkəzinin prezidenti, həmçinin Muhəmməd adının müxtəlif yazılışlarını özündə əks etdirən “Muhəmmədiyyə” xəttatlıq kitabının müəllifidir. Muhəmmədiyyə kitabı, Muhəmməd adının 11 həndəsi qrup altında yarpaq, su damcısı, günbəz kimi 500 müxtəlif formada yazılmış olduğunu göstərən dəyərli əsərdir. Fərid əl-Əli Muhəmmədiyyədən başqa gözəl əsərlərə də imza atmışdır. Bu əsərlərin ən əhəmiyyətlisi isə həndəsi formalarda yazılmış Ləfzul Cəlil (Allah) yazılarıdır.

















**Muhəmməd əl-Məndi, Birləşmiş Ərəb Əmirlikləri**

Xəttat Muhəmməd əl-Məndi Birləşmiş Ərəb Əmirliklərinin pasportu və pul vahidi dirhəm üzərində yazdığı bəzəkli yazılardan sonra məşhurlaşıb. Muhəmməd əl-Məndinin məharətli əl işləri dünyada İslam memarlığının ən gözəl nümunələrindən biri olan Abudabidəki Şeyx Zayid əl-Kəbir məscidinin yazılarında da özünü göstərməktədir.



Muhəmməd əl-Məndinin əsəri olan bu sənət dizaynında "Muhəmməd" adı, 8 latın və 4 birləşməyən ərəb hərflərindən istifadə edilərək ecazkar şəkildə yazılmışdır.



**Achmat Soni, Cənubi Afrika**

Cənubi Afrika İslam İncəsənəti Fondunun yaradıcısıdır. O, əsərlərində ərəb xəttatlığı ilə Afrika mədəniyyəti arasında harmoniya elementləri yaratmağa müvəffəq olmuşdur. Achmat Soni, Afrika Ndebele qəbiləsinin tətbiq etdiyi yerli sənət növü olan Ndebele sənətindən istifadə etmişdir. Bu əsəri canlı rəngləri və həndəsi formaları ilə xarakterizə olunur



Quranda birinci surə (əl-Fatihə surəsi) Kufi ərəb hərfləri ilə.



Əsər ərəb mətnində Uca Allahı tərifləyir. Orada deyilir: “Allah pak və müqəddəsdir. Həmd Allaha məxsusdur. Allahdan başqa (haqq) məbud yoxdur. Allah ən Böyükdür.” Əsər ənənəvi ərəb naxış və müasir dizaynın birləşməsiylə ərsəyə gəlmişdir. Ərəb hərfləri fil sümüyünə bənzəyən şəkildə uzadılıb.



*Moskva, Rusiya, Katedral Məscidi*

*Orijinal quruluşu 1904-cü ildə memar Nikolay Jukovun layihəsinə uyğun olaraq inşa edilmişdir. O vaxtdan bəri bəzi yenidənqurmalardan keçmişdir. Mövcud struktur 2015-ci ildə 10.000 nəfər tutumla tamamlanıb.*



*Məscidül-Kəbir Məscidi / Küveyt: Əhməd əl-Umeyri tərəfindən çəkilmiş Ramazan ayının 27-ci gecəsindən görüntülər. 30 min insanın namaz qıldığı Məscidül-Kəbir Küveytin ən böyük məscididir. Ramazan ayında, xüsusən də son on gündə məscid camaatla dolu olur.*





*Müsəlmanlar Ramazan ayında sübh namazının vaxtı girəndən gün batana qədər oruc tuturlar. Həmçinin, Ramazan gecələrində işa namazından sonra təravih namazı qılırlar.*





*Şeyx Zayid əl-Kəbir məscidi / Əbudabi (B.Ə.Ə): Birləşmiş Ərəb Əmirliklərindən biri olan Əbudabidə yerləşən “Şeyx Zayid əl-Kəbir məscidi” ölkənin ən böyük, dünyanın isə 8-ci ən böyük məscidi kimi tanınır. 5 futbol meydançası böyüklüyündə bir sahədə yerləşən məsciddə eyni vaxta 40 min adam namaz qıla bilər.*



*Ölkənin ən məşhur turizm mərkəzi olan Şeyx Zayid əl-Kəbir məscidində hər birinin hündürlüyü 107 metr olan 4 minarə və 82 günbəz var. Məscidin içində dünyanın ən böyük (5627 kvadratmetr) xalçası döşənib. Məscidin içindəki 15 metr hündürlüyündə və 10 metr radiusu olan çilçıraq dünyanın ən böyük çilçıraqıdır.*







*Sən'a "əs-Salih məscidi" / Yəmən: 2008-ci ildə istifadəyə verilən əl-Salih məscidi Yəmənin ən böyük məscididir. 40 min nəfərin namaz qıla biləcəyi məscid 224 min kvadratmetr sahədə tikilib. Ənənəvi Yəmən memarlığının xüsusiyyətlərini daşıyan məscidin 15 taxta qapısı və 6 böyük minarəsi var.*





*Məsqət "Sultan Qabus əl-Kəbir məscidi":* Oman Sultanlığı: *2001-ci ildə açılan "Sultan Qabus əl-Kəbir məscidi" Omanın ən böyük məscididir. Ümumilikdə 416 min kvadratmetr olan məscidin həyəti 40 min kvadratmetrdir. Məsciddə dünyanın ən böyük əl ilə toxunan xalçası və dünyanın ən böyük əl işi çilçırağı var.*







*əl-Əqsa məscidi: Məscidul-Əqsa Kəbədən sonra Allaha ibadət etmək üçün yer üzündə tikilmiş ikinci məbəddir. Məscidul-Əqsa müsəlmanların ilk qibləsidir. Müsəlmanlar hicrətdən əvvəl Beytul-Məqdisə (Qüds) üz tutub namaz qılırdılar. Bu vəziyyət Hz. Peyğəmbərin ﷺ Mədinəyə hicrətindən sonra da 17-18 ay davam etmişdir.*



***Qubbətussaxra - Qüds***





*Məscidul-Əqsa Hərəmi Şərif 144 min kvadratmetr ərazini əhatə edir və bu ərazidə “Qiblə” və “Qübbətussaxra” məscidləri var. Əməvi xəlifəsi Abdulmalik ibn Mərvan tərəfindən Həzrəti Muhəmmədin ﷺ meraca yüksəldiyi güman edilən daşın üzərində tikdirdiyi (688-692 miladi) Qübbətussaxra məscidi səkkizguşəli tikili üzərində inşa edilmişdir. Tamamilə qızılla örtülmüş günbəzinin diametri 29,4 metrdir.*









*Əməvi məscidi. Dəməşq / Suriya*

*Əməvi xəlifəsi Vəlid bin Abdulmalik (706-715 Miladi) tərəfindən tikilmiş Əməvi məscidi İslam memarlığının şah əsərlərindən hesab olunur. 4 min kvadratmetr olan məscidin daxili həyətində Yəhya Peyğəmbərin عليه السلام türbəsi yerləşir. Məscidin cənub tərəfində isə 1193-cü ildə vəfat etmiş Qüdsün fatehi Səlahəddin Əyyubinin məzarı var.*



*əl-Məscidul-Kəbir Səmərra / İraq:*

*Miladi 848-851-ci illər arasında Abbasi xəlifəsi əl-Mötəsim (Cəfər bin Motəsim) tərəfindən tikilmiş Səmərra əl-Məscidul-Kəbir məscidi dövrünün ən böyük məscidi idi. Hündürlüyü 52 metr eni 33 metr olan məscid, helikoid (spiral) minarəsi ilə məşhurlaşıb. Babil piramidası (ziqqurat) formasında tikilmiş məscidin divarları tünd göy rəngli şüşə mozaika ilə örtülmüş 17 dəhlizdən ibarətdir.*



*Ayasofya Məscidi / İstanbul Türkiyə:*

*Ayasofya Bizanslıların ən böyük kilsəsi idi. İstanbulun köhnə şəhər mərkəzində Bizans imperatoru I Yustinian tərəfindən 532-537-ci illər arasında tikilmişdir. Sultan Muhəmməd Fateh 1453-cü ildə İstanbulu fəth edərkən Ayasofyanı məscidə çevirdi. 1935-ci ildə muzeyə çevrilən Ayasofya 2020-ci ilə qədər bu vəziyyətdə qaldı. 2020-ci ildən yenidən məscid kimi fəaliyyət göstərən Ayasofya, Türkiyənin ən əhəmiyyətli turistik məkanlarından biridir.*



*Sultan Əhməd Məscidi / İstanbul*

*Sultan II Əhməd tərəfindən 1609-1616-cı illərdə Sədəfkar Məhməd Ağa tərəfindən inşa edilən Sultan Əhməd Məscidi, xaricilər tərəfindən Blue Mosque (Mavi Məscid) kimi tanınır. Səbəbi isə məscidin içərisinin 20 min mavi İznik çinisi ilə bəzədilməsidir.*

*Tac Mahal Aqra / Hindistan:* *Hindistanın Aqra şəhərində yerləşən Tac Mahal, 1631-1654-cü illərdə Hindistanın Aqra şəhərində tikilmiş məqbərədir. İslam türbəsi memarlığının ən mühüm əsərlərindən biri hesab olunur. Monqol İmperatorluğunun 5-ci hökmdarı Şah Cihanın gənc yaşında vəfat edən həyat yoldaşı üçün İmperatorluğun paytaxtı Aqrada Yamuna çayının sahilində tikilmişdir. Tac Mahal dünyanın yeddi möcüzəsindən biri hesab olunur.*





⮝ *Cama Məscidi Yeni Dehli / Hindistan 1650-1656-cı illər arasında Babur Şahı Şah Cahan tərəfindən tikilmiş Cama məscidi.*

⮟ *Red Fort Qırmızı Qala Aqra / Hindistan*






*Sultan Məscidi / Sinqapur*



*Tokyo Məscidi. Tokyo / Yaponya (Məscid Osmanlı üslubunda tikilmişdir.)*



⮝ *Kristal Məscid. Kuala Terengqanu / Malayziya:*
*Wan Men adasındakı İslam Mədəniyyəti Bağında yerləşən Kristal Məscid 2008-ci ildə açılıb.*

⮟ Putra Məscidi, Putraçaya / Malayziya





▲ *Kuantan Məscidi, Malayziya*

▼ *Perak Məscidi, Malayziya*





*Əl-Əzhər Məscidi, Qahirə / Misir: Fatimi xəlifəsi Muizliddinillah tərəfindən miladi 971-988-ci illəri arasında inşa edilən əl-Əzhər məscidi, 1000 ildən artıqdır ki, həm məscid həm də universitet kimi fəaliyyət göstərir.*



*Əhməd İbn Tolûn Məscidi, Qahirə / Misir: İki gözəl minarəsi ilə diqqət çəkən məscid, miladi 879-cu ildə Əhməd İbn Tolûn tərəfindən 26.318 kvadratmetr sahədə inşa edilib.*









*Kordoba Məscidi, Kordoba / İspaniya: Əndəlüs dövlətinin hökmdarı II Abdurrəhman tərəfindən miladi 822-852-ci illəri arasında tikilmiş Kordoba məscidi, Əndəlüs dövlətinə son qoyan Kral Ferdinard tərəfindən kilsəyə çevrilmişdir. Məscid hal hazırda ərəbcə məscid sözündən götürülmüş "Mazquita" adlanır.*



***Əl-Hamra Sarayı, Qranada/ İspaniya**: Həm qala, həm də saray olan Əl-Hamra Sarayı 1353-1391-ci illər arasında Qranadada Müsəlmanlar hökmranlıq edən dövrdə tikilmişdir. 1492-ci ildə Əndəlus Dövlətinin faktiki olaraq sona çatması ilə, saray içində 1527-ci ildə Roma İmperatoru V- ci Karlz adına başqa bir saray tikilmişdir.*





⮝ *İstiqlal Məscidi, Cakarta, İndoneziya.*
*Bu məscid cənub-şərqi asiyanın ən böyük məscididir. İstiqlal müstəqillik deməkdir. İndoneziyanın ən böyük kilsəsi ilə yanaşı yerləşir.*

⮟ *Raya Beyturrahman Məscidi. Banda Aceh:*
*Bu məscid 2004-cü ildə sunamidən salamat çıxan binalardan biridir. Sunamidən sonra məscid yüzlərlə insana müvəqqəti sığınacaq kimi xidmət edib.*





*Kral II Həsən Məscidi, Kasablanka / Mərakeş:* *1993-cü ildə açılan Kral II Həsən məscidi, fransız memar Mişel Pinseau tərəfindən dizayn edilmişdir. Onun 210 metr hündürlüyündəki minarəsi dünyanın ən hündür minarəsidir. Məsciddə 25 min, həyətində isə 80 min nəfər namaz qıla bilir. Gecələr minarənin yuxarı hissəsindən Məkkə istiqamətində lazer işıqları əks edilir.*







*Qayravan Məscidi, Mərakeş şəhəri / Mərakeş:* *Miladi 987-ci ildə tikilmiş Qayravan məscidi, II Həsən məscidindən sonra Mərakeşdə ikinci ən böyük məsciddir. O, həm də dünyanın ən qədim universitetlərindən hesab olunur.*







⮝ Qıpçaq məscidi, Aşqabad / Türkmənistan

⮟ Azadi məscidi, Aşqabad / Türkmənistan





⮝ Şirdar Mədrəsəsi, Səmərqənd / Özbəkistan

⮟ Buxara Məscidi, Buxara / Özbəkistan





*Böyük Paris Məscidi, Paris / Fransa: Böyük Məscid. Paris / Fransa: 15.7.1926-cı ildə açılan Böyük Paris Məscidi Fransanın ən böyük məscididir.*



*Müsəlmanlar gündə beş vaxt namaz qılırlar. Namaz vaxtı, Minarələrdən səslənən “Azan” ilə elan olunur. Azan müsəlmanları qısa müddətə işlərini tərk etməyə və Allahın hüzuruna gəlib namaz qılmağa dəvət edir. Namaz müsəlmanlara günün müəyyən vaxtlarında Allahın hüzurunda olmağın dünyəvi vəzifə və məşğuliyyətlərdən daha xeyirli və daha vacib olduğunu xatırladır.*

*Bu minarənin üzərinə azanın aşağıdakı sözləri heyrətamiz şəkildə həkk olunub:*
*Allahu Əkbər. Allahu Əkbər.*
*Əşhədu ən lə ilahə illəllah*
*Əşhədu ənnə Muhammədən Rəsulullah.*
*Hayyə aləs- saləh*
*Hayyə alləl-fəlah*
*Allahu Əkbər. Allahu Əkbər*
*Lə ilahə illəllah*

*Penzberq məscidi, Almaniya: Birləşmiş Ərəb Əmirliklərindən olan xəttat Muhəmməd Mendi Penzberq məscidinin minarəsinə azan yazıb.*




Böyük Məscid, Xian / Çin



*Böyük Məscid, İndoneziya*

*Hui Məscidi, Ningxia / Çin*








*Bokaapdakı Avval məscidi, Keyptaun, cənubi Afrika. Cənubi Afrikada 1794-cü ildə tikilən ilk məscid*



*Qüds Məscidi, Qeytsvil, Keyptaun, SA*



*Nizamiyə məscidi Midrand, Yohannesburq, SA*



*1280-ci ildə təməli qoyulan və indiki formasını 1907-ci ildə alan Cennə məscidi Afrikanın mədəni simvollarından biridir və "BMT Dünya Mədəni İrs" siyahısındadır. Dünyada torpaq kərpiçdən tikilmiş yeganə məscid olan Cennə məscidi, ildə iki dəfə yerli sakinlər tərəfindən "Bani" çayından palçıq daşınaraq təmir olunur.*

*Dioulassa məscidi, Burkina Faso*

*Cenne məscidi, Cenne/Mali*





*(Hicri 115, M. 733-734 ci illərdə inşa edilən Dərbənd Cümə Məscidi Qafqazda tikilmiş ən qədim məscid hesab olunur.)*

## Azərbaycanda İslam

Azərbaycan Hz. Ömərin dövründə (22/642) fəth edildi. Hz. Osman Azərbaycanın müxtəlif şəhərlərində, xüsusən də mərkəzdə əsgərlər yerləşdirərək İslamın yayılması üçün böyük səylər göstərdi. Hz. Əlinin Azərbaycan valisi Əş'as bin Qeys əl-Kindi Ərdəbildə məscid tikdirmişdi. İslam dövründə bölgədə ticarət inkişaf etmiş və şəhərlər mühüm ticarət mərkəzlərinə çevrilmişdir.

Bölgədə yaşayan Xristian və Yəhudilər isə "Kitab əhli" olduqlari üçün yeni olan bir dini qəbul etməyə məcbur edilmir, əksinə, xristianların özləri oraya yaşamaq üçün gələn müsəlman ərəblərin gözəl əxlaqından təsirlənərək və əhalini islama dəvət edən dəvətçilərin sayəsində İslam dinini çox müvəffəqiyyətlə qəbul edirdilər

Təəssüf ki, bəzən İslamın Azərbaycan xalqına qılınc gücü ilə - zorla qəbul etdirildiyini iddia edənlər də olur. Halbuki bu cür cəfəng iddiaların nə elmi, nə də tarixi əsası vardır.  Həm də onu nəzərə almaq lazımdır ki, əgər İslam qılınc gücünə qəbul etdirilsəydi, onun Azərbaycanda ömrü bu qədər uzun olmaz və ümumxalq dininə çevrilməzdi. Əksinə, tarix göstərir k i, İslam dininin türk xalqları, o cümlədən, Azərbaycan xalqı arasında yayılması böyük tarixi əhəmiyyətə malik hadisə olub. Türk xalqları bu dini qəbul etməklə həm daha əhatəli və zəngin sivilizasiyanın əsasını qoyub, həm də bu sivilizasiyanın formalaşmasında, inkişafında, zənginləşməsində və qorunmasında mühüm rol oynayıblar.

Bütün islam tədqiqatçıları qeyd edirdilər ki, ərəblərin itaət altına aldıqları ölkələrin xalqları yeni dini kütləvi şəkildə qəbul edirdilər, çünki V. Rozenin dediyinə görə “Müsəlman ərəblər öz sadəliyi və bəsitliyi ilə əzəmətli, yeni bir din gətirmişdilər və dini təqib və didişmələrin təzyiqi altında haldan düşüb əzilən kütlələrin zövqünə bu yeni din xüsusən ona görə uyğun gəlmişdi ki, demək olar, hər yerdə yadellilərin ağır iqtisadi zülmündən kütlələri azad edən xilaskar kimi göstərirdi".

İslamın yayılmasında müsəlman ibadət yerləri də böyük rol oynamışdır. Belə ki, ərəblər Azərbaycanın Ərdəbil, Marağa, Beyləqan, Bərzənd, Bərdə, Dərbənd, Naxçıvan və digər strateji cəhətdən əhəmiyyəti olan şəhərlərində hərbi dəstələr saxlayırdılar. Bu hərbi dəstələrin yerləşdiyi ərazilərdə isə mütləq məscid inşa edilirdi. Tarixi mənbələrə görə, hal hazırdakı Azərbaycan ərazisində tikilən ilk məscid Şamaxı Cümə Məscididir.



*(Şamaxı Cümə məscidi Azərbaycan Respublikasının ərazisindəki ən qədim məsciddir. Məscid Ərəb sərkərdəsi xilafətin Azərbaycan canişini Məsləmə ibn Abdulmalik tərəfindən 743-744-ci (hicri 124-125) illərdə inşa edilmişdir.)*

Artıq X-XI əsrlərdə Azərbaycanın bütün yaşayış məntəqələrində müsəlman ibadətgahları mövcud idi.

Məsələn, ərəb səyyahı və coğrafiyaçısı Şəmsəddin Əbu Abdullah əl-Məqdisi, "İqlimlərin öyrənilməsi üçün mükəmməl təsnifat" adlı kitabında Təbriz, Ərdəbil, Mərənd, Urmiya, Şamaxı, Qəbələ, Şəki və Azərbaycanın digər şəhərlərində mövcud olan böyük məscidlər haqqında ətraflı məlumat verir.



Məscidlərin yanında fəaliyyət göstərən mədrəsələr - hansı ki burada dini elmlərlə yanaşı, müxtəlif dünyəvi fənlər də tədris olunurdu - fəth olunmuş ərazilərdə islamın möhkəmlənməsinə töhfə verirdi.

*(Gəncə imamzadə türbəsinin yerində ilk tikilinin inşa olunması tarixi bizim eranın VIII əsrinə təsadüf edir. Orta əsrlərdə vəqf binası kimi fəaliyyət göstərən kompleks, təmənnasız surətdə insanların ehtiyaclarının ödənilməsi üçün istifadə edilmişdir.)*



Mənbələrdə qüdrətli Azərbaycan Atabəylər dövlətində (1136-1225) mədrəsələrin inşasına xüsusi diqqətin yetirildiyi qeyd olunur. Atabəylər dövləti dövründə Xoy şəhərində "əl-Fərəc əl-Xuveyyə", Marağada "Atabəkiyyə" və "əl-Qazı" adlı mədrəsələr məşhur idi. Naxçıvanda Möminə Xatun türbəsi kompleksinə daxil olan mədrəsə də dövrün məşhur təhsil ocaqları sırasında yer alırdı.

*Yuxarı Gövhər ağa məscidi və ya Şuşa cümə məscidi. 1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında üçüncü məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa edilmişdir.*



Beləliklə, müxtəlif amillər səbəbilə, o cümlədən özündə mütərəqqi ideyalar ehtiva etdiyi üçün İslam dini Azərbaycanda yayıldı, tarix səhnəsindən əvvəlki inancları sıxışdırıb çıxararaq Azərbaycan xalqının qəlbində xüsusi yer tutdu. Bununla da Azərbaycan xalqı islam sivilizasiyasına daxil oldu. Bu isə xalqın taleyində müsbət rol oynadı.



*(Bakı Təzəpir Məscidi)*

Çünki İspaniyadan tutmuş Hindistanadək uzanan Ərəb xilafətinin tərkibində müxtəlif xalqların birləşməsi zəngin ümumislam mədəniyyətinin meydana gəlməsinə gətirib çıxardı. Hətta VIII-XIV əsrlər "İslamın qızıl çağı" və ya "müsəlman intibahı" kimi tarixə düşdü. O vaxtlar dünyada ən böyük tədris ocaqları, tibb müəssisələri, elm mərkəzləri məhz İslam aləmində fəaliyyət göstərir, müsəlman alimləri böyük kəşflərə imza atırdı.

Həmin dövrlərdə İslam dünyasında yaşanan tərəqqi Azərbaycanın qədim mədəniyyətinin inkişafına və daha da zənginləşməsinə səbəb olmuşdur. Azərbaycan xalqının özü də bu mədəniyyətin inkişafına böyük töhfələr vermiş, nəinki müsəlman aləminə, ümumən, bəşəriyyətə görkəmli alimlər, mədəniyyət və incəsənət xadimləri, mütəfəkkirlər bəxş etmişdir.

# İstifadə olunmuş ədəbiyyatlar


1. “Mənaqib Ali Əbi Talib” Muşiruddin Əbu Abdullah Muhəmməd ibn Əli İbn Şəhr Əşub; Nəcəf, Heydəriyyə nəşriyyatı 1376 h.
2. “Əvali əl-Ləəli əl-Aziyziyyə” Muhəmməd ibn Əli ibn İbrahim əl-Əhsaii; Qum. Şeyyidu əş-Şuhadə mətbəəsi 1403 h.
3. “Qiyadətu Muhəmməd ﷺ” Ader Con. Rami Kəlavinin tərcüməsi, 2011 m. Turas yayım evi, Birləşmiş Ərəb Əmirlikləri.
4. “İslam, a short history” Armstrong Karen, Nyu-York 2002 m.
5. “Muhammad, a prophet for our time” Armstrong Karen, Nyu-York 2007 m.
6. “Həyət Axir Nəbi” İslam Yusuf, Darussalam, Səudiyyə Ərəbistanı 1995 m.
7. “Riyadu əs-Salihin” İmam Nəvəvi, Misir, Qahirə 2003 m.
8. “əl-Burhan fi Təfsir əl-Quran” Haşim əl-Huseyni əl-Bəhrani, Muəssəsətu əl-Bisə, Qum.
9. “Səhih əl-Buxari” Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari, Dar əl-Əfkar əd-Duvaliyyə, İordaniya, Oman 1997 m.
10. “əl-Məhasin” Əhməd ibn Muhəmməd ibn Xalid əl-Bərqi, Dar əl-Kutub əl-İslamiyyə, Tehran 1370 h.
11. “Cami Əhadis əş-Şiya” əl-Həc Ağa Huseyn ət-Tabatabaii, əl-Elmiyyə mətbəəsi, Qum 1399 h.
12. “Mocuzatu əl-Quran” əl-Həc Yusuf Əhməd, Darussalam, Səudiyyə Ərəbistanı, Riyad 2010 m.
13. “Vəsail əş-Şiyə” Muhəmməd ibn əl-Həsən əl-Hurr əl-Amili, Muəssəsətu Ali əl-Beyt, Qum 1414 h.
14. “Tohaf əl-Uqul An Ali ər-Rasul” Muhəmməd əl-Həsən ibn Əli ibn əl-Huseyn Əbu Muhəmməd əl-Hərrani, Muəssəsətu ən-Nəşr əl-İslami, Qum 1404 h.
15. “Qurani Kərimin İngilis dilində tərcümə və təfsiri” Həmmad Əhməd Zəki, ABŞ 2007 m.
16. “Qurb əl-İsnad” Abdullah ibn Cəfər Əbu əl-Abbas əl-Humeyri əl-Qummi, Muəssəsətu Ali əl-Beyt, Qum 1413 h.
17. “Muhəmmədin ﷺ həyatı” kitabı, Alfons Deylamartin, ərəb dilinə tərcümə edən D. Muhəmməd əl-Qoba, Muəssəsətu Caizə Abduləziz Səud əl-Babtin, Kuveyt 2006 m.
18. “əl-Ecaz əl-Elmi fi əs-Sunnəti ən-Nəbəviyyə” Saleh Əhməd Rida, əl-Ubeykan araşdırmalar evi, Səudiyyə Ərəbistanı 2000 m.
19. “İnnəhə ən-Nubuvva: Bəsair və İbar Min Sirati Xayri əl-Bəşər” Dar əl-Xayr yayın evi, Birləşmiş Ərəb Əmirlikləri 2010 m.
20. “Mizan əl-Hikmə” Muhəmməd ər-Reyşəhri, Darulhədis, Qum 1375 h.

21. “Muxtəsər əl-Cami fi əs-Sirati ən-Nəbəviyyə” Samirə Zayed, Birinci nəşr, Suriya, Dəməşq 1995 m.
22. “əl-Xisal” Muhəmməd ibn Əli ibn əl-Huseyn ibn Babuya əl-Qummi əs-Saduq, Muəssəsətu ən-Nəşr əl-İslami, Qum 1403 h.
23. “Mustədrak əl-Vəsail” Mirzə Huseyn ən-Nuru əl-Tabarsi, Muəssəsətu Ali əl-Beyt, Livan, Beyrut 1408 h.
24. “Məkarim əl-Əxlaq” əl-Həsən ibn əl-Fadl Əbu Nasr ət-Tabarsi, Mənşurat əş-Şərif ər-Rida 1392 h.
25. “Təhzib əl-Əhkam” Muhəmməd ibn əl-Həsən Əbu Cəfər ət-Tusi, Dar əl-Kutub əl-İslamiyyə, Tehran 1364 h.
26. “Tarix əl-Mədinə əl-Munavvara” İlyas Abdulğani, Raşid yayım evi, Səudiyyə Ərəbistanı 2003 m.
27. “Nahdatu əl-Hadaratu əl-İslamiyyatu” Abdullah Abdulmunim, İqra yayım evi, Kuveyt 2010 m.
28. “Fiqhu əs-Sira” Muhəmməd əl-Ğazali, Dar əd-Davatu, Misir 2008 m.
29. “əl-Kafi” Muhəmməd ibnYaqub ibn İshaq Əbu Cəfər əl-Kuleyni, Dar əl-Kutub əl-İslamiyyə, Tehran 1388 h.
30. “Ravdatu əl-Ənvar fi Siyrati ən-Nəbiyyi əl-Muxtar” Safiyyurrəhman əl-Mubarakfori, Darussalam, Səudiyyə Ərəbistanı, ər-Riyad 1995 m.
31. “Bihər əl-Ənvar” Muhəmməd ibn Baqir əl-Məclisi, Muəssəsətu əl-Vəfa, Beyrut 1403 h.
32. “Ənnəhu əl-Haqqu” Quran və Sünnədə beynəlxalq elmi möcüzələr heyəti, Səudiyyə Ərəbistanı 2006 m.
33. “Zovcat ən-Nəbi fi Vaqiunə əl-Muasir” Casim əl-mətbu, Kuveyt 2001 m.
34. “Dəaim əl-İslam” ən-Nomən ibn Muhəmməd ibn Mənsur ət-Təmimi Əbu Hənifə əl-Məğribi, Dar əl-Məarif, Qahirə 1383 h.
35. “əl-Atlas ət-Tarixi Lisirati ər-Rasul ﷺ” Sami əl-Məğlus, Ubeykan araşdırmalar evi, Səudiyyə Ərəbistanı 2008 m.
36. “əl-Əmali” Muhəmməd ibn Muhəmməd ibn ən-Nomən əl-Akbəri Əbu Abdullah əl-Mufid, Dar əl-Mufid yayın evi, Livan, Beyrut 1414 h.
37. “Raudatu əl-Vaizin” Muhəmməd ibn əl-Fəttal ən-Nisabori, Mənşurat əş-Şərif ər-Rida, Qum.
38. “The 100: A Ranking of the Most İnfluential Persons in History” (Tarixin 100 ən nüfuzlu şəxslərinin reytinqi) Hart Maykl, ABŞ, Nyu-Cersi 1992 m.

## Electronic sources

https://corpus.quran.com/translation.jsp
http://www.vam.ac.uk/content/articles/c/calligraphy-in-islamic-art
https://www.metmuseum.org/toah/hd/cali/hd_cali.htm
https://www.sunnah.com

# NOTES